ALİ RİYAZİYYATA AİD ÇALIŞMALAR

ƏLİ ƏLİYEV
FİRƏNGİZ ƏLƏKBƏROVA
QİYMƏT CƏFƏROVA

Vəsaitin əlyazmasına Bakı Dövlət Universitetinin professoru M.B.Rəhimov və Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru R.M.Əliyev rəy vermişlər.

Elmi redaktoru: Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, prof. A.C.Hacıyev

Əliyev Əli Məhti oğlu, Ələkbərova Firəngiz Məmməd qızı, Cəfərova Qiymət Kamil qızı. **Ali riyaziyyata aid çalışmalar**. «R.N.Novruz-94» nəşriyyatı, Bakı, 2003, səh. 370

Dərs vəsaiti ali texniki institutların tələbələri üçün ali riyaziyyat proqramı əsasında yazılmışdır. Kitabdan universitetlərin təbiət fakultələrinin və kolleclərin tələbələri də istifadə edə bilərlər.

Ə $\frac{1602010000-034}{089-2003}$

ÖN SÖZ

Kitab müəllifin 1999-cu ildə nəşr olunmuş «Ali riyaziyyat» adlı dərs vəsaitində verilən nəzəri materialları tam əhatə edir (xətti cəbrin elementləri, analitik həndəsə, diferensial və inteqral hesabının elementləri, diferensial tənliklər, kompleks dəyişənli funksiyalar, ehtimal nəzəriyyəsinin elementləri və s.). Bundan başqa kitaba ali texniki universitetlərdə tədris olunan ali riyaziyyatın xüsusi kurslarını da əhatə edən materiallar daxil edilmişdir. Kitabın sonundakı əlavələr bölməsində elementar və ali riyaziyyatın əsas düsturları, teoremləri və bir sıra anlayışları yığcam şəkildə verilmişdir. Bunlar da tələbələrin dərs vəsaitindən istifadə etmək imkanlarını daha da artıra bilər.

Ali riyaziyyat fənni texniki universitetlərin birinci və ikinci kurslarında tədris olunduğu üçün onu uyğun olaraq bir neçə hissəyə bölürlər (xətti cəbr, vektorlar cəbri, analitik həndəsə, riyazi analiz və ali riyaziyyata aid kurslar). Biz bu qaydadan fərqli olaraq ali riyaziyyat kursunun bütün bölmələrini əhatə edən materialları bir kitabda yerləşdirmişik.

Müəllifin fikrincə ali riyaziyyat kursundan mühazirə oxuyan və ya məşğələ aparan müəllim, kollokvium üçün çalışmalar seçəndə, yoxlama yazı işləri üçün məsələlərin variantlarını tərtib edəndə və s. bu kimi hallarda göstərilən dərs vəsaitindən istifadə edə bilərlər.

16 fəsildən ibarət olan bu dərs vəsaitinə onun bütün fəsillərini tam əhatə edən 2650-dən çox yoxlama sualları, nümunəvi həllər və çalışmalar daxil edilmişdir.

Təklif olunan çalışmaların müəyyən hissəsi müəllif tərəfindən tərtib olunmuş, bir sıra çalışmalar isə müxtəlif dərs vəsaitlərindən götürülmüşdür. Belə ki, bəzi fəsillərdə çalışmalar elə seçilmişdir ki, onlardan sonrakı çalışmaların həllində istifadə olunsun.

Bu da kitabın daha da kompakt şəkildə olması üçün vacib amillərdən biridir. Bu dərs vəsaiti ali texniki universitetlərin tələbələri üçün yazılmasına baxmayaraq, ondan digər ali məktəblərin, texnikumların və kolleclərin uyğun fakultələrinin tələbələri də istifadə edə bilərlər.

Kitabın əlyazmasının müzakirəsi zamanı Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, prof. A.Hacıyev, Bakı Dövlət Universitetinin professorları M.Yaqubov, M.Rəhimov, K. Mansimov, Azərbaycan Texniki Universitetinin professoru M.Dünyamalıyev, Azərbaycan Me'marlıq və İnşaat Universitetinin professoru R.Əliyev, dos. Z.Nuriyev, Azərbaycan Dövlət Neft Akademiyasının dosenti V.Mehdiyev öz dəyərli məsləhətləri ilə müəllifə yaxından kömək etmişlər. Müəllif həmin yoldaşlara öz səmimi minnətdarlığını bildirir.

Müəllifin fikrincə bu kitab yəqin ki, nöqsansız deyil. Buna görə də kitabın gələcək nəşrinin daha da keyfiyyətli olması üçün arzu, təklif və rəylərini bizə-Azərbaycan Me'marlıq və İnşaat Universitetinin «Ali riyaziyyat» kafedrasına göndərən oxuculara qabaqcadan öz minnətdarlığımı bildirirəm.

Əli Əliyev

İkinci nəşrə ön söz

Birinci nəşrdən sonra aldığımız çox saylı arzu və təkliflər, kitabın yeni nəşrinə bir sıra əlavələr etmək zərürəti yaratdı. Belə ki, bütün tapşırıqların cavabları və 450-dən çox misal və məsələnin izahlı həllini verməyi lazım bildik. Bu arzu və təkliflərə görə oxucularımıza, kitabın ikinci nəşrində müəlliflərə yaxından köməklik göstərdiyinə görə AzMİU-nun kompyuter mərkəzinin riyaziyyatçı-proqramçısı Rafiq Əsədullayevə səmimi təşəkkürümüzü bildiririk.

Müəliflər

I FƏSİL

Xətti cəbr

Çalışma 1. Matrislərin cəmini, fərqini və hasilini tapın.

1) $A=\begin{pmatrix}1 & 1 & 3\\ 4 & 5 & -3\\ 0 & 4 & 2\end{pmatrix}$, $B=\begin{pmatrix}\frac{1}{2} & 0 & \frac{4}{3}\\ 5 & 2 & 1\\ 4 & 3 & -2\end{pmatrix}$,

2) $A=\begin{pmatrix}4 & 3 & 1\\ -2 & 6 & 0\\ 1 & 2 & 2\end{pmatrix}$, $B=\begin{pmatrix}-1 & 3 & -2\\ -\frac{1}{4} & 1 & 2\\ 3 & 0 & 5\end{pmatrix}$,

3) $A=\begin{pmatrix}1 & 5 & 0\\ 2 & -1 & 4\\ 3 & 5 & 8\end{pmatrix}$, $B=\begin{pmatrix}3 & 1 & 3\\ 3 & 4 & 2\\ 0 & 5 & -1\end{pmatrix}$,

4) $A=\begin{pmatrix}4 & -2 & 0\\ 5 & 9 & 14\\ 2 & 1 & -\frac{1}{2}\end{pmatrix}$, $B=\begin{pmatrix}3 & 5 & 11\\ 2 & -7 & 7\\ 5 & 3 & 10\end{pmatrix}$,

5) $A=\begin{pmatrix}4 & 2 & 0\\ 2 & 3 & -2\\ 4 & 1 & 4\end{pmatrix}$, $B=\begin{pmatrix}6 & 2 & 7\\ 4 & 0 & -4\\ \frac{1}{4} & 1 & 5\end{pmatrix}$,

6) $A=\begin{pmatrix}1 & 0 & -5\\ 1 & -1 & 5\\ 4 & 3 & 2\end{pmatrix}$, $B=\begin{pmatrix}4 & 10 & 0\\ 9 & -\frac{1}{3} & 5\\ 6 & 8 & 3\end{pmatrix}$,

7) $A=\begin{pmatrix}2 & -3 & 1\\ 6 & -5 & 0\\ 2 & 4 & 8\end{pmatrix}$, $B=\begin{pmatrix}1 & 4 & -\frac{1}{4}\\ 8 & 3 & 6\\ 0 & 5 & 2\end{pmatrix}$,

8) $A=\begin{pmatrix}-4 & 6 & 12\\ 4 & 6 & 4\\ 8 & 3 & 2\end{pmatrix}$, $B=\begin{pmatrix}1 & 4 & 6\\ 3 & 2 & 0\\ -5 & 10 & 7\end{pmatrix}$,

9) $A=\begin{pmatrix}14 & 0 & 13\\ -5 & 1 & 4\\ 6 & 8 & 3\end{pmatrix}$, $B=\begin{pmatrix}4 & 12 & -8\\ 5 & 0 & 3\\ 5 & 8 & -5\end{pmatrix}$,

10) $A=\begin{pmatrix}9 & -3 & 9\\ 0 & 2 & -2\\ 3 & 5 & 12\end{pmatrix}$, $B=\begin{pmatrix}4 & 5 & -5\\ 6 & 6 & 0\\ 4 & -8 & 7\end{pmatrix}$,

11) $A=\begin{pmatrix}-1 & 4 & 9\\ 1 & 2 & 3\\ 1 & 1 & 1\end{pmatrix}$, $B=\begin{pmatrix}5 & 4 & 0\\ -3 & 7 & -2\\ -1 & 4 & 6\end{pmatrix}$,

12) $A=\begin{pmatrix}1 & 3 & 2\\ 6 & -1 & 1\\ 0 & 1 & 4\end{pmatrix}$, $B=\begin{pmatrix}11 & 12 & 0\\ 17 & 4 & 5\\ -3 & -3 & 3\end{pmatrix}$,

13) $A=\begin{pmatrix} 2 & -4 & 1 \\ 1 & -2 & 0 \\ 3 & -1 & 5 \end{pmatrix}$, $B=\begin{pmatrix} 1 & 3 & 4 \\ 3 & 1 & -1 \\ 2 & 17 & 0 \end{pmatrix}$,

14) $A=\begin{pmatrix} -\frac{1}{5} & 5 & -5 \\ 4 & 3 & 0 \\ 12 & 5 & -8 \end{pmatrix}$, $B=\begin{pmatrix} 2 & 4 & 3 \\ 3 & 2 & -1 \\ 0 & 4 & 13 \end{pmatrix}$,

15) $A=\begin{pmatrix} 2 & -1 & 2 \\ 3 & -2 & 5 \\ 1 & -2 & -1 \end{pmatrix}$, $B=\begin{pmatrix} 1 & -2 & 4 \\ 2 & 3 & 3 \\ 4 & -1 & 11 \end{pmatrix}$,

16) $A=\begin{pmatrix} 13 & 14 & 0 \\ 4 & 2 & 8 \\ -1 & 4 & 3 \end{pmatrix}$, $B=\begin{pmatrix} -5 & 4 & 17 \\ -3 & 3 & -1 \\ 0 & 2 & 8 \end{pmatrix}$,

17) $A=\begin{pmatrix} -\frac{1}{3} & 4 & \frac{1}{5} \\ 2 & 3 & 0 \\ 4 & -6 & 5 \end{pmatrix}$, $B=\begin{pmatrix} 7 & 0 & -\frac{1}{4} \\ 3 & 2 & 9 \\ -4 & 3 & 1 \end{pmatrix}$.

Çalışma 2. 1-ci çalışmadakı matrislərin determinantlarını hesablayın və tərs matrislərini tapın.

Çalışma 3. Xətti tənliklər sistemini iki üsulla həll edin:
a) Kramer dusturları ilə; b) Matris üsulu ilə;

1) $\begin{cases} 2x+4y+6z=3 \\ 3x+y-z=1 \\ x+2y+3z=4 \end{cases}$,

2) $\begin{cases} 4x+y-3z=-4 \\ 2x-3y+z=2 \\ x+5y-4z=-5 \end{cases}$,

3) $\begin{cases} 3x+2y+2z=1 \\ x+y+z=2 \\ 4x+3y+3z=4 \end{cases}$,

4) $\begin{cases} 2x+y+3z=13 \\ x+y+z=6 \\ 3x+y+z=8 \end{cases}$,

5) $\begin{cases} 3x-y+2z=0 \\ 2x+3y-5z=0, \\ x+y+z=0 \end{cases}$

6) $\begin{cases} 2x+3y-z=3 \\ x-2y+z=4 \\ 4x-y+z=11 \end{cases}$,

7) $\begin{cases} x-y+2z=-5 \\ 4x-6y+z=3 \\ 7x+y-8z=14 \end{cases}$,

8) $\begin{cases} 4x-y+6z=0 \\ 3x-8y+5z=-2, \\ 7x+18y+z=12 \end{cases}$

9) $\begin{cases} 2x+y+3z=13 \\ x+y+z=6 \\ 3x+y+z=8 \end{cases}$,

10) $\begin{cases} 6x-y+7z=12 \\ 5x+6y+z=-8, \\ x+7y+5z=6 \end{cases}$

11) $\begin{cases} 2x+y+z=8 \\ 5x-3y+2z=3, \\ 7x+y+3z=20 \end{cases}$

12) $\begin{cases} 5x-4y-3z=4 \\ 4x-3y+2z=8, \\ 3x+2y+z=14 \end{cases}$

13) $\begin{cases} 5x-4y+z=3 \\ 3x+y-2z=31, \\ 8x-3y-z=1 \end{cases}$

14) $\begin{cases} 2x-y-z=12 \\ 6x-3y-3z=36, \\ 4x-2y-2z=24 \end{cases}$

15) $\begin{cases} 10x-8y+6z=8 \\ 4x+2y+21z=27, \\ x+y+z=3 \end{cases}$

16) $\begin{cases} 2x-y+z=2 \\ 3x+2y+2z=-2, \\ x-2y+z=1 \end{cases}$

17) $\begin{cases} x+2y+z=1 \\ 2x+y+z=-1. \\ x+3y+z=2 \end{cases}$

Çalışma 4. Xətti tənliklər sistemini Qauss üsulu ilə həll edin.

1) $\begin{cases} 5x+7y-4z-6t=3 \\ 3x-4y+z+3t=5 \\ 3x-5y+2z+4t=2 \end{cases}$,

2) $\begin{cases} x-2y+t=-3 \\ 3x-y-2z=1 \\ 2x+y-2z-t=4 \\ x+3y-2z-2t=7 \end{cases}$,

3) $\begin{cases} x+2y+3z=14 \\ y+2z+3t=20 \\ 3x+z+2t=10 \\ 2x+3y+t=12 \end{cases}$,

4) $\begin{cases} x-3y+5z-7t=12 \\ 3x-5y+7z-t=0 \\ 5x-7y+z-3t=4 \\ 7x-y+3z-5t=16 \end{cases}$,

5) $\begin{cases} x+y-z+t=4 \\ 2x-y+3z-2t=1 \\ y-z+2t=6 \\ 3x-y+z-t=0 \end{cases}$,

6) $\begin{cases} y-3z+4t=-5 \\ x-2z+3t=-4 \\ 3x+2y-5t=-12 \\ 4x+3y-5t=5 \end{cases}$,

7) $\begin{cases} x+y-6z-4t=6 \\ 3x-y-6z-4t=2 \\ 2x+3y+9z+2t=6 \\ 3x+2y+3z+8t=-7 \end{cases}$,

8) $\begin{cases} 5x+3y+t=12 \\ 3x+z+2t=10 \\ x+2y+3z=14 \\ y+2z+3t=20 \end{cases}$,

9) $\begin{cases} 2x-y+2z-t=0 \\ x+5y+4z+3t=1, \\ 5x+3y+8z+t=1 \end{cases}$

10) $\begin{cases} 4x-y+5z+t=11 \\ x+y-2z+4t=10, \\ 3x-2y+6z-t=8 \end{cases}$

11) $\begin{cases} 2x+7y+3z+t=6 \\ 3x+5y+2z+2t=4, \\ 9x+4y+z+7t=2 \end{cases}$ 12) $\begin{cases} 3x-y+3z+14t=-8 \\ 9x-3y+5z+6t=4 \\ 6x-2y+3z+14t=5 \end{cases}$,

13) $\begin{cases} 5x+y-3z=-6 \\ 2x-5y+7z=9 \\ 4x+2y-4z=-7 \\ 5x-2y+2z=1 \end{cases}$, 14) $\begin{cases} 3x+5y+z+9t=1 \\ 3x+7y+4z+8t=2 \\ x+3y+3z+5t=-1 \\ 2x+6y+5z+6t=1 \end{cases}$,

15) $\begin{cases} 8x-3y+6z+t=12 \\ 4x-12y-z+9t=0 \\ x+15y-2z+4t=18 \\ 21x+16y+z-19t=-13 \end{cases}$, 16) $\begin{cases} x-y+2z=5 \\ x+y+z=6 \\ 3x-6y+5z=6 \\ 2x-y+z=3 \end{cases}$,

17) $\begin{cases} 2x+5y-8z=8 \\ 2x+3y-5z=7 \\ x+8y-7z=12 \\ 4x+3y-9z=9 \end{cases}$.

Nümunəvi həllər

1) Matrislərin cəmini tapın.

$$A=\begin{pmatrix} 1 & 2 \\ 3 & 4 \end{pmatrix} \quad \text{və} \quad B=\begin{pmatrix} 5 & 3 \\ 2 & 7 \end{pmatrix}.$$

Həlli:

$$A+B=\begin{pmatrix} 1 & 2 \\ 3 & 4 \end{pmatrix}+\begin{pmatrix} 5 & 3 \\ 2 & 7 \end{pmatrix}=\begin{pmatrix} 1+5 & 2+3 \\ 3+2 & 4+7 \end{pmatrix}=\begin{pmatrix} 6 & 5 \\ 5 & 11 \end{pmatrix}.$$

2) Matrisləri vurun.

$$A=\begin{pmatrix} 1 & 2 \\ 3 & 1 \end{pmatrix} \quad \text{və} \quad B=\begin{pmatrix} 4 & 3 \\ 1 & 1 \end{pmatrix}.$$

Həlli:

$$AB=\begin{pmatrix}1 & 2\\ 3 & 1\end{pmatrix}\begin{pmatrix}4 & 3\\ 1 & 1\end{pmatrix}=\begin{pmatrix}1\cdot4+2\cdot1 & 1\cdot3+2\cdot1\\ 3\cdot4+1\cdot1 & 3\cdot3+1\cdot1\end{pmatrix}=\begin{pmatrix}6 & 5\\ 13 & 10\end{pmatrix}$$

$$BA=\begin{pmatrix}4 & 3\\ 1 & 1\end{pmatrix}\begin{pmatrix}1 & 2\\ 3 & 1\end{pmatrix}=\begin{pmatrix}4\cdot1+3\cdot3 & 4\cdot2+3\cdot1\\ 1\cdot1+1\cdot3 & 1\cdot2+1\cdot1\end{pmatrix}=\begin{pmatrix}13 & 11\\ 4 & 3\end{pmatrix}.$$

3) A^3 - tapın, əgər

$$A=\begin{pmatrix}3 & 1\\ 1 & 2\end{pmatrix}.$$

Həlli:

$$A^3=\begin{pmatrix}3 & 1\\ 1 & 2\end{pmatrix}\begin{pmatrix}3 & 1\\ 1 & 2\end{pmatrix}\begin{pmatrix}3 & 1\\ 1 & 2\end{pmatrix}=\begin{pmatrix}10 & 5\\ 5 & 5\end{pmatrix}\begin{pmatrix}3 & 1\\ 1 & 2\end{pmatrix}=\begin{pmatrix}35 & 20\\ 20 & 15\end{pmatrix}.$$

4) Determinantı hesablayın.

$$\Delta=\begin{vmatrix}2 & -1 & 0 & 0\\ 1 & 2 & -1 & 0\\ 0 & -1 & 2 & -1\\ 0 & 0 & -1 & 2\end{vmatrix}.$$

Həlli: Dördtərtibli bu determinantı birinci sətir elementlərinə görə hesablayaq.

$$\Delta = \begin{vmatrix} 2 & -1 & 0 & 0 \\ 1 & 2 & -1 & 0 \\ 0 & -1 & 2 & -1 \\ 0 & 0 & -1 & 2 \end{vmatrix} = 2(-1)^{1+1}\begin{vmatrix} 2 & -1 & 0 \\ -1 & 2 & -1 \\ 0 & -1 & 2 \end{vmatrix} +$$

$$+(-1)(-1)^{1+2}\begin{vmatrix} -1 & -1 & 0 \\ 0 & 2 & -1 \\ 0 & -1 & 2 \end{vmatrix} = 2(8-2-2)+1\cdot(-4+1) =$$

$$= 8-3 = 5.$$

5) Matrisin tərs matrisini tapın.

$$A = \begin{pmatrix} 1 & 2 & -1 \\ 3 & 0 & 2 \\ 4 & -2 & 5 \end{pmatrix}.$$

Həlli: A matrisinin determinantını hesablayaq.

$$\Delta = \begin{vmatrix} 1 & 2 & -1 \\ 3 & 0 & 2 \\ 4 & -2 & 5 \end{vmatrix} = 6+16-30+4 = -4 \neq 0.$$

Bu matrisin elementlərinin cəbri tamamlayıcılarını tapaq.

$$A_{11} = \begin{vmatrix} 0 & 2 \\ -2 & 5 \end{vmatrix} = 4, \quad A_{21} = -\begin{vmatrix} 2 & 1 \\ -2 & 5 \end{vmatrix} = -8, \quad A_{31} = \begin{vmatrix} 2 & -1 \\ 0 & 2 \end{vmatrix} = 4,$$

$$A_{12} = -\begin{vmatrix} 3 & 2 \\ 4 & 5 \end{vmatrix} = -7, \quad A_{22} = \begin{vmatrix} 1 & -1 \\ 4 & 5 \end{vmatrix} = 9, \quad A_{32} = -\begin{vmatrix} 1 & -1 \\ 3 & 2 \end{vmatrix} = -5,$$

$$A_{13} = -\begin{vmatrix} 3 & 0 \\ 4 & -2 \end{vmatrix} = -6, \quad A_{23} = -\begin{vmatrix} 1 & 2 \\ 4 & -2 \end{vmatrix} = 10, \quad A_{33} = \begin{vmatrix} 1 & 2 \\ 3 & 0 \end{vmatrix} = -6.$$

Onda

$$A^{-1}=\frac{1}{-4}\begin{pmatrix}4 & -8 & 4\\ -7 & 9 & -5\\ -6 & 10 & -6\end{pmatrix}=\begin{pmatrix}1 & 2 & -1\\ \frac{7}{4} & -\frac{9}{4} & \frac{5}{4}\\ \frac{3}{2} & -\frac{5}{2} & \frac{3}{2}\end{pmatrix}.$$

6) Matrisin ranqını tə'yin edin.

$$A=\begin{pmatrix}4 & 3 & 2 & 2\\ 0 & 2 & 1 & 1\\ 0 & 0 & 3 & 3\end{pmatrix}.$$

Həlli: Dördüncü sütun elementlərindən üçüncü sütun elementlərini çıxaq.

$$A\sim\begin{pmatrix}4 & 3 & 2 & 0\\ 0 & 2 & 1 & 0\\ 0 & 0 & 3 & 0\end{pmatrix}.$$

Dördüncü sütun elementlərini nəzərə almayaq.

$$A\sim\begin{pmatrix}4 & 3 & 2\\ 0 & 2 & 1\\ 0 & 0 & 3\end{pmatrix},\qquad \Delta=\begin{vmatrix}4 & 3 & 2\\ 0 & 2 & 1\\ 0 & 0 & 3\end{vmatrix}=24\neq 0$$

olduğundan A matrisinin ranqı 3-ə bərabərdir.

7) Kramer düsturları ilə tənliklər sistemini həll edin.

$$\begin{cases}x+2y+3z=7\\ x-3y+2z=5\\ x+y+z=3\end{cases}.$$

Həlli: $\Delta, \Delta_x, \Delta_y, \Delta_z$ determinantlarını hesablayaq.

$$\Delta = \begin{vmatrix} 1 & 2 & 3 \\ 1 & -3 & 2 \\ 1 & 1 & 1 \end{vmatrix} = -3+3+4-9-2-2 = 9 \neq 0,$$

$$\Delta_x = \begin{vmatrix} 7 & 2 & 3 \\ 5 & -3 & 2 \\ 3 & 1 & 1 \end{vmatrix} = -21+15+12+27-10-14 = 9,$$

$$\Delta_y = \begin{vmatrix} 1 & 7 & 3 \\ 1 & 5 & 2 \\ 1 & 3 & 1 \end{vmatrix} = 5+14+9-15-7-6 = 0,$$

$$\Delta_z = \begin{vmatrix} 1 & 2 & 7 \\ 1 & -3 & 5 \\ 1 & 1 & 3 \end{vmatrix} = -9+7+10+21-6-5 = 18,$$

Onda $x = \dfrac{9}{9} = 1, \quad y = \dfrac{0}{9} = 0, \quad z = \dfrac{18}{9} = 2.$

8) Matris metodu ilə tənliklər sistemini həll edin.

$$\begin{cases} x + 2y + z = 1 \\ 2x + y + z = -1 \\ x + 3y + z = 2 \end{cases}.$$

Həlli: Sistemi $AX = B$ şəkilində yazaq, burada

$$A = \begin{pmatrix} 1 & 2 & 1 \\ 1 & 1 & 1 \\ 1 & 3 & 1 \end{pmatrix}, \qquad X = \begin{pmatrix} x \\ y \\ z \end{pmatrix}, \qquad B = \begin{pmatrix} 1 \\ -1 \\ 2 \end{pmatrix}.$$

Δ determinantını və onun cəbri tamamlayıcılarını hesablayaq.

$$\Delta=\begin{vmatrix}1&2&1\\2&1&1\\1&3&1\end{vmatrix}=1+6+2-1-3-4=1\neq 0,\quad A_1=\begin{vmatrix}1&1\\3&1\end{vmatrix}=-2,$$

$$B_1=-\begin{vmatrix}2&1\\1&1\end{vmatrix}=-1,\quad C_1=\begin{vmatrix}2&1\\1&3\end{vmatrix}=5,\quad A_2=-\begin{vmatrix}2&1\\3&1\end{vmatrix}=1,$$

$$B_2=\begin{vmatrix}1&1\\1&1\end{vmatrix}=0,\quad C_2=-\begin{vmatrix}2&1\\1&1\end{vmatrix}=-1,\quad A_3=\begin{vmatrix}2&1\\1&1\end{vmatrix}=1,$$

$$B_3=-\begin{vmatrix}1&1\\2&1\end{vmatrix}=1,\quad C_3=\begin{vmatrix}1&2\\2&1\end{vmatrix}=-3.$$

Buradan

$$A^{-1}=\frac{1}{1}\begin{pmatrix}-2&1&1\\-1&0&1\\5&-1&-3\end{pmatrix}$$

olar. Onda

$$X=\begin{pmatrix}x\\y\\z\end{pmatrix}=\begin{pmatrix}-2&1&1\\-1&0&1\\5&-1&-3\end{pmatrix}\begin{pmatrix}1\\-1\\2\end{pmatrix}=\begin{pmatrix}-2-1+2\\-1+0+2\\5+1-6\end{pmatrix}=\begin{pmatrix}-1\\1\\0\end{pmatrix}$$

və ya

$$x=-1,\quad y=1,\quad z=0.$$

3) Qauss metodu ilə tənliklər sistemini həll edin.

$$\begin{cases}x-y+4z-3t=1\\2x-3y+3z-2t=2\\4x-9y+z-8t=-3\\x+6y-4z+8t=4.\end{cases}$$

Həlli: Sistemin

$$A=\begin{pmatrix}1 & -2 & 4 & -3 & 1\\ 2 & -3 & 3 & -2 & 2\\ 4 & -9 & 1 & -8 & -3\\ 1 & 6 & -4 & 8 & 4\end{pmatrix}$$

genişlənmiş matrisi üzərində müvafiq çevirmələr aparaq. II matrisin birinci sətrini –2-yə, -4-ə və –1-ə vurub uyğun olan ikinci, üçüncü və dördüncü sətrlə toplayaq.

$$A\sim\begin{pmatrix}1 & -2 & 4 & -3 & 1\\ 0 & 1 & -5 & 4 & 0\\ 0 & -1 & -15 & 4 & -7\\ 0 & 8 & -8 & 11 & 3\end{pmatrix}.$$

Alınan matrisin ikinci sətrini –1-ə və 8-ə vurub uyğun olan üçüncü və dördüncü sətrlərlə toplayaq.

$$A\sim\begin{pmatrix}1 & -2 & 4 & -3 & 1\\ 0 & 1 & -5 & 4 & 0\\ 0 & 0 & -20 & 8 & -7\\ 0 & 0 & 32 & -21 & 3\end{pmatrix}.$$

Nəhayət bu matrisin üçüncü sətrini $\frac{32}{20}$ ədədinə vurub dördüncü sətrlə toplasaq, alarıq

$$A\sim\begin{pmatrix}1 & -2 & 4 & -3 & 1\\ 0 & 1 & -5 & 4 & 0\\ 0 & 0 & -20 & 8 & -7\\ 0 & 0 & 0 & -\frac{41}{5} & -\frac{41}{5}\end{pmatrix}.$$

Axırıncı üçbucaq matrisinə uyğun tənliklər sistemini aşağıdakı şəkildə yazmaq olar.

$$\begin{cases} x-2y+4z-1=1 \\ y-5z+4t=0 \\ 20z+8t=-7 \\ -\dfrac{41}{5}t=-\dfrac{41}{5} \end{cases}.$$

Bu sistemi mə'lum qayda ilə həll etsək, onun

$$x=\frac{1}{2},\ \ y=-\frac{1}{4},\ \ z=\frac{3}{4},\ \ t=1.$$

həllərini taparıq.

III) Çalışma 1-in 3-cü misalının həlli:

$$A+B=\begin{pmatrix} 1 & 5 & 0 \\ 2 & -1 & 4 \\ 3 & 5 & 8 \end{pmatrix}+\begin{pmatrix} 3 & 1 & 3 \\ 3 & 4 & 2 \\ 0 & 5 & -1 \end{pmatrix}=\begin{pmatrix} 1+3 & 5+1 & 0+3 \\ 2+3 & -1+4 & 4+2 \\ 3+0 & 5+5 & 8-1 \end{pmatrix}=$$

$$=\begin{pmatrix} 4 & 6 & 3 \\ 5 & 3 & 6 \\ 3 & 10 & 7 \end{pmatrix}, \qquad AB=\begin{pmatrix} 1 & 5 & 0 \\ 2 & -1 & 4 \\ 3 & 5 & 8 \end{pmatrix}\begin{pmatrix} 3 & 1 & 3 \\ 3 & 4 & 2 \\ 0 & 5 & -1 \end{pmatrix}=$$

$$=\begin{pmatrix} 1\cdot3+5\cdot3+0\cdot0 & 1\cdot1+5\cdot4+0\cdot5 & 1\cdot3+5\cdot2+0\cdot(-1) \\ 2\cdot3+(-1)3+4\cdot0 & 2\cdot1+(-1)4+4\cdot5 & 2\cdot3+(-1)\cdot2+4\cdot(-1) \\ 3\cdot3+3\cdot5+0\cdot8 & 3\cdot1+5\cdot4+8\cdot5 & 3\cdot3+5\cdot2+8\cdot(-1) \end{pmatrix}=$$

$$=\begin{pmatrix} 18 & 21 & 13 \\ 3 & 18 & 0 \\ 24 & 63 & 11 \end{pmatrix}.$$

Eyni qayda ilə BA hesablamaq olar. Nəzərdə alaq ki, AB≠BA ola bilər.

11) Çalışma 2-nin 11-ci misalının həlli:

$$\Delta(B)=\begin{vmatrix} 5 & 4 & 0 \\ -3 & 7 & -2 \\ -1 & 4 & 6 \end{vmatrix}= 210+8+0+40+72=330\neq0$$

$$B_{11}= (-1)^{1+1}\begin{vmatrix} 7 & -2 \\ 4 & 6 \end{vmatrix}=42+8=50 \qquad B_{12}= (-1)^{1+2}\begin{vmatrix} -3 & -2 \\ -1 & 6 \end{vmatrix}=-(-18-2)=2$$

$$B_{13}= (-1)^{1+3}\begin{vmatrix} -3 & 7 \\ -1 & 4 \end{vmatrix}=-12+7= -5 \qquad B_{21}= (-1)^{2+1}\begin{vmatrix} 4 & 0 \\ 4 & 6 \end{vmatrix}=-(24-0)= -24$$

$$B_{22}= (-1)^{2+2}\begin{vmatrix} 5 & 0 \\ -1 & 6 \end{vmatrix}=30 \qquad B_{23}= (-1)^{2+3}\begin{vmatrix} 5 & 4 \\ -1 & 4 \end{vmatrix}= - (20+4) =-2$$

$$B_{31}= (-1)^{3+1}\begin{vmatrix} 4 & 0 \\ 7 & -2 \end{vmatrix}= -8 \qquad B_{32}= (-1)^{3+2}\begin{vmatrix} 5 & 0 \\ -3 & -2 \end{vmatrix}= 10$$

$$B_{33}= (-1)^{3+3}\begin{vmatrix} 5 & 4 \\ -3 & 7 \end{vmatrix}= 35+12=47$$

Onda

$$B^{-1}=\frac{1}{\Delta(B)}\begin{vmatrix} B_{11} & B_{21} & B_{31} \\ B_{12} & B_{22} & B_{32} \\ B_{13} & B_{23} & B_{33} \end{vmatrix}=\frac{1}{330}\begin{pmatrix} 50 & -24 & -8 \\ 20 & 30 & 10 \\ -5 & -24 & 47 \end{pmatrix}=$$

$$=\begin{pmatrix} \frac{5}{33} & -\frac{12}{165} & -\frac{4}{165} \\ \frac{2}{33} & \frac{1}{11} & \frac{1}{33} \\ -\frac{1}{66} & -\frac{4}{55} & \frac{47}{330} \end{pmatrix}.$$

I) Çalışma 3-ün 1-ci misalın həlli:

$$\Delta=\begin{vmatrix}2 & 4 & 6\\ 3 & 1 & -1\\ 1 & 2 & 3\end{vmatrix}= 6+36\text{-}4\text{-}6+4\text{-}36=0.$$

$$\Delta x=\begin{vmatrix}3 & 4 & 6\\ 1 & 1 & -1\\ 4 & 2 & 3\end{vmatrix}= 9+12\text{-}16\text{-}24+6\text{-}12=\text{-}25\neq 0$$

$\Delta x\neq 0$ olduğu üçün bu sistemin həlli yoxdur.

II) Çalışma 3-ün 2-ci misalının həlli:

$$A=\begin{pmatrix}4 & 1 & -3\\ 2 & -3 & 1\\ 1 & 5 & -4\end{pmatrix},\ B=\begin{pmatrix}-4\\ 2\\ -5\end{pmatrix},\ X=\begin{pmatrix}x\\ y\\ z\end{pmatrix}$$

İşarə edək.

$$\Delta(A)=\begin{vmatrix}4 & 1 & -3\\ 2 & -3 & 1\\ 1 & 5 & -4\end{vmatrix}=\text{-}2\neq 0,\ A_{11}=\begin{vmatrix}-3 & 1\\ 5 & -4\end{vmatrix}=7,$$

$$A_{12}=-\begin{vmatrix}2 & 1\\ 1 & -4\end{vmatrix}=9,\quad A_{13}=-\begin{vmatrix}2 & -3\\ 1 & 5\end{vmatrix}=13,$$

$$A_{21}=--\begin{vmatrix}1 & -3\\ 5 & -4\end{vmatrix}=-11,\quad A_{22}=\begin{vmatrix}4 & -3\\ 1 & -4\end{vmatrix}=-13,$$

$$A_{23}=-\begin{vmatrix}4 & 1\\ 1 & 5\end{vmatrix}=-19,\quad A_{31}=\begin{vmatrix}1 & -3\\ -3 & 1\end{vmatrix}=-8,$$

Alınan martisin üçüncü sətrini –3-ə və –4-ə vurub uyğun olaraq ikinci və dördüncü sətrlə toplayaq və ikinci sətrlə üçüncü sətrin yerini dəyişək.

$$A\sim\begin{pmatrix}1&1&-1&1&4\\0&0&5&-7&-13\\0&-1&0&1&2\\0&0&4&-8&-20\end{pmatrix}\sim\begin{pmatrix}1&1&-1&1&4\\0&-1&0&1&2\\0&0&5&-7&-13\\0&0&4&-8&-20\end{pmatrix}.$$

Axırıncı matrisdə üçüncü sətri $-\frac{4}{5}$-ə vurub dördüncü sət

toplayaq

$$A\sim\begin{pmatrix}1&1&-1&1&4\\0&-1&0&1&2\\0&0&5&-7&-13\\0&0&0&-\frac{12}{5}&-\frac{48}{5}\end{pmatrix}.$$

Bu üçbucaq matrisinə uyğun tənliklər sistemini aşağıdakı şəkildə yazmaq olar.

$$\left.\begin{array}{l}x+y-z+t=4\\-y+t=2\\5z-7t=-13\\-\frac{12}{5}t=-\frac{48}{5}\end{array}\right\}.$$

Bu sistemi məlum qayda ilə həll etsək, onun

x=1, y=2, z=3, t=4 həllini taparıq.

II FƏSİL

Analitik həndəsə

Çalışma 1. $\bar d$ vektorunun $\bar a,\bar b,\bar c$ vektorları üzrə ayrılışını tapın.

1) $\bar d(3,7,-7)$, $\bar a(2,1,0)$, $\bar b(1,-1,2)$, $\bar c(2,2,-1)$,
2) $\bar d(11,-1,4)$, $\bar a(1,-1,2)$, $\bar b(3,2,0)$, $\bar c(-1,1,1)$,
3) $\bar d(1,20,1)$, $\bar a(-2,3,5)$, $\bar b(1,-3,4)$, $\bar c(7,8,-1)$,
4) $\bar d(3,2,52)$, $\bar a(2,4,-6)$, $\bar b(1,3,5)$, $\bar c(0,-3,7)$,
5) $\bar d(15,-20,-1)$, $\bar a(0,2,1)$, $\bar b(0,1,-1)$, $\bar c(5,-3,2)$,
6) $\bar d(9,14,16)$, $\bar a(2,1,3)$, $\bar b(3,2,4)$, $\bar c(2,-3,1)$,
7) $\bar d(2,7,5)$, $\bar a(1,0,1)$, $\bar b(1,-2,0)$, $\bar c(0,3,1)$,
8) $\bar d(5,15,0)$, $\bar a(1,0,5)$, $\bar b(-1,3,2)$, $\bar c(0,-1,1)$,
9) $\bar d(-5,9,-13)$, $\bar a(0,1,20)$, $\bar b(3,-1,1)$, $\bar c(4,1,0)$,
10) $\bar d(3,4,-3)$, $\bar a(-5,5,0)$, $\bar b(2,1,-4)$, $\bar c(8,-16,17)$,
11) $\bar d(2,1,0)$, $\bar a(4,3,-8)$, $\bar b(-6,5,7)$, $\bar c(34,5,-26)$,
12) $\bar d(1,0,5)$, $\bar a(3,2,7)$, $\bar b(5,0,9)$, $\bar c(-4,2,-12)$,
13) $\bar d(6,11,9)$, $\bar a(1,2,4)$, $\bar b(-2,-1,1)$, $\bar c(4,3,-5)$,
14) $\bar d(2,9,17)$, $\bar a(2,2,6)$, $\bar b(-3,1,-5)$, $\bar c(1,-4,2)$,
15) $\bar d(9,13,-1)$, $\bar a(1,2,3)$, $\bar b(-2,-1,2)$, $\bar c(-1,3,-5)$,
16) $\bar d(11,-6,5)$, $\bar a(3,-2,1)$, $\bar b(-1,1,-2)$, $\bar c(2,1,-3)$,
17) $\bar d(-19,-1,7)$, $\bar a(0,1,1)$, $\bar b(-2,0,1)$, $\bar c(3,1,0)$.

Çalışma 2. $\bar a$ və $\bar b$ vektorlarına görə qurulan $\bar c$ və $\bar d$ vektorlarının kollinearlığını müəyyən edin.

1) $\bar a(5,0,-1)$, $\bar b(7,2,3)$, $\bar c=2\bar a-\bar b$, $\bar d=3\bar b-6\bar a$.
2) $\bar a(3,-2,6)$, $\bar b(-2,1,0)$, $\bar c=\bar b+3\bar a$, $\bar d=3\bar a-3\bar b$,

3) $\overline{a}(3,-6,1)$, $\overline{b}(1,4,-5)$, $\overline{c} = 2\overline{a} - 3\overline{b}$, $\overline{d} = 4\overline{b} + 2\overline{a}$.

4) $\overline{a}(4,3,-1)$, $\overline{b}(2,1,2)$, $\overline{c} = \frac{1}{3}\overline{a} + 2\overline{b}$, $\overline{d} = 3\overline{a} - \overline{b}$.

5) $\overline{a}(3,-7,8)$, $\overline{b}(7,-3,2)$, $\overline{c} = 3\overline{a} - 4\overline{b}$, $\overline{d} = 10\overline{a} - 6\overline{b}$.

6) $\overline{a}(1,-2,1)$, $\overline{b}(0,3,-2)$, $\overline{c} = 3\overline{a} + 5\overline{b}$, $\overline{d} = 5\overline{a} - 2\overline{b}$.

7) $\overline{a}(1,0,5)$, $\overline{b}(-1,4,2)$, $\overline{c} = \overline{a} - 3\overline{b}$, $\overline{d} = 3\overline{a} + 9\overline{b}$.

8) $\overline{a}(1,-3,4)$, $\overline{b}(2,0,-4)$, $\overline{c} = 5\overline{a} - 2\overline{b}$, $\overline{d} = 3\overline{a} - 6\overline{b}$.

9) $\overline{a}(3,-7,-6)$, $\overline{b}(5,-1,-2)$, $\overline{c} = 3\overline{a} - 2\overline{b}$, $\overline{d} = 2\overline{a} - 3\overline{b}$.

10) $\overline{a}(3,2,3)$, $\overline{b}(0,-2,-3)$, $\overline{c} = 3\overline{a} + 2\overline{b}$, $\overline{d} = 2\overline{a} - 3\overline{b}$.

11) $\overline{a}(1,1,-1)$, $\overline{b}(1,2,-3)$, $\overline{c} = 4\overline{a} + 2\overline{b}$, $\overline{d} = 2\overline{a} + 2\overline{b}$.

12) $\overline{a}(7,-7,0)$, $\overline{b}(3,-2,-1)$, $\overline{c} = \overline{a} + \overline{b}$, $\overline{d} = 3\overline{a} - 7\overline{b}$.

13) $\overline{a}(-3,1,7)$, $\overline{b}(5,0,8)$, $\overline{c} = 12\overline{b} - 9\overline{a}$, $\overline{d} = 3\overline{a} - 4\overline{b}$.

14) $\overline{a}(4,-6,-1)$, $\overline{b}(3,-7,0)$, $\overline{c} = 3\overline{a} + 2\overline{b}$, $\overline{d} = 5\overline{a} - 7\overline{b}$.

15) $\overline{a}(3,2,0)$, $\overline{b}(8,7,-3)$, $\overline{c} = 6\overline{a} - 3\overline{b}$, $\overline{d} = \overline{b} - 2\overline{a}$.

16) $\overline{a}(-1,3,8)$, $\overline{b}(4,2,9)$, $\overline{c} = 4\overline{a} - 3\overline{b}$, $\overline{d} = 2\overline{a} - \overline{b}$.

17) $\overline{a}(5,7,10)$, $\overline{b}(3,-1,6)$, $\overline{c} = \overline{b} - 2\overline{a}$, $\overline{d} = 4\overline{a} - 2\overline{b}$.

Çalışma 3. $\overline{AB}$ və $\overline{AC}$ vektorları arasındakı bucağın kosinusunu tapın.

1) $A(1,3,-2)$, $B(4,0,5)$, $C(0,1,2)$.

2) $A(1,-2,2)$, $B(1,4,0)$, $C(-4,1,1)$.

3) $A(-5,-5,3)$, $B(2,-4,4)$, $C(3,-2,6)$.

4) $A(-1,3,-7)$, $B(2,-1,5)$, $C(0,1,-5)$.

5) $A(6,-3,2)$, $B(4,-2,4)$, $C(1,2,-1)$.

6) $A(1,3,-2)$, $B(4,0,5)$, $C(0,1,2)$.

7) $A(-2,4,-2)$, $B(0,3,1)$, $C(0,3,-4)$.

8) $A(2,3,-1)$, $B(2,-1,-6)$, $C(1,-2,3)$.

9) $A(3,-2,1)$, $B(5,3,-1)$, $C(-4,-2,0)$.
10) $A(2,1,-1)$, $B(6,-1,-4)$, $C(4,2,1)$.
11) $A(0,0,3)$, $B(-2,1,1)$, $C(2,3,-2)$.
12) $A(3,1,4)$, $B(-1,6,5)$, $C(0,4,-1)$.
13) $A(6,6,2)$, $B(5,4,7)$, $C(2,4,7)$.
14) $A(7,0,2)$, $B(7,1,3)$, $C(8,-1,2)$.
15) $A(3,9,8)$, $B(3,8,4)$, $C(5,8,0)$.
16) $A(3,2,-3)$, $B(3,1,-4)$, $C(4,3,-3)$.
17) $A(0,-2,-3)$, $B(3,2,-3)$, $C(-1,0,-1)$.

Çalışma 4. $\overline{a},\overline{b},\overline{c}$ vektorlarının komplanarlığını müəyyən edin.

1) $\overline{a}(1,9,-11)$, $\overline{b}(2,3,-1)$, $\overline{c}(1,-1,3)$,
2) $\overline{a}(3,-2,1)$, $\overline{b}(3,-1,-2)$, $\overline{c}(2,1,2)$,
3) $\overline{a}(1,2,-3)$, $\overline{b}(3,-4,7)$, $\overline{c}(2,1,2)$,
4) $\overline{a}(2,-1,1)$, $\overline{b}(5,5,4)$, $\overline{c}(2,2,-1)$,
5) $\overline{a}(2,3,1)$, $\overline{b}(4,1,-2)$, $\overline{c}(6,3,-7)$,
6) $\overline{a}(-5,-4,8)$, $\overline{b}(3,-2,5)$, $\overline{c}(1,6,4)$,
7) $\overline{a}(2,2,2)$, $\overline{b}(-1,0,-1)$, $\overline{c}(2,3,1)$,
8) $\overline{a}(7,3,4)$, $\overline{b}(4,2,4)$, $\overline{c}(-1,-2,-1)$,
9) $\overline{a}(-2,4,-1)$, $\overline{b}(0,-2,-1)$, $\overline{c}(-7,10,-5)$,
10) $\overline{a}(6,7,4)$, $\overline{b}(4,3,1)$, $\overline{c}(-2,-4,-3)$,
11) $\overline{a}(3,2,-3)$, $\overline{b}(3,1,-4)$, $\overline{c}(4,3,-3)$,
12) $\overline{a}(-9,-4,-9)$, $\overline{b}(4,1,1)$, $\overline{c}(6,2,6)$,
13) $\overline{a}(1,1,1)$, $\overline{b}(4,3,2)$, $\overline{c}(2,3,4)$,
14) $\overline{a}(2,5,7)$, $\overline{b}(1,1,-1)$, $\overline{c}(1,2,2)$,
15) $\overline{a}(1,1,4)$, $\overline{b}(1,3,-1)$, $\overline{c}(2,-1,-1)$,

16) $\bar{a}(1,1,1)$, $\bar{b}(1,-2,1)$, $\bar{c}(3,3,1)$,

17) $\bar{a}(5,5,0)$, $\bar{b}(8,1,6)$, $\bar{c}(5,2,-1)$,

Çalışma 5. Təpələri A, B, C, D nöqtələrində yerləşən piram[illegible] danın həcmini hesablayın.

1) $A(6,1,1)$, $B(4,6,6)$, $C(7,9,5)$, $D(4,5,7)$.
2) $A(2,4,7)$, $B(0,-1,4)$, $C(4,5,5)$, $D(2,1,-1)$.
3) $A(4,6,3)$, $B(4,1,3)$, $C(5,7,8)$, $D(0,-1,-5)$.
4) $A(5,5,6)$, $B(2,2,2)$, $C(4,3,3)$, $D(4,5,4)$.
5) $A(6,3,8)$, $B(-6,0,3)$, $C(0,4,3)$, $D(5,-2,6)$.
6) $A(1,-1,2)$, $B(5,3,2)$, $C(1,-2,1)$, $D(-3,-5,6)$.
7) $A(2,5,-3)$, $B(0,-3,-1)$, $C(8,3,-1)$, $D(-2,3,-1)$.
8) $A(1,2,4)$, $B(3,10,-1)$, $C(-2,0,3)$, $D(-7,2,6)$.
9) $A(-5,0,-2)$, $B(-10,0,9)$, $C(1,9,4)$, $D(-3,2,5)$.
10) $A(1,0,11)$, $B(2,-8,12)$, $C(7,-5,6$, $D(1,-1,-1)$.
11) $A(-2,0,-5)$, $B(9,2,0)$, $C(6,3,-8)$, $D(3,4,-5)$.
12) $A(4,-2,1)$, $B(6,6,-4)$, $C(6,0,6)$, $D(8,-7,9)$.
13) $A(3,-5,4)$, $B(1,-7,2)$, $C(3,-3,-3)$, $D(4,2,-5)$.
14) $A(-7,1,-7)$, $B(3,-2,-9)$, $C(0,-7,9)$, $D(2,2,1)$.
15) $A(1,10,-2)$, $B(2,1,-1)$, $C(9,3,-2)$, $D(3,3,-5)$.
16) $A(12,4,-8)$, $B(0,3,2)$, $C(5,0,-7)$, $D(4,4,-8)$.
17) $A(3,-7,3)$, $B(13,2,2)$, $C(6,-2,-1)$, $D(5,0,-2)$.

Çalışma 6. 5-ci çalışmadakı D nöqtəsinin, A,B,[illegible] nöqtələrindən keçən müstəvidən olan məsafəsini tapın.

Çalışma 7. Müstəvilər arasındakı bucağın kosinusunu tapın.

1) $x+y+6=0$, $x+2y-1=0$,
2) $x+y+3z-7=0$, $y+z-1=0$,
3) $x+y+2z-3=0$, $11x-7y-2z-21=0$,

4) $3x + y + z - 4 = 0, \quad y + z + 3 = 0,$

5) $2x + 3y - z + 1 = 0, \quad x + y + 5z - 1 = 0,$

6) $x - y - 2z + 3 = 0, \quad x + 3y + 5z - 4 = 0,$

7) $x - 3y + 6 = 0, \quad 2x - y + 5z - 10 = 0,$

8) $3x - 2y - 2z - 6 = 0, \quad x + y - 3z - 5 = 0,$

9) $3x - y + 2z + 15 = 0, \quad 5x + 9y - 3z + 10 = 0,$

10) $3y - z = 0, \quad 2y + z = 0,$

11) $5x + 3y + z - 8 = 0, \quad 2y + z - 3 = 0,$

12) $x + 2y - 2z - 5 = 0, \quad x + y + 15 = 0,$

13) $2x - 3y + 6z - 12 = 0, \quad 2x - y + 2z + 9 = 0,$

14) $2y + z + 7 = 0, \quad x - y + 2z - 1 = 0,$

15) $5x + 3y + z - 16 = 0, \quad 2y + z - 7 = 0,$

16) $2x + 3y - 16z - 7 = 0, \quad 3x + y - 17z = 0,$

17) $2x - y + 3z - 1 = 0, \quad 5x + 4y - z - 7 = 0.$

Çalışma 8. 7-ci çalışmadakı düz xətlərin kanonik tənliklərini yazın.

Çalışma 9. Düz xətt və müstəvinin kəsişmə nöqtəsini tapın.

1) $\dfrac{x-3}{3} = \dfrac{y-2}{-1} = \dfrac{z-1}{5}, \quad x - 2y + z - 5 = 0,$

2) $\dfrac{x-5}{2} = \dfrac{y-3}{-1} = \dfrac{z-2}{2}, \quad 3x + y - 5z + 3 = 0,$

3) $\dfrac{x-3}{2} = \dfrac{y+1}{3} = \dfrac{z+3}{2}, \quad 3x + 4y + 7z - 6 = 0,$

4) $\dfrac{x-1}{1} = \dfrac{y+5}{-1} = \dfrac{z}{2}, \quad 3x + 4y + 3z - 5 = 0,$

5) $\dfrac{x-2}{2} = \dfrac{y-2}{-2} = \dfrac{z-4}{3}, \quad 5x - y + 4z + 1 = 0,$

6) $\dfrac{x-6}{5}=\dfrac{y-3}{4}=\dfrac{z-2}{3}$, $\quad 2x+3y+8z-16=0$,

7) $\dfrac{x+1}{3}=\dfrac{y-3}{4}=\dfrac{z+1}{5}$, $\quad x+2y+5z+10=0$,

8) $\dfrac{x}{2}=\dfrac{y+3}{1}=\dfrac{z-2}{-2}$, $\quad 2x+3y-z+5=0$,

9) $\dfrac{x+1}{3}=\dfrac{y-2}{-1}=\dfrac{z}{4}$, $\quad x+y+2z+1=0$,

10) $\dfrac{x-2}{2}=\dfrac{y+5}{-4}=\dfrac{z+1}{3}$, $\quad 5x+y+6z-7=0$,

11) $\dfrac{x+2}{4}=\dfrac{y-3}{5}=\dfrac{z-1}{-2}$, $\quad 5x+3y-7z+1=0$,

12) $\dfrac{x-1}{2}=\dfrac{y-3}{-2}=\dfrac{z+2}{5}$, $\quad 4x+3y-z+3=0$,

13) $\dfrac{x+1}{2}=\dfrac{y-3}{4}=\dfrac{z}{3}$, $\quad 3x-3y+2z-3=0$,

14) $\dfrac{x-13}{8}=\dfrac{y-1}{2}=\dfrac{z-4}{3}$, $\quad x+2y-4z-1=0$,

15) $\dfrac{x-7}{5}=\dfrac{y-4}{1}=\dfrac{z}{4}$, $\quad 3x-y+2z-5=0$,

16) $\dfrac{x-1}{1}=\dfrac{y+1}{-2}=\dfrac{z}{6}$, $\quad 2x+3y+z-1=0$,

17) $\dfrac{x+2}{-2}=\dfrac{y-1}{3}=\dfrac{z-3}{2}$, $\quad x+2y-2z+6=0$.

Çalışma 10. Tənliklərin hansı xətləri tə'yin etdiyini müəyyən edin.

1) $y^2-6x+14y+49=0$,

2) $16x^2+25y^2-32x+50y-359=0$,

3) $x^2 - 9y^2 + 2x + 36y - 44 = 0,$

4) $y^2 - 10x - 2y - 19 = 0,$

5) $2x^2 + 2y^2 - 8x + 5y - 4 = 0,$

6) $9x^2 - 6x - y + 2 = 0,$

7) $x^2 + 4y^2 + 4x - 16y - 8 = 0,$

8) $5x^2 + 9y^2 - 30x + 18y + 9 = 0,$

9) $y = 3 - 4\sqrt{x-1},$

10) $x = -4 + 3\sqrt{y+5},$

11) $16x^2 - 9y^2 - 64x - 18y + 199 = 0,$

12) $x = 2 - \sqrt{6-2y},$

13) $y = -5 + \sqrt{-3x-21},$

14) $x^2 - y^2 - 6x + 10 = 0,$

15) $x^2 + y^2 - 10x - 6y + 25 = 0,$

16) $\frac{x^2}{2} - \frac{z^2}{3} = y$ və $3x - 3y + 4z + 2 = 0,$

17) $\frac{x^2}{3} + \frac{y^2}{6} = 2z$ və $3x - y + 6z - 14 = 0,$

Nümunəvi həllər

1) $\bar{a} = 2\bar{i} + 3\bar{j} - \bar{k}$, $\bar{b} = -\bar{i} + 3\bar{k}$, $\bar{c} = -\bar{i} + \bar{j} - 2\bar{k}$ vektorlarının cəmini tapın.

Həlli: $\bar{d} = \bar{a} + \bar{b} + \bar{c}$ işarə edək.

$\bar{d} = (2\bar{i} + 3\bar{j} - \bar{k}) + (-\bar{i} + 3\bar{k}) + (-\bar{i} + \bar{j} - 2\bar{k}) = 4\bar{j}$. $d = 4\bar{j}$ vektoru Oy oxu ilə kollineardır.

2) $\bar{a} = 5\bar{i} - 4\bar{j} + 2\sqrt{2}\bar{k}$ vektorunun uzunluğunu tapın.

Həlli:

$$|\overline{a}| = \sqrt{5^2 + (-4)^2 + (2\sqrt{2})^2} = \sqrt{25+16+8} = 7.$$

3) $\overline{a} = 3\overline{i} - 4\overline{j} + 6\overline{k}$ vektorunun ort vektorunu tapın.

Həlli:

$$|\overline{a}| = \sqrt{3^2 + (-4)^2 + 6^2} = \sqrt{9+16+36} = \sqrt{61}.$$

$$\overline{a}_0 = \frac{\overline{a}}{|\overline{a}|} = \frac{3\overline{i} - 4\overline{j} + 6\overline{k}}{\sqrt{61}} = \frac{3}{\sqrt{61}}\overline{i} - \frac{4}{\sqrt{61}}\overline{j} + \frac{6}{\sqrt{61}}\overline{k}.$$

4) $\overline{a} = 20\overline{i} + 30\overline{j} - 60\overline{k}$ vektorunun istiqamətləndirici kosinuslarını tapın.

Həlli:

$$|\overline{a}| = \sqrt{20^2 + 30^2 + (-60)^2} = \sqrt{200+900+3600} = 70$$

$$\cos\alpha = \frac{20}{70} = \frac{2}{7}; \quad \cos\beta = \frac{30}{70} = \frac{3}{7}; \quad \cos\gamma = \frac{-60}{70} = -\frac{6}{7}.$$

5) $\overline{a} = \overline{i} - 3\overline{j} + \overline{k}$ və $\overline{b} = \overline{i} + \overline{j} - 4\overline{k}$ vektorlarının skalyar hasilini tapın.

Həlli:

$$(\overline{a}, \overline{b}) = 1\cdot 1 + (-3)\cdot 1 + 1\cdot(-4) = 1 - 3 - 4 = -6.$$

6) $\overline{a} = \overline{i} + \overline{j} - 4\overline{k}$ və $\overline{b} = \overline{i} - 2\overline{j} + 2\overline{k}$ vektorları arasındakı bucağı tapın.

Həlli:

$$\cos\varphi = \frac{(\overline{a}, \overline{b})}{|\overline{a}|\cdot|\overline{b}|} = \frac{1-2-8}{\sqrt{1+1+6}\sqrt{1+4+4}} = -\frac{\sqrt{2}}{2}; \quad \varphi = 135^0.$$

7) $\overline{a} = 3\overline{i} + 4\overline{j} - \overline{k}$ vektorunun $\overline{b} = \overline{i} + \overline{j}$ vektoru üzərində proyeksiyasını tapın.

Həlli: Məlumdur ki, $\Pi p_{\bar b}\bar a=|\bar a|\cos(\bar a,\bar b)$. Onda

$$\Pi p_{\bar b}\bar a=\sqrt{3^2+4^2+(-1)^2}\,\frac{3\cdot1+4\cdot1+(-1)\cdot0}{\sqrt{3^2+4^2+(-1)^2}\sqrt{1^2+1^2}}=$$

$$=\sqrt{26}\,\frac{7}{\sqrt{26}\cdot\sqrt{2}}=\frac{7\sqrt2}{2}.$$

8) $\bar a=2\bar i+3\bar j+5\bar k$ və $\bar b=\bar i+2\bar j+\bar k$ vektorlarının vektorial hasilini tapın.

Həlli:

$$\bar a\times\bar b=\begin{vmatrix}\bar i&\bar j&\bar k\\2&3&5\\1&2&1\end{vmatrix}=\bar i\begin{vmatrix}3&5\\2&1\end{vmatrix}-\bar j\begin{vmatrix}2&5\\1&1\end{vmatrix}+\bar k\begin{vmatrix}2&3\\1&2\end{vmatrix}=-7\bar i+3\bar j+\bar k.$$

9) $\bar a=2\bar i-\bar j-\bar k,\ \bar b=\bar i+3\bar j-\bar k,\ \bar c=\bar i+\bar j+4\bar k$ vektorlarının qarışıq hasilini tapın.

Həlli:

$$(\bar a,\bar b,\bar c)=\begin{vmatrix}2&-1&-1\\1&3&-1\\1&1&4\end{vmatrix}=2\begin{vmatrix}3&-1\\1&4\end{vmatrix}+1\cdot\begin{vmatrix}1&-1\\1&4\end{vmatrix}-1\cdot\begin{vmatrix}1&3\\1&1\end{vmatrix}=$$

$$=26+5+2=33.$$

10) Təpələri $A(2,2,2), B(4,3,3), C(4,5,4)$ və $D(5,5,6)$ nöqtələri olan piramidanın həcmini tapın.

Həlli: $\bar a=\overline{AB}=2\bar i+\bar j+\bar k,\ \bar b=\overline{AC}=2\bar i+3\bar j+2\bar k$ və $\bar c=\overline{AD}=3\bar i+3\bar j+4\bar k$ olduğundan alarıq:

$$V=\frac16\begin{vmatrix}2&1&1\\2&3&2\\3&3&4\end{vmatrix}=\frac16\left|\left(2\begin{vmatrix}3&2\\3&4\end{vmatrix}-1\begin{vmatrix}2&2\\3&4\end{vmatrix}+1\begin{vmatrix}2&3\\3&3\end{vmatrix}\right)\right|=$$

$$=\frac16|(12-2-3)|=\frac76,\quad V=1\frac16.$$

11) $A(2,0)$ və $B(0,1)$ nöqtələrindən bərabər məsafədə yerləşən nöqtələrin həndəsi yerinin tənliyini yazın.

Həlli: Tutaq ki, $M(x,y)$ nöqtəsi axtarılan düz xəttin üzərində yerləşir. Onda

$$d(A,M)=d(B,M)$$

$$\sqrt{(x-2)^2+(y-0)^2}=\sqrt{(x-0)^2+(y-1)^2}$$

$$x^2-4x+4+y^2=x^2+y^2-2y+1 \quad \text{və ya} \quad y=2x-1{,}5.$$

12) $A(3,1)$ və $B(5,4)$ nöqtələrindən keçən düz xəttin tənliyini yazın.

Həlli: İki nöqtədən keçən düz xəttin tənliyinə görə alarıq:

$$\frac{x-3}{5-3}=\frac{y-1}{4-1} \quad \text{və ya} \quad 3x-2y-7=0.$$

13) $A(1,1)$ nöqtəsindən keçən və 0x oxunun müsbət istiqaməti ilə 60^0 bucaq əmələ gətirən düz xəttin tənliyini yazın.

Həlli: $k=tg60^0=\sqrt{3}$ olduğundan verilən nöqtədən verilən istiqamətdə keçən düz xəttin tənliyinə görə alarıq:

$$y-1=\sqrt{3}(x-1) \quad \text{və ya} \quad y=\sqrt{3}x+1-\sqrt{3}.$$

14) Koordinat oxlarından kəsdiyi parçalar 5 və –3 olan düz xəttin tənliyini yazın.

Həlli: a=5, b=-3 olduğundan düz xəttin parçalarla tənliyini yazaq:

$$\frac{x}{5}+\frac{y}{-3}=1 \quad \text{və ya} \quad \frac{x}{5}-\frac{y}{3}=1.$$

15) $y=2x+1$ və $y=-3x+5$ düz xətləri arasındakı bucağı tapın.

Həlli: $k_1=2,\ k_2=-3$ olduğundan iki düz xətt arasındakı bucaq düsturuna görə alarıq:

$$tg\varphi=\frac{-3-2}{1-6}=1, \quad \varphi=45^0.$$

16) Normalının uzunluğu 3 və 0x oxunun müsbət istiqaməti ilə əmələ gətirdiyi bucaq 30^0 olan düz xəttin normal tənliyini yazın.

Həlli: $p = 3,\ \varphi = 30^0$ olduğundan düz xəttin normal tənliyinə görə alarıq:

$$x\cos 30^0 + y\sin 30^0 - 3 = 0 \quad \text{və ya} \quad \frac{\sqrt{3}}{2}x + \frac{1}{2}y - 3 = 0.$$

17) $3x - 4y - 10 = 0$ düz xətt tənliyini normal şəkilə gətirin.

Həlli: $C = -10 < 0$ olduğundan normallaşdırıcı M vuruğunu müsbət işarə ilə götürmək lazımdır.

$$M = \frac{1}{\sqrt{9+16}} = \frac{1}{5}$$

Onda

$$\frac{1}{5}(3x - 4y - 10) = 0 \quad \text{və ya} \quad \frac{3}{5}x - \frac{4}{5}y - 2 = 0.$$

18) $A(-2,-3)$ nöqtəsindən $8x + 15y + 27 = 0$ düz xəttinə qədər olan məsafəni tapın.

Həlli: Nöqtədən düz xəttə qədər olan məsafə düsturuna görə alarıq:

$$d = \frac{|8(-2) + 15(-3) + 27|}{\sqrt{64 + 225}} = \frac{34}{17} = 2.$$

19) A(2,3,5) nöqtəsindən keçən və normal vektoru $\overline{n}(4,3,2)$ olan normal müstəvinin tənliyini yazın.

Həlli: Müstəvinin vektorial tənliyinə görə:

$4(x-2) + 3(y-3) + 2(z-5) = 0$ və ya $4x + 3y + 2z - 27 = 0$,

20) $A(2,3,0)$, $B(2,0,-5)$, $C(0,3,-5)$ nöqtələrindən keçən müstəvinin tənliyini yazın.

Həlli: Üç nöqtədən keçən müstəvinin tənliyinə görə:

$$\begin{vmatrix} x-2 & y-3 & z \\ 0 & -3 & -5 \\ -2 & 0 & -5 \end{vmatrix} = 0 \quad \text{və ya} \quad 15x + 10y - 6z - 60 = 0.$$

21) Müstəvinin $2x - y + 2z + 9 = 0$ tənliyini normal şəkilə gətirin.

Həlli: $D = 9 > 0$, olduğundan normallaşdırıcı M vuruğunu mənfi işarə ilə götürmək lazımdır.

$$M=-\frac{1}{\sqrt{4+1+4}}=-\frac{1}{3}.$$

Onda

$$-\frac{1}{3}(2x-y+2z+9=0) \text{ və ya } -\frac{2}{3}x+\frac{1}{3}y-\frac{2}{3}z-3=0.$$

22) $x+2y-2z+1=0$ və $x+y-4=0$ müstəviləri arasındakı bucağı tapın.

Həlli: $A_1=1,\ B_1=2,\ C_1=-2,\ A_2=1,\ B_2=1,\ C_2=0$ olduğundan iki müstəvi arasındakı bucaq düsturuna görə:

$$\cos\varphi=\frac{1\cdot1+2\cdot1+(-2)\cdot0}{\sqrt{1+4+4}\sqrt{1+1}}=\frac{1}{\sqrt{2}},\quad \varphi=45^0.$$

23) $A(1,-1,2)$ nöqtəsindən $4x-4y+2z+33=0$ müstəvisinə qədər olan məsafəni tapın.

Həlli: Nöqtədən müstəviyə qədər olan məsafə düsturuna görə:

$$d=\frac{|1\cdot4+(-1)(-4)+2\cdot2+33|}{\sqrt{16+16+4}}=\frac{45}{6}=7\frac{1}{2}.$$

24) $A(2,0,-3)$ nöqtəsindən keçib, $\overline{a}(2,-3,5)$ vektoruna normal olan düz xəttin kanonik tənliyini yazın.

Həlli: $m=2, n=-3, p=5,\ x_0=2,\ y_0=0,\ z_0=-3$ olduğundan fəzada düz xəttin kanonik tənliyinə görə:

$$\frac{x-2}{2}=\frac{y-0}{-3}=\frac{z-(-3)}{5} \quad \text{və ya} \quad \frac{x-2}{2}=\frac{y}{-3}=\frac{z+3}{5}.$$

25) $A(1,-2,1)$ və $B(3,1,-1)$ nöqtələrindən keçən düz xəttin kanonik tənliyini yazın.

Həlli:

$x_1=1,\ y_1=-2,\ z_1=1,\ x_2=3,\ y_2=1,\ z_2=-1$ olduğundan iki nöqtədən keçən düz xəttin kanonik tənliyinə görə:

$$\frac{x-1}{3-1}=\frac{y+2}{1+2}=\frac{z-1}{-1-1} \quad \text{və ya} \quad \frac{x-1}{2}=\frac{y-2}{3}=\frac{z-1}{-2}.$$

26) $\begin{cases} x-2y+3z+1=0 \\ 2x+y-4z-8=0 \end{cases}$ düz xətttin kanonik tənliyini yazın.

Həlli: Sistemdən əvvəlcə x-i sonra isə y-i yox edək.

$$y-2z-2=0, \quad x-z-3=0$$

Bu tənliklərin hər birini z-ə nəzərən həll etsək alarıq:

$$z=\frac{y-2}{2}=\frac{x-3}{1} \text{ və ya } \frac{x-3}{1}=\frac{y-2}{2}=\frac{z}{1}.$$

27) $\frac{x-3}{1}=\frac{y+2}{-1}=\frac{z}{\sqrt{2}}$ və $\frac{x+2}{1}=\frac{y-3}{1}=\frac{z+5}{\sqrt{2}}$ düz xətləri arasındakı bucağı tapın.

Həlli: $m_1=1, n_1=-1, p_1=\sqrt{2}, m_2=1, n_2=1, p_2=\sqrt{2}$ olduğundan iki düz xətt arasındakı bucaq düsturuna görə:

$$\cos\varphi=\frac{1\cdot 1+1\cdot(-1)+\sqrt{2}\cdot\sqrt{2}}{\sqrt{1+1+2}\sqrt{1+1+2}}=\frac{1}{2}, \quad \varphi=60^0.$$

28) $A(1,-1,2)$ nöqtəsindən $\frac{x+3}{3}=\frac{y+2}{2}=\frac{z-8}{-2}$ düz xəttinə qədər olan məsafəni tapın.

Həlli:

$x_1=1,\ y_1=-1,\ z_1=-2,\ x_0=-3,\ y_0=-2,\ z_0=8, m=3, n=2,$

$p=-2$ olduğundan nöqtədən düz xəttə qədər olan məsafə düsturuna görə:

$$d=\frac{\sqrt{\begin{vmatrix}1 & -10\\ 2 & -2\end{vmatrix}^2+\begin{vmatrix}-10 & 4\\ -2 & 3\end{vmatrix}^2+\begin{vmatrix}4 & 1\\ 3 & 2\end{vmatrix}^2}}{\sqrt{9+4+4}}=\frac{\sqrt{324+484+25}}{\sqrt{17}}=$$

$$=\frac{7\sqrt{17}}{\sqrt{17}}=17.$$

29) $\frac{x-2}{2}=\frac{y-1}{-3}=\frac{z+1}{-1}$ düz xətti ilə $x+2y-z+3=0$ müstəvisi arasındakı bucağı tapın.

Həlli: $m=2, n=-3,\ p=-1,\ A=1,\ B=2,\ C=-1$ olduğundan düz xətlə müstəvi arasındakı bucaq düsturuna görə:

$$\sin\varphi = \frac{1\cdot 2+2\cdot(-3)+(-1)(-1)}{\sqrt{1+2+1}\sqrt{4+9+1}} = \frac{3}{\sqrt{6}\cdot\sqrt{14}} = \frac{\sqrt{21}}{14} \approx 0{,}3274,$$

$$\varphi = 19^0 7'.$$

30) Radiusu R=5 və mərkəzi C(2,-3) nöqtəsində olan çevrənin tənliyini yazın.

Həlli: $R=5,\ a=2, b=-3$ olduğundan çevrə tənliyinə görə:

$$(x-2)^2+(y+3)^2=25.$$

31) $x^2+y^2-4x+6y-3=0$ çevrəsi verilmişdir. Onun mərkəzini və radiusunu tapın.

Həlli: Bu tənliyi aşağıdakı kimi çevirək.

$$(x^2-4x+4)+(y^2+6y+9)-4-9-3=0$$

və ya

$$(x-2)^2+(y+3)^2=16.$$

Deməli, $C(2,-3)$ və $R=4$.

32) $A(3,-2)$ və $B\left(3\sqrt{\frac{3}{2}},\sqrt{2}\right)$ nöqtələrindən keçən ellipsin kanonik tənliyini yazın.

Həlli: Ellipsin kanonik tənliyi

$$\frac{x^2}{a^2}+\frac{y^2}{b^2}=1$$

verilən nöqtələrin koordinatlarını ödəməlidir, yə'ni

$$\frac{9}{a^2}+\frac{4}{b^2}=1, \quad \frac{27}{2a^2}+\frac{2}{b^2}=1.$$

Buradan taparıq ki, $a^2=18,\ b^2=8.$ Beləliklə, ellipsin tənliyi

$$\frac{x^2}{18}+\frac{y^2}{8}=1$$

şəklində olar.

33) $7x^2-9y^2=63$ hiperbolası verilmişdir. Onun yarımoxlarını, fokuslarını, ekssentrisitetlərini hesablayın, asimptotlarının və direktrislərinin tənliklərini yazın.

Həlli: Tənliyin hər tərəfini 63-ə bölək.

$$\frac{x^2}{9}+\frac{y^2}{7}=1$$

Buradan

$$a^2=9,\ b^2=7,\ a=3,\ b=\sqrt{7},\ c=\sqrt{a^2+b^2}=\sqrt{9+7}=4.$$

Onda fokusun koordinatları $F_1(-4{,}0)$, $F_2(4{,}0)$ və ekssentrisitet $\varepsilon=\frac{c}{a}=\frac{4}{3}$ olar. Asimptotların tənlikləri

$$y=\frac{b}{a}x=\frac{\sqrt{7}}{3}x,\quad y=-\frac{b}{a}x=-\frac{\sqrt{7}}{3}x$$

və direktrislərin tənlikləri isə

$$x=\frac{a}{\varepsilon}=\frac{9}{4},\quad x=-\frac{a}{\varepsilon}=-\frac{9}{4}$$

olar.

34) $y^2=8x$ parabolasının fokusunu tapın və direktrisinin tənliyini yazın.

Həlli: Parabolanın kanonik tənliyi verilmişdir. Onda $2p=8, p=4$ olduğundan parabolanın fokusu $F(2{,}0)$ və direktrisinin tənliyi $x=-2$ olar.

35) $x^2-9y^2+2x+36y-44=0$ tənliyini kanonik şəkilə gətirin və onun növünü tə'yin edin.

Həlli: Bu tənliyi aşağıdakı kimi çevirək.

$$(x^2+2x+1)-9(y^2-4y+4)-1+36-44=0$$

və ya $(x+1)^2-9(y-2)^2=9$ Burada $x=x'-1,\quad y=y'+2$

əvəz etsək alarıq: $x'^2-9y'^2=9$ və ya $\frac{x'^2}{9}-y'^2=1.$

Deməli, əyri hiperboladır.

36) $x^2+y^2+z^2-2x+6y-6=0$ sferasının mərkəzini və radiusunu tapın.

Həlli: Bu tənliyi aşağıdakı kimi çevirək:

$$(x^2-2x+1)+(y^2+6y+9)+z^2-1-9-6=0$$

və ya $(x-1)^2+(y+3)^2+z^2=16$

Deməli, $C(1,-3,0)$ və $R=4$.

37) Çalışma 1-in 1-ci misalının həlli:

Tərifə əsasən elə α, β, γ ədədləri var ki, $\overline{\alpha}=\alpha\overline{a}+\beta\overline{b}+\gamma\overline{c}$. Onda

(3,7,-7)= α(2,1,0)+ β(1,-1,2)+ γ(2,2,-1)

$$\text{və ya}\begin{cases}2\alpha+\beta+2\gamma=3\\ \alpha-\beta+2\gamma=7\\ 2\beta-\gamma=-7\end{cases}$$

Buradan, α=2, β=-3, γ=1 olduğundan

$\overline{\alpha}=2\overline{a}-3\overline{b}+\overline{c}$ alınar.

38) Çalışma 1-in 14-cü misalının həlli:

Tərifə əsasən elə α, β, γ ədədləri var ki, $\overline{\alpha}=\alpha\overline{a}+\beta\overline{b}+\gamma\overline{c}$. Onda

$\overline{\alpha}=\alpha\overline{a}+\beta\overline{b}+\gamma\overline{c}$ və ya

$$\begin{cases}2\alpha-3\beta+\gamma=2\\ 2\alpha+\beta-4\gamma=9\\ 6\beta-5\beta+2\gamma=17\end{cases}$$

Buradan, α=5, β=3, γ=1 olduğundan

$\overline{d}=5\overline{a}+3\overline{b}+\overline{c}$ alınar.

39) Çalışma 2-nin 1-ci misalının həlli:

$\overline{c}=2(5\overline{i}-\overline{k})-(7\overline{i}+2\overline{j}+3\overline{k})=3\overline{i}-2\overline{j}+15\overline{k}$

və $\overline{d}=3(7\overline{i}+2\overline{j}+3\overline{k})-6(5\overline{i}-\overline{k})=-9\overline{i}+6\overline{j}+15\overline{k}$

olduğundan tərifə görə alarıq:

$$\frac{3}{-9}=\frac{-2}{6}=\frac{-5}{15} \text{ və ya } -\frac{1}{3}=-\frac{1}{3}=-\frac{1}{3}.$$

Deməli $\bar{c}$ və $\bar{d}$ vektorları kollineardır.

40) Çalışma 2-nin 10-cu misalının həlli:

$$\bar{c}=3(3\bar{i}+2\bar{j}+3\bar{k})+2(-2\bar{j}-3\bar{k})=9\bar{i}+2\bar{j}+3\bar{k} \text{ və}$$
$$\bar{d}=2(3\bar{i}+2\bar{j}+3\bar{k})-3(-2\bar{j}-3\bar{k})=6\bar{i}+10\bar{j}+15\bar{k}$$

olduğundan tərifə görə alarıq:

$$\frac{9}{6}\neq\frac{2}{10}\neq\frac{3}{15}$$

Deməli $\bar{c}$ və $\bar{d}$ vektorları kolliniar deyil.

41) Çalışma 3-ün 1-ci misalının həlli:

$A\bar{B}(3,-3,7)$ və $A\bar{C}(-1,-2,4)$ olduğundan iki vektorun arasındakı bucağın kosinusu düsturuna görə alarıq:

$$\cos(\widehat{\overline{AB},\overline{AC}})=\frac{(\overline{AB},\overline{AC})}{|\overline{AB}||\overline{AC}|}=\frac{-3+6+28}{\sqrt{9+9+49}\sqrt{1+4+16}}=$$
$$=\frac{31}{\sqrt{67}\sqrt{21}}=\frac{31}{\sqrt{1407}}\approx 0{,}83.$$

42) Çalışma 3-ün 9-ci misalının həlli:

$A\bar{B}(2,5,-2)$ və $A\bar{C}(-7,0,-1)$ olduğundan iki vektorun arasındakı bucağın kosinusu düsturuna görə alarıq:

$$\cos(\widehat{\overline{AB},\overline{AC}})=\frac{(\overline{AB},\overline{AC})}{|\overline{AB}||\overline{AC}|}=\frac{-14+0+2}{\sqrt{4+25+4}\sqrt{49+1}}=$$
$$=\frac{-12}{\sqrt{33}\sqrt{50}}=-\frac{12}{\sqrt{1650}}\approx 0{,}31.$$

43) Çalışma 4-ün 5-ci misalının həlli:

$$\overline{a}\overline{b}\overline{c}=\begin{vmatrix}2 & 3 & 1\\ 4 & 1 & -2\\ 6 & 3 & -7\end{vmatrix}=-14+12-36-6+12+84=52\neq 0$$

olduğdan $\overline{a},\overline{b},\overline{c}$ vektorları komplanar deyil.

44) Çalışma 4-ün 13-cü misalınm həlli;

$$\overline{a}\overline{b}\overline{c}=\begin{vmatrix}1 & 1 & 1\\ 4 & 3 & 2\\ 2 & 3 & 4\end{vmatrix}=12+2+4-6-6-16=28-28=0$$

olduğdan $\overline{a},\overline{b},\overline{c}$ vektorları komplanardır.

45) Çalışma 5-in 2-ci misalının həlli:

Piramidanın həcmi $\overline{AB},\overline{AC},\overline{AD}$ vektorlarının qarışıq hasilinin $\frac{1}{6}$-nə bərabərdir. $\overline{AB}(-2,-5,-3)$, $\overline{AC}$ (2,1,-2), $\overline{AD}$ (0,-3,-8) olduğuna görə alarıq:

$$V=\frac{1}{6}\left|\overline{AB}\cdot\overline{AC}\cdot\overline{AD}\right|=\frac{1}{6}\begin{vmatrix}-2 & -5 & -3\\ 2 & 1 & -2\\ 0 & -3 & -8\end{vmatrix}=$$

$$=\frac{1}{6}\left|16+18+12-80\right|=\frac{1}{6}\left|-32\right|=5\frac{1}{3}.$$

46) Çalışma 5-in 13-cü misalının həlli:

$\overline{AB}(-2,-2,-2)$, $\overline{AC}$ (0,2,-7), $\overline{AD}$ (1,7,-9) olduğuna görə alarıq:

$$V=\frac{1}{6}\left|\overline{AB}\cdot\overline{AC}\cdot\overline{AD}\right|=\frac{1}{6}\begin{vmatrix}-2 & -2 & -2\\ 0 & 2 & -7\\ 1 & 7 & -9\end{vmatrix}=$$

$$=\frac{1}{6}|36+14+4-98|=\frac{1}{6}|-44|=7\frac{1}{3}.$$

47) Çalışma 6-nın 12-ci misalının həlli:
A, B, C nöqtələrindən keçən müstəvinin tənliyini yazaq:

$$\begin{vmatrix} x-4 & y+2 & z-1 \\ 2 & 8 & -5 \\ 2 & 2 & 5 \end{vmatrix}=40(x\text{-}4)+4(z\text{-}1)\text{-}10(y+2)\text{-}16(z\text{-}1)+10(x\text{-}4)\text{-}$$

$-10(y+2)=40x-160+4z-4-10y-20-16z+16x-40y-20=50x-20y-12z-$
$-228=0.$

D nöqtəsindən bu müstəviyə qədər olan məsafəni tapaq.

$$d=\frac{|Ax_o+By_o+Cz_o+D|}{\sqrt{A^2+B^2+C^2}}=\frac{|50\cdot 8-20(-7)-12\cdot 9-228|}{\sqrt{2500+400+144}}=$$

$$=\frac{|400+140-108-228|}{\sqrt{3044}}=\frac{204}{\sqrt{3044}}.$$

48) Çalışma 6-nın 15-ci misalının həlli: A,B.C nöqtələrindən keçən müstəvinin tənliyini yazaq:

$$\begin{vmatrix} x-1 & y-10 & z+2 \\ 1 & -9 & 1 \\ 8 & -7 & 0 \end{vmatrix}=-7z-14+8y-80+72z+144+7x-7=$$

$$=7x+8y+65z+43=0.$$

D qöqtəsindən bu müstəviyə qədər olan məsafəni tapaq.

$$d=\frac{|Ax_o+By_o+Cz_o+D|}{\sqrt{A^2+B^2+C^2}}=\frac{|7\cdot 3+8\cdot 3+65(-5)+43|}{\sqrt{49+64+4225}}=$$

$$=\frac{|21+24-325+43|}{\sqrt{4338}}=\frac{237}{\sqrt{4338}}.$$

49) Çalışma 7-nin 2-ci misalının həlli:
$A_1=1$, $B_1=1$, $C_1=3$, $A_2=0$, $B_2=1$, $C_2=1$ olduğundan müstəvilər arasındakı bucaq düsturuna görə alarıq:

$$\cos\varphi=\frac{A_1A_2+B_1B_2+C_1C_2}{\sqrt{A_1^2+B_1^2+C_1^2}\sqrt{A_2^2+B_2^2+C_2^2}}=\frac{1\cdot 0+1\cdot 1+3\cdot 1}{\sqrt{1+1+9}\sqrt{1+1}}=$$

$$=\frac{4}{\sqrt{11}\sqrt{2}}=\frac{4}{\sqrt{22}}.$$

$$\varphi=\arccos\frac{4}{\sqrt{22}}.$$

50) Çalışma 7-nin 5-ci misalnın həlli:
$A_1=2$, $B_1=3$, $C_1=-1$, $A_2=1$, $B_2=1$, $C_2=5$ olduğundan müstəvilər arasındakı bucaq düsturuna görə alarıq:

$$\cos\varphi=\frac{2\cdot 1+3\cdot 1-1\cdot 5}{\sqrt{4+9+1}\sqrt{1+1+25}}=\frac{0}{\sqrt{14}\sqrt{27}}=0, \varphi=\frac{\pi}{2}.$$

Deməli, müstəvilər perpendikulyardır.

51) Çalışma 8-in 7-ci misalının həlli: verilən tənliyi

$$\frac{x-x_o}{l}=\frac{y-y_o}{m}=\frac{z-z_o}{n}$$

şəkilinə gətirmək üçün əvvəlcə y-i, sonra z-i yox etsək $4x-z+5=0$ və $7x+y+7=0$ olar. Bu tənliklərin hər birini x-ə görə həll etsək alarıq:

$$x=\frac{z-5}{4}=\frac{-(y+4)}{7} \text{ və ya } \frac{x}{1}=\frac{y+7}{-7}=\frac{z-5}{4}.$$

52) Çalışma 8-in 9-cu misalımn həlli:
Verilən tənliyi kanonik şəkilinə gətirmək üçün əvvəlcə y-i, sonra z-i yox etsək $32x+15z+145=0$ və $19x+15y+65=0$ olar.

Bu tənliklərin hər birini x-ə nəzərən həll etsək alarıq:

$$f(0) = 0,\ f(1) = \sqrt{3} + 3,\ f'(x) = 2\sqrt{3}x + 3$$

olduğundan Laqranj düsturunu

$\sqrt{3} + 3 - 0 = (1-0)(2\sqrt{3}c + 3)$ və ya $\sqrt{3} + 3 = 2\sqrt{3}c + 3$ kimi

yazırıq, buradan isə taparıq ki, $c = \dfrac{1}{2} \in (0,1)$.

3) $f(x) = 2x^2 + 5x + 1$ və $g(x) = x^2 + 4$ funksiyaları üçün $[0,2]$ parçasında Koşi düsturunu yazın və $(0,2)$ intervalında həmin düsturdakı c nöqtəsini tapın.

Həlli:

$f(0) = 1,\ f(2) = 19,\ g(0) = 4,\ g(2) = 8,\ f'(x) = 4x + 5$

$g'(x) = 2x$ olduğundan Koşi düsturunu $\dfrac{19-1}{8-4} = \dfrac{4c+5}{2c}$ və ya

$\dfrac{9}{2} = \dfrac{4c+5}{2c}$ kimi yazıb buradan isə taparıq ki, $c = 1 \in (0,2)$.

4) Limitləri hesablayın.

$$\lim_{x\to 0}\frac{tgx - x}{x - \sin x},\quad \lim_{x\to\frac{\pi}{2}}\left(\frac{1}{\cos x} - tgx\right), \lim_{x\to 0} xctgx,\quad \lim_{x\to 0} x^x$$

Həlli:

$$\lim_{x\to 0}\frac{tgx-x}{x-\sin x}\left(\frac{0}{0}\right)=\lim_{x\to 0}\frac{\frac{1}{\cos^2 x}-1}{1-\cos x}\left(\frac{0}{0}\right)=\lim_{x\to 0}\frac{1+\cos x}{\cos^2 x}=2$$

$$\lim_{x\to\frac{\pi}{2}}\left(\frac{1}{\cos x}-tgx\right)(\infty-\infty)=\lim_{x\to\frac{\pi}{2}}\frac{1-\sin x}{\cos x}\left(\frac{0}{0}\right)=\lim_{x\to\frac{\pi}{2}}\frac{-\cos x}{-\sin x}=0$$

$$\lim_{x\to 0}xctgx(0\cdot\infty)=\lim_{x\to 0}\frac{x}{tgx}\left(\frac{0}{0}\right)=\lim_{x\to 0}\frac{1}{\frac{1}{\cos^2 x}}=\lim_{x\to 0}\cos^2 x=1$$

$$\lim_{x\to 0}(0^0)=\lim_{x\to 0}e^{\ln x^x}=e^{\lim\limits_{x\to 0}\ln x^x}=e^{\lim\limits_{x\to 0}x\ln x}=$$

$$=e^{\lim\limits_{x\to 0}\frac{\ln x}{\frac{1}{x}}\left(\frac{\infty}{\infty}\right)}=e^{\lim\limits_{x\to 0}\frac{\frac{1}{x}}{-\frac{1}{x^2}}}=e^{-\lim\limits_{x\to 0}x}=e^0=1.$$

5) $f(x)=x^3-3x+1$ funksiyasının artan və azalan olduğu intervalları tapın.

Həlli:

$$f'(x)=3x^2-3=3(x^2-1)$$

olmasından aydındır ki, $|x|<1$ olduqda $f'(x)<0$ və $|x|>1$ olduqda isə $f'(x)>0$ olar. Deməli, funksiya $(-1,1)$ intervalında azalır və $(-\infty,-1)\cup(1,+\infty)$ oblastında isə artır.

6) $f(x)=\dfrac{x^4}{4}-2x^2+3$ funksiyasının ekstremumlarını tapın.

Həlli: $f'(x)=x^3-4x=x(x-2)(x+2)$

olduğundan funksiyanın $x_1=-2,\ x_2=0,\ x_3=2$ böhran nöqtələri olar. Bu nöqtələrdə ikinci törəmənin $f''(x)=3x^2-4$ qiymətlərini tapaq:

$$f''(-2)=8>0,\ f''(0)=-4<0,\ f''(2)=8>0,$$

olduğundan funksiyanın $x_1 = -2$, $x_3 = 2$ nöqtələrində minimumu, $x_2 = 0$ nöqtəsində isə maksimumu var. Bu ekstremal qiymətlər $\min f(x) = f(-2) = f(2) = -1$ və $\max f(x) = f(0) = 3$ ədədləridir.

7) $f(x) = 3x - x^3$ funksiyasınm $[-2,3]$ parçasında ən böyük və ən kiçik qiymətlərini tapın.

Həlli:

$$f'(x) = 3 - 3x^2 = 3(1 - x^2)$$

olduğundan funksiyanın böhran nöqtələri $x_1 = -1, x_2 = 1$ olar. Bu nöqtələr $[-2,3]$ parçasına daxildir. $x_1 = -1, x_2 = 1$ nöqtələrində və $[-2,3]$ parçasının uc nöqtələrində funksiyanın qiymətini tapaq:

$$f(-2) = 2,\ f(-1) = -2,\ f(1) = 2,\ f(3) = -18$$

Bu qiymətləri müqayisə edərək alarıq ki, funksiyanın verilmiş parçada ən böyük qiyməti 2-yə və ən kiçik qiyməti -18-ə bərabərdir.

8) $f(x) = x^3$ funksiyasının qabarıq və çökük olduğu intervalları və əyilmə nöqtəsini tapın.

Həlli: $f''(x) = 6x$ ifadəsindən aydındır ki, $x < 0$ olduqda $f''(x) < 0$ və $x > 0$ olduqda isə $f''(x) > 0$ olduğundan $(-\infty,0)$ intervalında funksiyanın qabarıqlığı yuxarıya doğru $(0,\infty)$ intervalında isə qabarıqlığı aşağıya doğru olur. Deməli, əyri $(-\infty,0)$ intervalında qabarıq, $(0,\infty)$ intervalında isə çökükdür və $(0,0)$ əyrinin əyilmə nöqtəsidir.

9) $f(x) = x^4 - 6x^2 - 6x + 1$ funksiyasının qabarıq və çökük olduğu intervalları və əyilmə nöqtələrini tapın.

Həlli: Funksiyanın iki tərtibli

$$f''(x) = 12x^2 - 12 = 12(x-1)(x+1)$$

törəməsinə nəzərən böhran nöqtələri $x_1 = -1, x_2 = 1$ olar. Aydındır ki, $-\infty < x < -1$ və $1 < x < \infty$ olduqda $f''(x) > 0$ və $-1 < x < 1$ olduqda isə $f''(x) < 0$ olar.

Deməli, əyri $(-1,1)$ intervalında qabarıq, $(-\infty,-1)$ və $(1,\infty)$ intervalında isə çökükdür. $(-1,2)$ və $(1,-10)$ nöqtələri əyrinin əyilmə nöqtələridir.

10) $y=\dfrac{x^2-2x+3}{x+2}$ əyrisinin asimptotlarını tapın.

Həlli: $\lim\limits_{x\to-2}\dfrac{x^2-2x+3}{x+2}=\infty$ olduğundan $x=-2$ düz xətti əyrinin şaquli asimptotudur. Maili asimptotunu tapaq.

$$k=\lim_{x\to\infty}\frac{y}{x}=\lim_{x\to\infty}\frac{x^2-2x+3}{x^2+2x}=1$$

$$b=\lim_{x\to\infty}(y-x)=\lim_{x\to\infty}\left(\frac{x^2-2x+3}{x+2}-x\right)=\lim_{x\to\infty}\frac{-4+3x}{x+2}=-4$$

olduğundan $y=x-4$ düz xətti əyrinin maili asimptotu olar.

11) Çalışma 1-in 2-ci misalının həlli:

$\dfrac{0}{0}$ şəkilində qeyri-müəyyənlikdir. Lopital qaydasına görə alarıq:

$$\lim_{x\to5}\frac{\sqrt[3]{x}-\sqrt[3]{5}}{\sqrt{x}-\sqrt{3}}=\lim_{x\to5}\frac{\dfrac{1}{3\sqrt{x^2}}}{\dfrac{1}{2\sqrt{x}}}=\lim_{x\to5}\frac{2}{3\sqrt[6]{x}}=\frac{2}{3\sqrt[6]{5}}.$$

12) Çalışma 1-in 11-ci misalının həlli: 1^∞ şəkilində qeyri-müəyyənlikdir.

$y=(2-x)^{tg\frac{\pi x}{2}}$ işarə edək və onun Loqarifmini alaq:

$ln\,y=tg\dfrac{\pi x}{2}ln(2-x)$ Lopital qaydasına görə alarıq:

$$\lim_{x\to1}ln\,y=\lim_{x\to1}tg\frac{\pi x}{2}ln(2-x)=\lim_{x\to1}\frac{ln(2-x)}{ctg\dfrac{\pi x}{2}}=$$

$$= 2\lim_{x\to 1}\frac{\frac{1}{x-2}}{-\frac{\pi}{\sin^2\frac{\pi x}{2}}} = \frac{2}{\pi} \quad \text{və ya} \quad \lim_{x\to 1} y = e^{\frac{2}{\pi}}.$$

13) Çalışma 2-nin 5-ci misalının həlli: $y' = 4x - \frac{1}{x} > 0$

$\Rightarrow (x - (-\frac{1}{2}))(x - \frac{1}{2}) > 0$, x>0. Buradan funksiyanın $(\frac{1}{2}, \infty)$ artan, $(0, \frac{1}{2})$ azalan olması aydındır.

14) Çalışma 2-nin 9-cu misalının həlli:

$y' = 2(x^2 - 4x + 3)(2x - 4) = 4(x-1)(x-2)(x-3)$

Buradan funksiyanın (1,2) və (3,∞) artan, (-∞,1) və (2,3) azalan olması aydındır.

15) Çalışma 3-ün 1-ci misalının həlli:

Burada $y' = 6x^2 - 6x = 6x(x-1) = 0$, $x_1=0$, $x_2=1$ Onda $x<0$ olduqda $y' = 6(-)(-) > 0$, $x>0$, $x<1$ олдугда $y' = 6(+)(-) < 0$. Deməli $x_1=0$ nöqtəsindən soldan sağa keçəndə törəmənin işarəsini müsbətdən mənfiyə çevrilir. Ona görə x=0 nöqtəsində funksiyanm maksimumu var: $y_{max} = y(0) = 0$, $x<1$ olduqda $y' = 6(+)(-) < 0$, $x>1$ olduqda $y' = 6(+)(+) > 0$.

Deməli, $x_2=1$ nöqtəsindən soldan sağa keçəndə törəmənin işarəsi mənfindən müsbətə çevrilir. Ona görə $x=1$ nöqtəsində funksiyanın minimumu var: $y_{min} = y(1) = -1$.

16) Çalışma 3-ün 6-cı misalının həlli. Burada

$y' = 2(4x^2 - 1)8x = 16x(2x+1)(2x-1) = 0$, $x_1=0$, $x_2 = -\frac{1}{2}$,

$x_3 = \frac{1}{2}$. İkinci törəməsini tapaq:

$y'' = 16(12x^2 - 1)$ $\quad y''_{x_1=0} = -16 < 0$ olduğuna görə $x=0$ nöqtəsində funksiyanın maksimumu var: $y_{max}=y(0)=1$.

$y''_{x=\pm\frac{1}{2}} = 32 > 0$ olduğuna görə $x=\pm\frac{1}{2}$ nöqtəsində funksiyanın minimumu var: $y_{min} = y(\pm\frac{1}{2}) = 0$.

17) Çalışma 4-ün 2-ci misalının həlli: Burada

$$y' = 1 - \frac{1}{1+x} = \frac{x}{1+x} = 0, x = 0$$

$y'' = \frac{1}{(1+x)^2}, y''_{x=0} = 1 > 0$ olduğuna görə $x=0$ nöqtəsində funksiyanın minimumu var: $y_{min}=y(0)=0$

18) Çalışma 4-ün 7-ci misalının həlli: Burada

$y' = \frac{ln x}{2\sqrt{x}} + \sqrt{x}\frac{1}{x} = \frac{1}{\sqrt{x}}\left(\frac{ln x}{2} + 1\right) = 0$, $\ln x=-2$, $x=\frac{1}{e^2}$

sonra, $x<\frac{1}{e^2}$ olduqda $\ln xe^2 < 0$ və $y' < 0$ olar. $x>\frac{1}{e^2}$ olduqda $\ln xe^2 > 0$ və $y' > 0$ olar. Deməli, $x = \frac{1}{e^2}$ nöqtəsindən soldan sağa keçəndə törəmənin işarəsi mənfidən müsbətə çevrilir. Ona görə $x = \frac{1}{e^2}$ nöqtəsində funksiyanın minimumu var:

$$y_{min} = y\left(\frac{1}{2}\right) = -\frac{2}{e}.$$

19) Çalışma 5-in 2-ci misalının həlli. Burada

$y' = -12x^3 + 12x = 12x(1 - x^2) = 0$, $\quad x_1=0$, $\quad x_2=-1$, $\quad x_3=1$ funksiyanın böhran nöqtələridir. Bu nöqtələrin hər biri $[-2,2]$ parçasına daxildir. Onda funksiyanın $[-2,2]$ parçasında ən böyük və ən kiçik qiymətləri $y(-2)=-24$, $y(-1)=3$, $y(0)=0$, $y(1)=3$, $y(2)=-24$ qiymətləri arasındadır və $M=3$, $m=-24$.

20) Çalışma 5-in 14-cü misalının həlli:

Burada $y' = \frac{1}{\sqrt{x-1}} - 1 = 0$, $x=2$ funksiyanın böhran nöqtəsidir və $2\in[1,5]$. Onda funksiyanın $[1,5]$ parçasında ən böyük və ən kiçik qiymətləri $y(1)=1$, $y(5)=1$, $y(2)=3$ qiymətləri arasındadır və $M=3$, $m=1$.

21) Çalışma 6-nın 3-cü misalının həlli. Birinci və ikinci törəmələri tapaq:

$$y' = \frac{4x}{(x^2+1)^2}, y'' = \frac{4(1-3x^2)}{(x^2+1)^3}.$$

İkinci törəməni sıfıra çevirən qiymətləri tapaq:

$1-3x^2 = 0, x_1 = -\frac{1}{\sqrt{3}}, x_2 = \frac{1}{\sqrt{3}}$, $x<-\frac{1}{\sqrt{3}}$ olduqda, $y''<0$, $y>-\frac{1}{\sqrt{3}}$ olduqda isə $y''>0$. x_1 nöqtəsindən keçəndə y'' işarəsini dəyişdiyinə görə, absisi $x_1 = -\frac{1}{\sqrt{3}}$ olan nöqtə əyrinin əyilmə nöqtəsidir. Onun koordinatları: $\left(-\frac{1}{\sqrt{3}}, -\frac{1}{2}\right)$.

İkinci nöqtəni araşdıraq:

$x_1<\frac{1}{\sqrt{3}}$ olduqda $y''>0$, $x>\frac{1}{\sqrt{3}}$ olduqda isə $y''<0$. Deməli, absisi $x_2 = \frac{1}{\sqrt{3}}$ olan nöqtə əyrinin əyilmə nöqtəsidir. Onun koordinatları: $\left(\frac{1}{\sqrt{3}}, -\frac{1}{2}\right)$.

22) Çalışma 6-nın 11-ci misalının həlli. Birinci və ikinci törəmələri tapaq:

$$y' = \frac{x^2 - 4 - 2x^2}{(x^2-4)^2} = -\frac{x^2+4}{(x^2-4)^2}$$

$$y'' = -\frac{2x(x^2-4)^2 - 4x(x^2-4)(x^2+4)}{(x^2-4)^4} =$$

$$= \frac{2x(x^2-4) - 4x(x^2+4)}{(x^2-4)^3} = \frac{2x(x^2+12)}{(x^2-4)^3}.$$

İkinci törəmə ancaq x=0 qiymətində sıfıra çevrilir. $x<0$ olduqda $y''<0$, $x>0$ olduqda isə $y''>0$. $x=0$ nöqtəsindən keçəndə y'' işarəsini dəyişdiyinə görə, absisi $x=0$ olan nöqtə əyrinin əyilmə nöqtəsidir. Onun koordinatları: (0,0).

23) Çalışma 7-nin 1-ci misalının həlli: Birinci və ikinci törəmələri tapaq:

$y' = 1 + \cos x, y'' = -\sin x$. İkinci törəmə $x=k\pi$, $k \in Z$ nöqtələrində sıfıra çevrilir. $x=k\pi$, $k \in Z$ nöqtələrindən keçəndə y'' işarəsini dəyişdiyinə görə, absisi $x=k\pi$, $k \in Z$ olan nöqtələr əyrinin əyilmə nöqtələridir.

24) Çalışma 7-nin 9-cu misalının həlli. Birinci və ikinci törəmələri tapaq:

$y' = \cos x - \sin x, y'' = -\sin x - \cos x$, ikinci törəmə $x = \frac{3\pi}{4} + k\pi, k \in z$ nöqtələrində sıfıra çevrilir. $x = \frac{3\pi}{4} + k\pi, k \in z$ nöqtələrindən keçəndə y'' işarəsini dəyişdiyinə görə $\left(\frac{3\pi}{4} + k\pi, 0\right), k \in Z$ nöqtələri əyrinin əyilmə nöqtələridir.

25) Çalışma 8-ni 11-ci misalının həlli. Şaquli asimptotları axtaraq.

$$\lim_{x\to+0} y=\lim_{x\to+0} xe^{\frac{1}{x}}=\lim_{t=\frac{1}{x}\to+\infty}\frac{e^t}{t}=+\infty,$$

$$\lim_{x\to-0} y=\lim_{x\to-0} xe^{\frac{1}{x}}=0.$$

Deməli, $x=0$ düz xətti şaquli asimptotdur.

Maili asimptotları axtaraq:

$$k=\lim_{x\to\pm\infty}\frac{y}{x}=\lim_{x\to\pm\infty} e^{\frac{1}{x}}=1,$$

$$b=\lim_{x\to\pm\infty}(y-x)=\lim_{x\to\pm\infty}(xe^{\frac{1}{x}}-x)=\lim_{x\to\pm\infty}\frac{e^{\frac{1}{x}}-1}{\frac{1}{x}}=$$

$$=\lim_{\frac{1}{x}=z\to0}\frac{e^z-1}{z}=1.$$

Deməli $y=x+1$ düz xətti əyrinin maili asimptotudur.

26) Çalışma 8-in 12-ci misalının həlli funksiya hər yerdə kəsilməz olduğuna görə şaquli asimptotu yoxdur. Maili asimptotları axtaraq:

$$k_1=\lim_{x\to+\infty}\frac{\sqrt{x^2+1}+2x}{x}=\lim_{x\to+\infty}\sqrt{\frac{1}{x^2}+1}+2=3,$$

$$b_1=\lim_{x\to+\infty}(\sqrt{x^2+1}+2x-3x)=\lim_{x\to+\infty}(\sqrt{x^2+1}-x)=$$

$$=\lim_{x\to+\infty}\frac{x^2+1-x^2}{\sqrt{x^2+1}+x}=0.$$

Deməli, $y=3x$ maili asimptotdur.

$$k_2=\lim_{x\to-\infty}\frac{\sqrt{x^2+1}+2x}{x}=\lim_{x\to-\infty}\frac{|x|\sqrt{\frac{1}{x^2}+1}+2x}{x}=1$$

$$b_2=\lim_{x\to-\infty}(\sqrt{x^2+1}+2x-x)=\lim_{x\to-\infty}\frac{1}{\sqrt{x^2+1}-x}=0.$$

Deməli, $y=x$ maili asimptotdur.

VI FƏSİL

Həqiqi dəyişənli vektor və kompleks funksiyalar

Çalışma 1. İfadələri hesablayın.

1) $\left(\frac{1}{2}-i\frac{\sqrt{3}}{2}\right)^{24}$, 2) $\left(-\frac{1}{2}-i\frac{\sqrt{3}}{2}\right)^{10}$,

3) $\left(\sqrt{2}+i\sqrt{2}\right)^{25}$, 4) $\left(\frac{i^5+1}{i^{19}+1}\right)^{2}$,

5) $\left(\frac{1-i}{1+i}\right)^{100}$, 6) $\left(\frac{1+i}{\sqrt{3}-i}\right)^{50}$,

7) $\left(\sqrt{2}-i\sqrt{2}\right)^{8}$, 8) $\left(-\frac{\sqrt{3}}{2}+i\frac{1}{2}\right)^{12}$,

9) $\left(i^8 + i^5\sqrt{3}\right)^5$,

10) $\dfrac{(2i)^7}{(-\sqrt{2} + i\sqrt{2})^6}$,

11) $\dfrac{(1+i)^9}{(1-i)^7}$,

12) $(\sqrt{3} - i)^9$,

13) $(\sqrt{3} + i)^9$,

14) $\left(\dfrac{-1+i}{1+i\sqrt{3}}\right)^5$,

15) $(1 + i\sqrt{3})^6$,

16) $(1+i)^{10}$,

17) $(1 + i\sqrt{3})(1-i)^4$.

Çalışma 2. Kökün bütün qiymətlərini tapın.

1) $\sqrt[4]{-i}$,
2) $\sqrt[3]{-4 + i\sqrt{48}}$,
3) $\sqrt[4]{-1 - i\sqrt{3}}$,

4) $\sqrt[3]{-i}$,
5) $\sqrt[3]{i}$,
6) $\sqrt[4]{\sqrt{3} + i}$,

7) $\sqrt[3]{-1+i}$,
8) $\sqrt{-9}$,
9) $\sqrt[3]{-27}$,

10) $\sqrt[3]{-64}$,
11) $\sqrt{-36}$,
12) $\sqrt[4]{2\sqrt{3} + 2i}$,

13) $\sqrt[3]{-2 + i2\sqrt{3}}$,
14) $\sqrt[3]{1-i}$,
15) $\sqrt{2-2i}$,

16) $\sqrt{i}$,
17) $\sqrt{1 - i\sqrt{3}}$.

Çalışma 3. Tənlikləri təqribi həll edin.

1) $x^3 + x^2 - 3 = 0$,
2) $x^4 - 2x - 2 = 0$,

3) $x\,arctgx - 1 = 0$,
4) $x^3 + 3x - 1 = 0$,

5) $x - 10\lg x = 0$,
6) $x - \sqrt[4]{x} - 2 = 0$,

7) $x^5 - x - 2 = 0$,
8) $x^4 + 3x^3 - 9x - 27 = 0$,

9) $x^3 - 5x + 1 = 0$,
10) $x + e^x - 2 = 0$,

11) $x^4 + 2x^2 - 6x + 2 = 0$,
12) $x^4 + 3x^2 - x - 2 = 0$,

13) $x^4 - 4x + 1 = 0$,
14) $x^2 - e^x - 2 = 0$,

15) $x - \cos x = 0$,　　　16) $x^3 - 2x - 2 = 0$,

17) $x \lg x - 1 = 0$.

Nümunəvi həllər

1) $\bar{r}(t) = \frac{1-t}{1+t}\bar{i} + \frac{\sin t}{t}\bar{j} - \frac{\ln(1-t)}{t}\bar{k}$ vektor funksiyasının $t \to 0$ şərtində limitini hesablayın.

Həlli:

$$\lim_{t\to 0}\bar{r}(t) = \lim_{t\to 0}\left(\frac{1-t}{1+t}\bar{i} + \frac{\sin t}{t}\bar{j} - \frac{\ln(1-t)}{t}\bar{k}\right) =$$

$$= \bar{i}\lim_{t\to 0}\frac{1-t}{1+t} + \bar{j}\lim_{t\to 0}\frac{\sin t}{t} - \bar{k}\lim_{t\to 0}\frac{\ln(1-t)}{t} =$$

$$= \bar{i} + \bar{j} - \bar{k}\lim_{t\to 0}\frac{-1}{1-t} = \bar{i} + \bar{j} + \bar{k}$$

2) $\bar{r}'(t) = \bar{i}\sin t + \bar{j}\cos t - \bar{k}$ vektor funksiyasının törəməsini tapın.

Həlli:

$$\bar{r}'(t) = (\bar{i}\sin t + \bar{j}\cos t - \bar{k})' = \bar{i}\cos t - \bar{j}\sin t$$

3) $y = x^2 - 2x + 5$ parabolasına (2,5) nöqtəsində toxunanın və normalının tənliklərini tapın.

Həlli:

$$y' = 2x - 2 = 2(x-1), \quad k = y'_{x=2} = 2(2-1) = 2$$

olduğundan toxunanın tənliyi

$$y - 5 = 2(x-2) \quad \text{və ya} \quad 2x - y + 1 = 0$$

normalın tənliyi isə

$$y - 5 = -\frac{1}{2}(x-2) \quad \text{və ya} \quad x + 2y - 12 = 0 \quad \text{olar.}$$

4) $\bar{r}'(t) = \bar{i}\cos t + \bar{j}\sin t + 2t\bar{k}$ Vint əyrisinə $t = \frac{\pi}{2}$ nöqtəsində toxunanın və normal müstəvinin tənliklərini tapın.

Həlli: $x=\cos t, y=\sin t, z=2t$ olduğundan $x'=-\sin t$, $y'=\cos t, z'=2$ olar və $t=\dfrac{\pi}{2}$ nöqtəsində

$$x=0, y=1, z=\pi, x'=-1, y'=0, z'=2$$

alarıq. Onda toxunanın tənliyi

$$\frac{x-0}{-1}=\frac{y-1}{0}=\frac{z-\pi}{2} \quad \text{və ya} \quad \frac{x}{-1}=\frac{y}{0}=\frac{z-\pi}{2}$$

normal müstəvinin tənliyi isə

$$(x-0)(-1)+(y-1)\cdot 0+(z-\pi)2=0 \text{ və ya } x-2z+2\pi=0$$

olar.

5) $x=a(t-\sin t)$, $y=a(1-\cos t)$ tsikloid əyrisi qövsünün diferensialını tapın.

Həlli:

$$x'=a(1-\cos t),\ y'=a\sin t$$

olduğundan

$$dl=\sqrt{(x')^2+(y')^2}\,dt=\sqrt{a^2(1-\cos t)^2+a^2\sin^2 t}\,dt=$$

$$=a\sqrt{2(1-\cos t)}\,dt=2a\left|\sin\frac{t}{2}\right|dt.$$

6) $y=x^3$ əyrisinin $\left(\dfrac{1}{2},0\right)$ nöqtəsində əyriliyini hesablayın.

Həlli:

$$y'=3x^2,\ y''=6x,\ y'_{x=\frac{1}{2}}=\frac{3}{4},\ y''_{x=\frac{1}{2}}=3$$

olduğundan

$$K=\frac{3}{\left(1+\dfrac{9}{16}\right)^{\frac{2}{3}}}=\frac{3}{\dfrac{125}{64}}=\frac{192}{125}.$$

7) $y^2=2(x+1)$ parabolasının evolyutunun tənliyini tapın.

Həlli:

$$2yy' = 2,\ y' = \frac{1}{y};\ (y')^2 + yy' = 0,\ y'' = -\frac{(y')^2}{y} = -\frac{1}{y^3}$$

münasibətlərinə əsasən əyrilik mərkəzinin koordinatlarını tapaq.

$$\alpha = x - \frac{1+(y')^2}{y''}y' = \frac{y^2}{2} - 1 - \frac{1+\frac{1}{y^2}}{-\frac{1}{y^3}} \cdot \frac{1}{y} = \frac{3}{2}y^2$$

$$\beta = y + \frac{1+(y')^2}{y''} = y + \frac{1+\frac{1}{y^2}}{-\frac{1}{y^3}} = -y^3$$

Beləliklə, parabolanın evolyutu

$$\alpha = \frac{3}{2}y^2,\ \beta = -y^3$$

parametrik tənlikləri ilə tə'yin olunur, burada y parametr rolunu oynayır. y parametrini yox etsək evolyutun tənliyini

$$\beta^2 = \frac{8}{27}\alpha^3$$

şəklində alarıq.

8) $z_1 = 3 + 2i$ və $z_2 = 1 - i$ kompleks ədədləri verilmişdir.

$z_1 + z_2,\ z_1 - z_2,\ z_1 z_2,\ \frac{z_1}{z_2}$ ədədlərini tapın.

Həlli:

$$z_1+z_2=(3+2i)+(1-i)=4+i$$
$$z_1-z_2=(3+2i)-(1-i)=2+3i$$
$$z_1 z_2=(3+2i)(1-i)=3-3i+2i+2=5-i$$
$$\frac{z_1}{z_2}=\frac{3+2i}{1-i}=\frac{(3+2i)(1+i)}{(1-i)(1+i)}=\frac{1+5i}{2}=\frac{1}{2}+\frac{5}{2}i.$$

9) $\sqrt{3}-i$ kompleks ədədini triqonometrik şəkildə yazın.

Həlli:

$$\rho=\sqrt{3+1}=2,\ \cos\varphi=\frac{\sqrt{3}}{2},\ \sin\varphi=-\frac{1}{2},$$

Buradan isə $\varphi=\frac{11}{6}\pi$ olduğundan,

$$\sqrt{3}-i=2\left(\cos\frac{11}{6}\pi+i\sin\frac{11}{6}\pi\right).$$

10) $\frac{\sqrt{3}}{8}-\frac{1}{8}i$ kompleks ədədini üstlü şəkildə yazın.

Həlli:

$$\rho=\sqrt{\frac{3}{64}+\frac{1}{64}}=\frac{1}{4},\quad tg\varphi=-\frac{1}{\sqrt{3}},\ \varphi=-\frac{\pi}{6}$$

olduğundan

$$\frac{\sqrt{3}}{8}-\frac{1}{8}i=\frac{1}{4}e^{-\frac{\pi}{6}i}$$

11) $\sqrt[3]{-8}$ ədədinin bütün qiymətlərini hesablayın.

Həlli: $W=-8$ ədədini triqonometrik şəkildə yazaq.

$$W=-8=8(\cos\pi+\sin\pi).$$

Onda

$$z_k=2\left(\cos\frac{\pi+2\pi k}{3}+i\sin\frac{\pi+2\pi k}{3}\right),\ k=0,1,2,$$

buradan

$$z_0 = 1 + i\sqrt{3}, \quad z_1 = -2, \quad z_2 = 1 - i\sqrt{3}.$$

12) $f(x) = x^3 - 6x^2 + 11x - 6$ çoxhədlisini xətti vuruqlarına ayırın.

Həlli:

$$x^3 - 6x^2 + 11x - 6 = x^3 - x^2 - 5x^2 + 5x + 6x - 6 =$$

$$= x^2(x-1) - 5x(x-1) + 6(x-1) = (x-1)(x^2 - 5x + 6).$$

İkinci vuruğun kökləri $x_2 = 2, x_3 = 3$ olduğuna görə:

$$x^3 - 6x^2 + 11x - 6 = (x-1)(x-2)(x-3)$$

13) $f(x) = 3x^4 - 5x^2 - 2$ çoxhədlisini xətti vuruqlarına ayırın.

Həlli: $x^2 = y$ əvəz edək. Onda

$$3y^2 - 5y - 2 = 0, \quad y_1 = 2, \quad y_2 = -\frac{1}{3} \text{ və}$$

$$x_{1,2} = \pm\sqrt{2}, \quad x_{3,4} = \pm\frac{i}{\sqrt{3}} \text{ olduğundan}$$

$$3x^4 - 5x^2 - 2 = 3(x - \sqrt{2})(x + \sqrt{2})\left(x - \frac{i}{\sqrt{3}}\right)\left(x + \frac{i}{\sqrt{3}}\right).$$

14) Toxunanlar üsulu ilə $x^3 - 6x + 2 = 0$ tənliyinin köklərinin təqribi qiymətlərini hesablayın.

Həlli: $f(x) = x^3 - 6x + 2$ işarə edək. $f'(x) = 3x^2 - 6$ ifadəsindən aydındır ki, $x < -\sqrt{2}$ və $x > \sqrt{2}$ olduqda $f'(x) > 0$ və $-\sqrt{2} < x < \sqrt{2}$ intervalında $f'(x) < 0$.

Deməli, $(-\infty, -\sqrt{2})$ və $(\sqrt{2}, \infty)$ intervallarında funksiya artır, $(-\sqrt{2}, \sqrt{2})$ intervalında isə azalır. Beləliklə, bu intervalların hər birində funksiyanın bir həqiqi kökü var, çünki onların uclarında funksiya müxtəlif işarəli qiymətlər alır. Hesablamaları sadələşdirmək üçün həmin intervalları kiçildək. Bu şərtlə ki, hər intervalda uyğun kök qalsın.

Bunun üçün hər bir monotonluq intervalının daxilində yeni kiçik interval elə seçilir ki, onun uclarında funksiyanın qiymətləri yenə də müxtəlif işarəli olsun.

$$f(-3)=-7<0,\ f(-2)=6>0,\ f(0)=2>0$$

$$f(1)=-3<0,\ f(2)=-2<0,\ f(3)=11>0$$

olduğundan köklər $(-3,-2),(0,1),\ (2,3)$ intervallarında yerləşər.

İndi $(0,1)$ intervalında kökün təqribi qiymətini tapaq. Toxunanlar düsturuna görə alarıq:

$$x_1=0-\frac{(1-0)\cdot 2}{-3-2}=\frac{2}{5}=0{,}4$$

$f(0{,}4)=-0{,}336<0$ və $f(0)=2>0$ olduğundan kök 0 ilə 0,4 arasında olar. Bu intervala yenə toxunanlar düsturunu tətbiq etsək aşağıdakı yaxınlaşmanı alarıq:

$$x_2=0-\frac{(0{,}4-0)\cdot 2}{-0{,}336-2}=\frac{0{,}8}{2{,}336}=0{,}342 \quad \text{və s.}$$

Eyni ilə başqa intervallardakı köklərin təqribi qiymətlərini hesablamaq olar.

15) Çalışma 1-in 2-ci misalının həlli: z nöqtəsi üçüncü rübə düşur:

$$r=|z|=\sqrt{\left(-\frac{1}{2}\right)^2+\left(-\frac{\sqrt{3}}{2}\right)^2}=1, tg\varphi=\sqrt{3}, \varphi=arg\,z=\frac{4\pi}{3}.$$

Onda $z=re^{i\varphi}=1e^{i\frac{4\pi}{3}}, \left(-\frac{1}{2}-i\frac{\sqrt{3}}{2}\right)^{10}=$

$$=1^{10}e^{i\frac{40\pi}{3}}=e^{i(33\pi+\frac{\pi}{3})}=-e^{i\frac{\pi}{3}}=-\frac{1}{2}-i\frac{\sqrt{3}}{2}.$$

16) Çalışma 1-ni 7-ci misalının həlli: z nöqtəsi dördüncü rübə düşür:

$$r=|z|=\sqrt{(\sqrt{2})^2+(-\sqrt{2})^2}=2, tg\varphi=-1, \varphi=arg\,z=\frac{7\pi}{4},$$

Onda

$$z = re^{i\varphi} = 2e^{i\frac{7\pi}{4}}, (\sqrt{2} - i\sqrt{2})^8 = 2^8 e^{i\frac{7\pi}{4}8} = 2^8 e^{i14\pi} = 2^8 \cdot 1 = 256\,.$$

17) Çalışma 2-nin 3-cü misalının həlli: -1-i$\sqrt{3}$ kompleks ədədini triqonometrik şəkildə yazaq:

$$-1 - i\sqrt{3} = 2(cos(-\frac{\pi}{3}) + i\,sin(-\frac{\pi}{3}))\text{. Onda}$$

$$\sqrt[4]{-1-i\sqrt{3}} = \sqrt[4]{2}\left(cos\frac{-\frac{\pi}{3}+2k\pi}{4} + i\,sin\frac{-\frac{\pi}{3}+2k\pi}{4} \right)$$

k=0,1,2,3 qiymətlərində alarıq:

k=0 olduqda $\sqrt[4]{2}\left(cos\frac{\pi}{12} - i\,sin\frac{\pi}{12} \right)$,

k=1 olduqda $\sqrt[4]{2}\left(cos\frac{5\pi}{12} + i\,sin\frac{5\pi}{12} \right)$,

k=2 olduqda $\sqrt[4]{2}\left(cos\frac{11\pi}{12} + i\,sin\frac{11\pi}{12} \right)$,

k=3 olduqda $-\sqrt[4]{2}\left(cos\frac{5\pi}{12} + i\,sin\frac{5\pi}{12} \right)$.

18) Çalışma 2-nin 12-ci misalının həlli: $2\sqrt{3} + 2i$ kompleks ədədini triqonometrik şəkildə yazaq:

$$2\sqrt{3} + 2i = 4\left(\frac{\sqrt{3}}{2} + i\frac{1}{2} \right) = 4\left(cos\frac{\pi}{6} + i\,sin\frac{\pi}{6} \right)$$

Onda $\sqrt[4]{2\sqrt{3}+2i}=\sqrt[4]{4}\left(\cos\frac{\frac{\pi}{6}+2k\pi}{4}+i\sin\frac{\frac{\pi}{6}+2k\pi}{4}\right).$

K=0,1,2,3 qiymətlərində alarıq:

K=0 olduqda $\sqrt{2}\left(\cos\frac{\pi}{24}+i\sin\frac{\pi}{24}\right)$

K=1 olduqda $\sqrt{2}\left(\cos\frac{13\pi}{24}+i\sin\frac{13\pi}{24}\right)$

K=2 olduqda $-\sqrt{2}\left(\cos\frac{\pi}{24}+i\sin\frac{\pi}{24}\right)$

K=3 olduqda $-\sqrt{2}\left(\cos\frac{13\pi}{24}+i\sin\frac{13\pi}{24}\right)$

19) Çalışma 3-ün 1-ci misalının həlli:

Tənliyi vətərlər üsulu ilə həll edək. Tutaq ki, $f(x)=x^3+x^2-3$, $y=x^3$ və $y=3-x^2$.

$y=x^3$ və $y=3-x^2$ funksiyalarının qrafiklərini qurmaqla asanlıqla müəyyən etmək olar ki, [1;1,25] parçasında tənliyin bir həqiqi kökü var.

Burada $a=1$, $b=1{,}25$, $f(1)=-1<0$, $f(1{,}25)=0{,}5156>0$ olduqdan

$x_1=a-\frac{b-a}{f(b)-f(a)}f(a)$ düsturuna görə alarıq:

$$x_1=1-\frac{1{,}25-1}{0{,}5156+1}(-1)=1{,}1649$$

$f(1{,}1649)=-0{,}0619$ olduqda $x_2=x_1-\frac{b-x_1}{f(b)-f(x_1)}f(x_1)$

düsturuna görə

$$x_2=1{,}1649-\frac{1{,}25-1{,}1649}{0{,}5156+0{,}0619}(-0{,}0619)=1{,}1740$$

f(1,1740)=-0,0031 olduqdan

$$x_3 = 1{,}1740 - \frac{1{,}25 - 1{,}1740}{0{,}5156 + 0{,}0031}(-0{,}0031) = 1{,}1745$$

Beləliklə, tənliyin $\Delta=10^{-4}$ dəqiqliyi ilə təqribi həlli x=1,1745 olar.

20) Çalışma 3-ün 4-cü misalının həlli: tənliyi vətərlər üsulu ilə həll edək. Tutaq ki, $f(x)=x^3+3x-1$, $y=x^3$ və $y=1-3x$, $y=x^3$ və $y=1-3x$ funksiyaların qrafiklərin qurmaqla asanlıqla müəyyən etmək olar ki, [0;1] parçasında tənliyin bir həqiqi kökü var.

Burada $a=0$, $b=1$, $f(0)=-1<0$, $f(1)=3>0$ olduğundan

$$x_1 = a - \frac{b-a}{f(b)-f(a)} f(a)$$, düsturuna görə alarıq:

$$x_1 = 0 - \frac{1-0}{3+1}(-1) = 0{,}25$$

f(0,25)=-0,234 olduqdan, $x_2 = x_1 - \frac{b - x_1}{f(b) - f(x_1)} f(x_1)$

düstunruna görə $x_2 = 0{,}25 - \frac{1-0{,}25}{3+0{,}234}(-0{,}234) = 0{,}304$

f(0,304)=-0,060 olduğundan

$$x_3 = 0{,}304 - \frac{1-0{,}304}{3+0{,}060}(-0{,}060) = 0{,}3176.$$

Nəhayət alarıq ki,

$$x_4 = 0{,}3176 - \frac{1-0{,}3176}{3+0{,}0152}(-0{,}0152) = 0{,}3211.$$

Beləliklə, tənliyin $\Delta=10^{-4}$ dəqiqliyi ilə təqribi həlli x=0,3211 olar.

VII FƏSİL

İnteqrallar

Çalışma 1. Qeyri-müəyyən inteqralları tapın.

1) $\int(1-2x)e^{-3x}dx,$ 2) $\int(4-3x)e^{2x}dx,$

3) $\int(5x-1)e^{5x}dx,$ 4) $\int x\cos^2 xdx,$

5) $\int arcsin\sqrt{x}dx,$ 6) $\int\frac{xdx}{sin^2 x},$

7) $\int\frac{xdx}{\cos^2 x},$ 8) $\int\frac{x\cos xdx}{\sin^3 x},$

9) $\int\frac{x\sin x}{\cos^3 x}dx,$ 10) $\int(4x+7)arctgxdx,$

11) $\int(3x+4)arcctgxdx,$ 12) $\int\ln(4x^2+1)dx,$

13) $\int xarctgxdx,$ 14) $\int xarcctgxdx,$

15) $\int(5-3x)\cos 5xdx,$ 16) $\int\ln(x^2+x)dx,$

17) $\int arctg\sqrt{x}dx.$

Çalışma 2. Müəyyən inteqralları hesablayın.

1) $\int_{-\pi}^{0}(x^2+3x+2)\,sin\,xdx$ 2) $\int_{-\pi}^{0}(x^2-9)\,sin\,xdx,$

3) $\int_{-\pi}^{0}(x^2+5x+6)\,cos\,xdx,$ 4) $\int_{-\pi}^{0}(x+1)^2\,sin\,xdx,$

5) $\int\limits_0^{2\pi}(1-8x^2)\cos x dx,$ 6) $\int\limits_0^{\pi}(x^2-3x)\sin x dx,$

7) $\int\limits_0^{\pi}(x^2-3x-1)\sin x dx,$ 8) $\int\limits_0^{2\pi}(5-7x^2)\cos x dx,$

9) $\int\limits_0^{\pi}(3x^2+3x+7)\cos x dx,$ 10) $\int\limits_{-2}^{0}(x^2+1)e^{\frac{x}{2}}dx,$

11) $\int\limits_{-1}^{1}x^2e^{-\frac{x}{2}}dx,$ 12) $\int\limits_0^1 x^2e^{3x}dx,$

13) $\int\limits_1^2 x^2\ln x dx,$ 14) $\int\limits_1^2 x\ln^2 x dx,$

15) $\int\limits_1^{e^2}\frac{\ln^2 x}{x}dx,$ 16) $\int\limits_1^2 x\ln x dx,$

17) $\int\limits_0^{\frac{\pi}{3}}\cos^3 x\sin 2x dx.$

Çalışma 3. Qeyri-müəyyən inteqralları tapın.

1) $\int\frac{dx}{x\sqrt{x^2+2}},$ 2) $\int\frac{1-\sqrt{x}}{\sqrt{x}(x+2)}dx,$

3) $\int\frac{(\arccos x)^2}{\sqrt{1-x^2}}dx,$ 4) $\int\frac{x^3}{x^2+1}dx,$

5) $\int\frac{x}{x^4+1}dx,$ 6) $\int\frac{(arctgx)^4}{1+x^2}dx,$

7) $\int \frac{(arccos\, x)^3}{\sqrt{1-x^2}}dx,$ 8) $\int \frac{xdx}{\sqrt{x^2+x+1}},$

9) $\int \frac{x^3}{(x^2+1)^2}dx,$ 10) $\int \frac{x^3+x}{x^4+1}dx,$

11) $\int \frac{xdx}{\sqrt{x^2-x-1}},$ 12) $\int \frac{cos\, x}{2\, cos\, x+2\, sin\, x}dx,$

13) $\int \frac{(x^2+\ln x)^2}{x}dx,$ 14) $\int \frac{2\cos x+3\sin x}{(2\sin x-3\cos x)^3}dx,$

15) $\int \frac{x-2}{\sqrt{x+1}}dx,$ 16) $\int \frac{\ln x}{x^2}dx,$

17) $\int \frac{x^4}{x^2+1}dx.$

Çalışma 4. Qeyri-müəyyən inteqralları tapın.

1) $\int \frac{2x+5}{x^2-2x-2}dx,$ 2) $\int \frac{x^3-6x^2+13x-10}{(x+2)(x-2)^2}dx,$

3) $\int \frac{dx}{(x^2+1)(x+1)^2},$ 4) $\int \frac{2x^3+x+1}{x^3(x+1)}dx,$

5) $\int \frac{3x^2+1}{(x^2-1)^3}dx,$ 6) $\int \frac{x^4}{(x-1)(x+1)(x+2)}dx,$

7) $\int \frac{-x^5+9x^3+4}{x^2+3}dx,$ 8) $\int \frac{-x^5+25x^3+1}{x^2+5x}dx,$

9) $\int \frac{4x-3}{x^2+3x+4}dx,$ 10) $\int \frac{x^3-2x^2+4}{(x-2)^2x^3}dx,$

11) $\int \frac{dx}{x^2-4x+3}$,

12) $\int \frac{dx}{(x-1)^2(x^2+1)^2}$,

13) $\int \frac{2x^3+3x}{x^4+x^2+1}dx$,

14) $\int \frac{x^2-5x+9}{x^2-5x+6}dx$,

15) $\int \frac{2x^4-x^2+1}{x^3-x}dx$,

16) $\int \frac{dx}{(1+x^2)^3}$,

17) $\int \frac{(x+1)dx}{(x^2+x-2)^2}$.

Çalışma 5. Qeyri-müəyyən inteqralları tapın.

1) $\int \frac{dx}{x-\sqrt{x^2-1}}$,

2) $\int \frac{x^4 dx}{\sqrt{x^2+4x+5}}$,

3) $\int \frac{x\ln x}{\sqrt{(x^2-1)^3}}dx$,

4) $\int \sqrt{\frac{1-\sqrt[3]{x}}{1+\sqrt[3]{x}}}\frac{dx}{x}$,

5) $\int \frac{dx}{x^3\sqrt{(1+x)^3}}$,

6) $\int x\sqrt{\frac{1+x}{1-x}}dx$,

7) $\int \frac{xe^x dx}{\sqrt{1+e^x}}$,

8) $\int \frac{arctgx}{x^4}dx$,

9) $\int \frac{dx}{1+\cos^2 x}$,

10) $\int \sqrt{tg^2 x+2}dx$,

11) $\int \frac{(x-1)dx}{x^2\sqrt{2x^2-2x+1}}$,

12) $\int \frac{\arcsin x}{x^3}dx$,

13) $\int \frac{dx}{x^3\sqrt{x-1}}$,

14) $\int \frac{dx}{\sin^4 x+\cos^4 x}dx$,

15) $\int \frac{x^3 dx}{\sqrt{x^2+1}}$, 16) $\int \sin^6 x dx$,

17) $\int \frac{dx}{\sqrt[4]{1+x^4}} dx$.

Çalışma 6. Müəyyən inteqralları hesablayın.

1) $\int_0^{13} \sqrt{169-x^2} dx$, 2) $\int_0^2 \frac{dx}{\sqrt{(4+x^2)^3}}$,

3) $\int_1^2 \frac{\sqrt{x^2-1}}{x^4} dx$ 4) $\int_0^2 \sqrt{4-x^2} dx$,

5) $\int_0^4 x^2\sqrt{16-x^2} dx$, 6) $\int_0^5 x^2\sqrt{25-x^2} dx$,

7) $\int_0^4 \frac{dx}{1+\sqrt{2x+1}}$, 8) $\int_1^{\sqrt{3}} \frac{\sqrt{x^2+1}}{x^2} dx$,

9) $\int_0^2 \frac{dx}{\sqrt{x+1}+\sqrt{(x+1)^3}}$, 10) $\int_0^1 \frac{\sqrt{x}}{\sqrt{x+1}} dx$,

11) $\int_0^{\frac{\sqrt{2}}{2}} \sqrt{\frac{1+x}{1-x}} dx$, 12) $\int_0^1 \frac{3x+2}{\sqrt{(x^2+4x+1)^5}} dx$,

13) $\int_0^1 \sqrt{2x+x^2} dx$, 14) $\int_1^2 \frac{dx}{x+x^3}$,

15) $\int\limits_{0}^{4\sqrt{2}} \frac{x^{15}}{\sqrt{(1+x^3)^5}}dx$,

16) $\int\limits_{0}^{1} x^3\sqrt{x^2-1}dx$,

17) $\int\limits_{0}^{4} x^3\sqrt{1+x^2}dx$.

Çalışma 7. Müəyyən inteqralları hesablayın.

1) $\int\limits_{0}^{2\pi} \frac{dx}{(2+tg^2x)\cos^2 x}$,

2) $\int\limits_{0}^{\pi} \sqrt{\frac{1+\cos 2x}{2}}dx$,

3) $\int\limits_{0}^{\frac{\pi}{2}} \frac{dx}{2+\cos x}$,

4) $\int\limits_{0}^{\frac{\pi}{2}} \frac{\cos x dx}{6-5\sin x+\sin^2 x}$,

5) $\int\limits_{0}^{1} \frac{\arcsin\sqrt{x}dx}{\sqrt{x(1-x)}}$,

6) $\int\limits_{0}^{1} x^3 arctgx dx$,

7) $\int\limits_{0}^{\pi} x^3 \sin x dx$,

8) $\int\limits_{0}^{\frac{\pi}{2}} \sin^4 x\cos^2 x dx$,

9) $\int\limits_{\frac{\pi}{4}}^{\frac{\pi}{3}} \frac{xdx}{\sin^2 x}$,

10) $\int\limits_{0}^{\pi} e^x \cos^2 x dx$,

11) $\int\limits_{0}^{\frac{\pi}{3}} \cos^3 x\sin 2x dx$,

12) $\int\limits_{0}^{\frac{\pi}{4}} tg^3 x dx$,

13) $\int\limits_0^{\pi} \frac{x \sin x dx}{1+\cos^2 x}$, 14) $\int\limits_0^{\frac{\pi}{4}} \frac{tg^2 x - 11 tgx + 12}{4 - tgx} dx$,

15) $\int\limits_0^{2\pi} \frac{dx}{(2+\cos x)(3+\cos x)}$, 16) $\int\limits_0^{\frac{\pi}{2}} \frac{dx}{1+\sin x+\cos x}$,

17) $\int\limits_0^{\frac{\pi}{2}} \frac{x \sin x dx}{1+\cos^2 x}$.

Çalışma 8. Funksiyaların qrafikləri ilə məhdud olan fiqurların sahəsini hesablayın.

1) $y^2 = 2x+1,\ y = x-1,$ 2) $y = x^2,\ y = \sqrt{x},$

3) $y = x^2,\ y = \frac{x^3}{3},$ 4) $y^2 = -8x+16,\ y^2 = 24x+48,$

5) $y = \frac{1}{1+x^2},\ y = \frac{x^2}{2},$ 6) $y = -x^2,\ y+x+2 = 0,$

7) $xy = 4\sqrt{2},\ x^2 - 6x + y^2 = 0, y = 0,\ x = 4,$

8) $x = a(t - \sin t),\ y = a(1-\cos t),\ 0 \le t \le 2\pi,$

9) $y = x + \sin^2 x,\ y = x,\ 0 \le x \le \pi,$

10) $y^2 = x^2(1-x^2),$ 11) $6x = y^3 - 16y,\ 24x = y^3 - 16y,$

12) $x = 3t^2,\ y = 3t - t^3,$ 13) $y = e^x,\ y = e^{-x},\ x = 1,$

14) $y^2 = x^2 - x^4,$ 15) $y^2 = (1-x^2)^3,$

16) $x = a\cos^3 t,\ y = a\sin^3 t,\ 0 \le t \le \frac{\pi}{2},$

17) $\rho = 2a(2+\cos\varphi),\ 0 \le \varphi \le \pi.$

Çalışma 9. Əyrinin uzunluğunu hesablayın.

1) $y = 2 + \ln\cos x,\ 0 \le x \le \frac{\pi}{6}$, 2) $y = \ln\sin x,\ \frac{\pi}{3} \le x \le \frac{2\pi}{3}$,

3) $x = \frac{y^2}{4} - \frac{\ln y}{2},\ 1 \le y \le e$, 4) $y = 4 - x^2,\ -2 \le x \le 2$,

5) $y^2 = 4x,\ 0 \le x \le 1$, 6) $y = \frac{x^2}{2},\ 0 \le x \le 1$,

7) $x = \cos^5 x,\ \ y = \sin^5 t,\ \ 0 \le t \le \frac{\pi}{2}$,

8) $x = \frac{t^3}{3} - t,\ y = t^2 + 2,\ \ 0 \le t \le 3$,

9) $y = e^x + 26,\ 0 \le x \le ln\sqrt{2}$,

10) $y = 2\left(e^{\frac{x}{4}} + e^{-\frac{x}{4}}\right),\ 0 \le x \le 4$,

11) $y = \arcsin e^{-x},\ 0 \le x \le 1$,

12) $x = t^2,\ y = t + \frac{1}{3}t^3, z = t - \frac{1}{3}t^3,\ 0 \le t \le \sqrt{3}$,

13) $y^2 = (x-1)^3\ \ 2 \le x \le 5$, 14) $y^3 = x^2,\ y = \sqrt{2 - x^2}$,

15) $9y^2 = x(3-x)^2$, 16) $y = \ln x,\ \sqrt{3} \le x \le \sqrt{8}$,

17) $y = \ln(1 - x^2),\ \ 0 \le x \le \frac{1}{2}$.

Çalışma 10. Səthlərlə məhdud olan cismlərin həcmini hesablayın.

1) $\frac{x^2}{9} + y^2 = 1,\ z = \frac{2\sqrt{2}}{3}x,\ z = 0$,

2) $z = x^2 + 4y^2,\ z = 2$, 3) $(z-2)^2 = \frac{x^2}{3} + \frac{y^2}{2},\ z = 0$,

4) $z = x^2 + 2y^2,\ x^2 + 2y^2 + z^2 = 6,$

5) $z = x^2 + 5y^2, z = 5,$

6) $x^2 + y^2 + z^2 = 16, x = 2, x = 3$

7) $z = 2x^2 + 18y^2,\ z = 5,$ 8) $z = 4 - y^2, x = a$

9) $\frac{x^2}{9} + \frac{y^2}{25} + \frac{z^2}{100} = 1,\quad z = -1, z = 1$

10) $z = 2x^2 + 8y^2,\ z = 4,$

11) $x^2 + y^2 = x,\ z^2 = 1 - x,$

12) $x^2 + y^2 = 1,\ x^2 + z^2 = 1,$

13) $x^2 + y^2 + z^2 = 1,\ x^2 + y^2 = x,$

14) $\frac{x^2}{a^2} + \frac{y^2}{b^2} + \frac{z^2}{c^2} = 1,$ 15) $x^2 + y^2 = a^2, y^2 + z^2 = a^2,$

16) $\frac{x^2}{4} + \frac{y^2}{9} - z^2 = 1,\ z = -1,\ z = 2,$

17) $2z = \frac{x^2}{4} + \frac{y^2}{9},\ \frac{x^2}{4} + \frac{y^2}{9} = z^2.$

Çalışma 11. Əyrilərin Ox oxu ətrafında fırlanmasından alınan səthin sahəsini hesablayın.

1) $y = tgx,\ 0 \le x \le \frac{\pi}{4},$ 2) $9y^2 = x(3-x)^2,$

3) $y = (x-2)^3, 2 \le x \le 8,$ 4) $\frac{x^2}{a^2} + \frac{y^2}{b^2} = 1,$

5) $y = \sin 2x,\ 0 \le x \le \frac{\pi}{2},$ 6) $y = x,\ -\frac{2}{3} \le x \le \frac{2}{3},$

7) $4x^2 + y^2 = 4,$ 8) $y^2 = 4 + x,\ 0 \le x \le 2,$

9) $y = tgx,\ 0 \le x \le \frac{\pi}{4}$,

10) $y = x\sqrt{x}, 0 \le x \le 1$,

11) $x^{\frac{2}{3}} + y^{\frac{2}{3}} = a^{\frac{2}{3}}$,

12) $y = \sin x,\ 0 \le x \le \pi$,

13) $y = x^2, x = y^2$,

14) $y = a\sqrt{\cos 2\varphi}$,

15) $y = x^3, 0 \le x \le 1$

16) $y^2 = 4x,\ 0 \le x \le 3$,

17) $y = \frac{1}{3}x^3,\ 0 \le x \le 2$.

Çalışma 12. Əyrilərin Ox oxu ətrafında fırlanmasından alınan cisimlərin həcmlərini tapın.

1) $x = a\cos^3 t,\ y = a\sin^3 t$,

2) $y^2 = 4x,\ 0 \le x \le 3$,

3) $y = xe^x,\ y = 0,\ x = 1$,

4) $y = \arcsin x, 0 \le x \le 1$,

5) $y^2 = (x-1)^3, 1 \le x \le 2$,

6) $y^2 = x,\ x^2 = y$,

7) $y = e^x\sqrt{x},\ y = 0,\ 0 \le x \le 1$,

8) $y = \sin x, 0 \le x \le \pi$,

9) $y = x^2 + 1,\ y = 3x - 1$,

10) $(y-3)^2 + 3x = 0, -3 \le x \le 0$,

11) $y = \sqrt{2x}, y = 2\sqrt{(x-1)^3}, 1 \le x \le 2$,

12) $y = \frac{1}{2}x^2, 2x + 2y - 3 = 0$,

13) $y = e^{-2x} - 1,\ y = e^{-x} + 1,\ x = 0$,

14) $x = e^t \cos t,\ y = e^t \sin t,\ 0 \le t \le \pi$,

15) $x = t - \sin t, y = 1 - \cos t$,

16) $y = 4 - x^2, y = 0$,

17) $xy = 4,\ y = 0,\ 1 \le x \le 4$.

Çalışma 13. Birinci növ qeyri-məxsusi inteqralları hesablayın.

1) $\int\limits_{1}^{\infty}\frac{dx}{x+x^3}$, 2) $\int\limits_{2}^{\infty}\frac{dx}{x^5}$, 3) $\int\limits_{0}^{\infty}\frac{dx}{x^2+16}$,

4) $\int\limits_{0}^{\infty}\frac{dx}{1+x^3}$, 5) $\int\limits_{1}^{\infty}\frac{dx}{(1+x)\sqrt{2x}}$, 6) $\int\limits_{0}^{\infty}e^{-5x}\cos 4x dx$,

7) $\int\limits_{0}^{\infty}x^2 e^{-\frac{x}{2}}dx$, 8) $\int\limits_{0}^{\infty}\frac{dx}{(1+x^2)^3}$, 9) $\int\limits_{-\infty}^{-1}\frac{dx}{x^2}$,

10) $\int\limits_{-\infty}^{\infty}\frac{dx}{1+x+x^2}$, 11) $\int\limits_{0}^{\infty}xe^{-x}dx$, 12) $\int\limits_{0}^{\infty}e^{-\sqrt{x}}dx$,

13) $\int\limits_{0}^{\infty}\frac{xdx}{(1+x)^3}$, 14) $\int\limits_{1}^{\infty}\frac{\sqrt{x}}{(1+x)^2}dx$, 15) $\int\limits_{0}^{\infty}e^{-x}\sin xdx$

16) $\int\limits_{0}^{\infty}xe^{-x^2}dx$, 17) $\int\limits_{-\infty}^{\infty}\frac{dx}{x^2+4x+9}$.

Çalışma 14. Birinci növ qeyri-məxsusi inteqralların yığılıb və ya dağılmasını araşdırın.

1) $\int\limits_{0}^{\infty}\frac{x^2dx}{x^3+x+1}$, 2) $\int\limits_{1}^{\infty}\frac{dx}{\sqrt{x}}$, 3) $\int\limits_{2}^{\infty}\frac{xdx}{\sqrt{x^4+1}}$,

4) $\int\limits_{0}^{\infty}e^{-x}\sqrt{x}dx$, 5) $\int\limits_{5}^{\infty}\frac{dx}{x\ln x}$, 6) $\int\limits_{0}^{\infty}x^2\cos xdx$,

7) $\int\limits_{1}^{\infty}\frac{1}{x}\ln(x+1)dx$, 8) $\int\limits_{1}^{\infty}\left(\frac{1}{x}+\frac{1}{x^3}\right)dx$, 9) $\int\limits_{1}^{\infty}x\cos xdx$,

10) $\int\limits_{1}^{\infty}x^{-2}e^{-x^2}dx$, 11) $\int\limits_{0}^{\infty}e^{-x^2}dx$, 12) $\int\limits_{0}^{\infty}\frac{e^{-x}}{\sqrt{x}}dx$,

13) $\int_1^{\infty}\frac{arctgx}{x^2}dx$, 14) $\int_0^{\infty}x\cos xdx$, 15) $\int_{e^2}^{\infty}\frac{dx}{x\ln(\ln x)}$,

16) $\int_0^{\infty}x\sin xdx$, 17) $\int_0^{\infty}x^2\cos xdx$.

Çalışma 15. İkinci növ qeyri-məxsusi inteqralları hesablayın.

1) $\int_1^2\frac{xdx}{\sqrt{x^2-1}}$, 2) $\int_0^2\frac{dx}{x^2-4x+3}$, 3) $\int_0^1\frac{dx}{\sqrt{x(1-x)}}$,

4) $\int_1^{e^2}\frac{dx}{x\sqrt{\ln x}}$, 5) $\int_0^{\frac{\pi}{2}}\ln\sin xdx$, 6) $\int_0^1\frac{dx}{e^x-\cos x}$,

7) $\int_0^1\frac{dx}{x-\sin x}$, 8) $\int_0^{\frac{\pi}{4}}\frac{\sin x}{x\sqrt{x}}dx$, 9) $\int_1^3\frac{dx}{(x-1)^2}$,

10) $\int_1^3\frac{dx}{\sqrt[3]{x-1}}$, 11) $\int_0^1 x\ln xdx$, 12) $\int_{-1}^0 x^{-3}e^{\frac{1}{x}}dx$,

13) $\int_0^{\frac{\pi}{2}}\frac{\ln\sin x}{\sqrt{x}}dx$, 14) $\int_0^1\sqrt{\ln\frac{1}{x}}dx$, 15) $\int_0^1\sqrt{\frac{x}{1-x^4}}dx$,

16) $\int_1^2\frac{x-2}{\sqrt{x-1}}dx$, 17) $\int_{-1}^1\frac{3x^2+2}{\sqrt[3]{x^2}}dx$.

Nümunəvi həllər

1) $\int(3x^2-2\sin x+\frac{1}{2}\sqrt{x})dx$ inteqralını hesablayın.

Həlli:

$$\int(3x^2-2\sin x+\frac{1}{2}\sqrt{x})dx=3\int x^2dx-2\int\sin xdx+$$

$$+\frac{1}{2}\int x^{\frac{1}{2}}dx=x^3+2\cos x+\frac{1}{3}x\sqrt{x}+c.$$

2) $\int\frac{1}{x^2}e^{\frac{1}{x}}dx$ inteqralını hesablayın.

Həlli: $t=\frac{1}{x},\ dx=-\frac{dt}{t^2}$ əvəzləməsini aparsaq, alarıq:

$$\int\frac{1}{x^2}e^{\frac{1}{x}}dx=\int t^2e^t\left(-\frac{dt}{t^2}\right)=-\int e^tdt=-e^t+c=e^{-\frac{1}{x}}+c.$$

3) $\int x\sin xdx$ inteqralını hesablayın.

Həlli:

$u=x,\ du=dx,\ dv=\sin xdx,\ v=-\cos x$ qəbul etsək alarıq:

$$\int x\sin xdx=-x\cos x+\int\cos xdx=-x\cos x+\sin x+c.$$

4) $\int\frac{x+3}{x^2+4x+5}dx$ inteqralını hesablayın.

Həlli:

$t=x+2,\ dx=dt$ əvəzləməsini aparsaq alarıq:

$$\int\frac{x+3}{x^2+4x+5}dx=\int\frac{x+2+1}{(x+2)^2+1}dx=\int\frac{t+1}{t^2+1}dt=$$

$$=\frac{1}{2}\int\frac{d(t^2+1)}{t^2+1}+\int\frac{dt}{t^2+1}=\frac{1}{2}\ln(t^2+1)+arctgt+c=$$

$$=\frac{1}{2}\ln(x^2+4x+5)+arctg(x+2)+c.$$

5) $\int\frac{x^2+4x+4}{x(x-1)^2}$ inteqralını hesablayın.

Həlli: İnteqralaltı funksiyanı sadə kəsrlərə ayıraq.

$$\frac{x^2+4x+4}{x(x-1)^2}=\frac{A}{x}+\frac{B}{x-1}+\frac{C}{(x-1)^2}$$

sağ tərəfi ortaq məxrəcə gətirək və surətləri bərabərləşdirək:

$$x^2+4x+4=A(x-1)^2+Bx(x-1)+Cx$$

Eyniliyin hər iki tərəfindəki eyni dərəcəli x-lərin əmsallarını bərabərləşdirməklə

$$\begin{cases} A+B=1 \\ -2A-B+C=4 \\ A=4 \end{cases}$$

tənliklər sistemini alarıq. Buradan taparıq ki,

$$A=4, \quad B=-3, \quad C=9.$$

Beləliklə,

$$\int\frac{x^2+4x+4}{x(x-1)^2}dx=\int\left(\frac{4}{x}-\frac{3}{x-1}+\frac{9}{(x-1)^2}\right)dx=4\ln|x|-$$

$$-3\ln|x-1|-\frac{9}{x-1}+C.$$

6) $\int\frac{dx}{(5+x)\sqrt{1+x}}$ inteqralını hesablayın.

Həlli: $1+x=t^2$, $dx=2tdt$ əvəzləməsini aparsaq, alarıq:

$$\int\frac{dx}{(5+x)\sqrt{1+x}}=\int\frac{2tdt}{(4+t^2)t}=2\int\frac{dt}{4+t^2}=arctg\frac{t}{2}+C=$$

$$=arctg\frac{\sqrt{1+x}}{2}+C.$$

7) $\int\frac{dx}{\cos^4 x}$ inteqralını hesablayın.

Həlli: $t=tgx$, $dt=dtgx=\frac{dx}{\cos^2 x}$ əvəzləməsini aparsaq, alarıq:

$$\int \frac{dx}{\cos^4 x} = \int \frac{1}{\cos^2 x} \cdot \frac{dx}{\cos^2 x} = \int (1 + tg^2 x) dtgx = \int (1 + t^2) dt =$$

$$= \frac{1}{3} t^3 + t + C = \frac{1}{3} tg^3 x + tgx + C.$$

8) $\int \cos 2x \sin 4x dx$ inteqralını hesablayın.

Həlli:

$$\int \cos 2x \sin 4x dx = \frac{1}{2} \int (\sin 6x + \sin 2x) dx = \frac{1}{2} \int \sin 6x dx +$$

$$+ \frac{1}{2} \int \sin 2x dx = -\frac{1}{12} \cos 6x - \frac{1}{4} \cos 2x + C.$$

9) $\int\limits_0^1 \frac{xdx}{\sqrt{x^2+1}}$ inteqralını hesablayın.

Həlli: Nyuton-Leybnis düsturuna əsasən, alarıq:

$$\int\limits_0^1 \frac{xdx}{\sqrt{x^2+1}} = \frac{1}{2} \int\limits_0^1 (x^2+1)^{-\frac{1}{2}} d(x^2+1) = \sqrt{x^2+1}\Big|_0^1 = \sqrt{2} - 1.$$

10) $\int\limits_1^e \frac{\ln^2 x}{x} dx$ inteqralını hesablayın.

Həlli: $\ln x = t$ əvəzləməsini aparsaq, onda $\frac{dx}{x} = dt$, $x = 1$ olduqda $t = 0$ və $x = e$ olduqda isə $t = 1$ olar.

Beləliklə,

$$\int\limits_1^e \frac{\ln^2 x}{x} dx = \int\limits_0^1 t^2 dt = \frac{1}{3} t^3 \Big|_0^1 = \frac{1}{3}.$$

11) $\int\limits_0^1 xe^{-x} dx$ inteqralını hesablayın.

Həlli: $u = x,\ du = dx,\ dv = e^{-x} dx,\ v = -e^{-x}$ qəbul etsək, hissə-hissə inteqrallaına düsturuna əsasən, alarıq:

$$\int_0^1 xe^{-x}dx = -xe^{-x}\Big|_0^1 + \int_0^1 e^{-x}dx = -e^{-1} - e^{-x}\Big|_0^1 =$$

$$= -2e^{-1} + 1 = 1 - \frac{2}{e}.$$

12) $y = \sin x$ əyrisi və Ox oxunun $0 \le x \le 2\pi$ parçası ilə əhatə olunmuş fiqurun sahəsini hesablayın.

Həlli: $0 \le x \le \pi$ parçasında $\sin x \ge 0$ və $\pi \le x \le 2\pi$ parçasında $\sin x \le 0$ olduğuna görə alarıq:

$$S = \int_0^{\pi} \sin x dx - \int_{\pi}^{2\pi} \sin x dx = -\cos x\Big|_0^{\pi} - \left(-\cos x\Big|_{\pi}^{2\pi}\right) = 2 + 2 = 4.$$

13) $x = a\cos t, y = b\sin t$ ellipsi ilə əhatə olunmuş fiqurun sahəsini hesablayın.

Həlli:

Ellipsin birinci kvadratda sahəsini hesablayıb sonra 4-ə vurmaq lazımdır. Burada x-dəyişəni 0 ilə a arasında dəyişdikdə, t parametri $\frac{\pi}{2}$ ilə 0 arasında dəyişər. Beləliklə,

$$S = 4\int_{\frac{\pi}{2}}^{0} b\sin t(-a\sin t)dt = 4ab\int_0^{\frac{\pi}{2}} \sin^2 tdt =$$

$$= 2ab\int_0^{\frac{\pi}{2}} (1 - \cos 2t)dt = 2ab\left(t - \frac{\sin 2t}{2}\right)\Bigg|_0^{\frac{\pi}{2}} = \pi ab.$$

14) $x = R\cos t,\ y = R\sin t$ çevrəsinin uzunluğunu hesablayın.

Həlli:

$$l=\int_{\alpha}^{\beta}\sqrt{(x_t')^2+(y_t')^2}\,dt=\int_{0}^{2\pi}\sqrt{R^2\sin^2 t+R^2\cos^2 t}\,dt=$$

$$R\int_{0}^{2\pi}dt=Rt\Big|_0^{2\pi}=2\pi R.$$

15) $y^2=x^3$ yarımkubik parabolasının koordinat başlanğıcından $(1,1)$ nöqtəsinə qədər uzunluğunu hesablayın.

Həlli: $y=x^{\frac{3}{2}}$, $y'=\frac{3}{2}x^{\frac{1}{2}}$ olduğuna görə alarıq:

$$l=\int_{a}^{b}\sqrt{1+(y')^2}\,dx=\int_{0}^{1}\sqrt{1+\frac{9}{4}x}\,dx=\frac{4}{9}\cdot\frac{2}{3}\left(1+\frac{9}{4}x\right)^{\frac{3}{2}}\Bigg|_0^1=$$

$$=\frac{8}{27}\left(\frac{13}{8}\sqrt{13}-1\right).=\frac{8}{27}\left(\frac{13}{8}\sqrt{13}-1\right).$$

16) Mərkəzi koordinat başlanğıcında və radiusu R olan kürənin həcmini hesablayın.

Həlli: Belə kürə, tənliyi $y=+\sqrt{R^2-x^2},-R\le x\le R$ olan R radiuslu yarımçevrənin Ox oxu ətrafında fırlanmasından alınır. Beləliklə,

$$V=\pi\int_{a}^{b}y^2dx=\pi\int_{-R}^{R}(R^2-x^2)dx=\pi\left(R^2x-\frac{x^3}{3}\right)\Bigg|_{-R}^{R}=\frac{4}{3}\pi R^3$$

17) $y^2=2x$ parabolasının Ox oxu ətrafında fırlanmasından alınan paraboloidin $0\le x\le 4$ parçasına uyğun hissəsinin sahəsini hesablayın.

Həlli: $y=\sqrt{2x}$, $y'=\frac{1}{\sqrt{2x}}$ olduğuna görə alarıq:

$$S=2\pi\int_a^b y\sqrt{1+(y')^2}\,dx=2\pi\int_0^4\sqrt{2x}\sqrt{1+\frac{1}{2x}}\,dx=$$

$$=\int_0^4\sqrt{2x+1}\,dx=2\pi\cdot\frac{1}{3}(2x+1)^{\frac{3}{2}}\Big|_0^4=\frac{2\pi}{3}(27-1)=17\frac{1}{3}\pi.$$

18) $x=a\cos t,\ y=a\sin t$ çevrəsinin birinci kvadratında yerləşən qövsünün ağırlıq mərkəzinin koordinatlarını tapın.

Həlli: Burada

$$l=\frac{\pi a}{2},\ 0\le t\le\frac{\pi}{2},\ x_t'=-a\sin t,\quad y_t'=a\cos t$$

$$dl=\sqrt{(x_t')^2+(y_t')^2}\,dt=\sqrt{a^2\sin^2 t+a^2\cos^2 t}=a\,dt$$

olduğuna görə alırıq:

$$x_c=\frac{1}{l}\int_0^{\frac{\pi}{2}}x\,dl=\frac{2}{\pi a}\int_0^{\frac{\pi}{2}}a\cos t\cdot a\,dt=\frac{2a}{\pi}\sin t\Big|_0^{\frac{\pi}{2}}=\frac{2a}{\pi}$$

$$y_c=\frac{1}{l}\int_0^{\frac{\pi}{2}}y\,dl=\frac{2}{\pi a}\int_0^{\frac{\pi}{2}}a\sin t\cdot a\,dt=-\frac{2a}{\pi}\cos t\Big|_0^{\frac{\pi}{2}}=\frac{2a}{\pi}.$$

19) $x=a\cos t,\ y=b\sin t$ ellipsinin birinci kvadratda yerləşən qövsü ilə məhdud olan fiqurun ağırlıq mərkəzinin koordinatlarını tapın.

Həlli:

$$S=\frac{1}{4}\pi ab,\ 0\le t\le\frac{\pi}{2},\quad x_t'=-a\sin t,\ y_t'=b\cos t$$

olduğuna görə alırıq:

$$x_c = \frac{1}{s}\int_a^b xydx = \frac{4}{\pi ab}\int_{\frac{\pi}{2}}^{0} a\cos t \cdot b\sin t(-a\sin t)dt =$$

$$= \frac{4a^2b}{\pi ab}\int_0^{\frac{\pi}{2}} \sin^2 t\cos t dt = \frac{4a}{\pi}\cdot\frac{1}{3}\sin^3 t\Big|_0^{\frac{\pi}{2}} = \frac{4a}{3\pi},$$

$$y_c = \frac{1}{2S}\int_0^b y^2 dx = \frac{2}{\pi ab}\int_{\frac{\pi}{2}}^{0} b^2\sin^2 t(-a\sin t)dt =$$

$$= \frac{2ab^2}{\pi ab}\int_{\frac{\pi}{2}}^{0}(1-\cos^2 t)d\cos t = \frac{2b}{\pi}\left(\cos t - \frac{1}{3}\cos^3 t\right)\Bigg|_{\frac{\pi}{2}}^{0} = \frac{4b}{3\pi}.$$

20) $\int_0^{+\infty} xe^{-x^2}dx$ inteqralını hesablayın.

Həlli:

$$\int_0^{+\infty} xe^{-x^2}dx = \lim_{b\to+\infty}\int_0^b xe^{-x^2} = -\lim_{b\to+\infty}\frac{1}{2}e^{-x^2}\Big|_0^b =$$

$$= \lim_{b\to+\infty}\left(\frac{1}{2}-\frac{1}{2}e^{-b^2}\right) = \frac{1}{2}.$$

21) $\int_1^{+\infty}\frac{dx}{x^\alpha}$ inteqralının yığılmasını araşdırın.

Həlli: $\alpha \neq 1$ olduqda $\int_1^b \frac{dx}{x^\alpha} = \frac{1}{1-\alpha}x^{1-\alpha}\Big|_1^b = \frac{1}{1-\alpha}\left(b^{1-\alpha}-1\right)$ olduğundan $\int_1^{+\infty}\frac{dx}{x^\alpha} = \lim_{b\to+\infty}\frac{1}{1-\alpha}\left(b^{1-\alpha}-1\right)$. Beləliklə,

$\alpha > 1$ olduqda $\int\limits_1^{+\infty} \frac{dx}{x^\alpha} = \frac{1}{\alpha - 1}$, yə'ni inteqral yığılır.

$\alpha < 1$ olduqda $\int\limits_1^{+\infty} \frac{dx}{x^\alpha} = +\infty$, yə'ni inteqral dağılır.

$\alpha = 1$ olduqda $\int\limits_1^{+\infty} \frac{dx}{x^\alpha} = \ln x \Big|_1^{+\infty} = +\infty$, inteqral dağılır.

22) $\int\limits_0^1 \frac{dx}{\sqrt{1-x}}$ inteqralını hesablayın.

Həlli:

$$\int\limits_0^1 \frac{dx}{\sqrt{1-x}} = \lim_{\varepsilon \to 0} \int\limits_0^{1-\varepsilon} \frac{dx}{\sqrt{1-x}} = -2\lim_{\varepsilon \to 0} \sqrt{1-x}\Big|_0^{1-\varepsilon} =$$
$$= -2\lim_{\varepsilon \to 0}\left(\sqrt{1-1+\varepsilon} - 1\right) = 2.$$

23) $\int\limits_a^b \frac{dx}{(b-x)^\alpha}$ inteqralın yığılmasını araşdırın.

Həlli: $\alpha \neq 1$ olduqda

$$\int\limits_a^b \frac{dx}{(b-x)^\alpha} = \lim_{\varepsilon \to 0} \int\limits_a^b \frac{dx}{(b-x)^\alpha} = -\frac{1}{1-\alpha} \lim_{\varepsilon \to 0} (b-x)^{1-\alpha}\Big|_a^{b-\varepsilon} =$$
$$= \frac{1}{\alpha - 1} \lim_{\varepsilon \to 0} \varepsilon^{1-\alpha} + \frac{1}{1-\alpha}(b-a)^{1-\alpha}.$$ Beləliklə,

$\alpha < 1$ olduqda, $\lim\limits_{\varepsilon \to 0} \varepsilon^{1-\alpha} = 0$ olduğuna görə

$$\int\limits_a^b \frac{dx}{(b-x)^\alpha} = \frac{1}{1-\alpha}(b-a)^{1-\alpha}$$, yə'ni inteqral yığılır. $\alpha > 1$ olduqda

$\lim\limits_{\varepsilon\to 0} \varepsilon^{1-\alpha} = \infty$ olduğuna görə $\int\limits_a^b \frac{dx}{(b-x)^\alpha} = \infty$, yə'ni inteqral dağılır. $\alpha = 1$ olduqda isə

$$\lim_{\varepsilon\to 0}\int\limits_a^b \frac{dx}{b-x} = -\lim_{\varepsilon\to 0}\ln(b-x)\Big|_a^{b-\varepsilon} = -\lim_{\varepsilon\to 0}\ln\varepsilon + \ln(b-a) = \infty,$$

inteqral dağılır.

24) Çalışma 1-ni 13-cü misalınm həlli: u=arctgx, $du = \frac{1}{1+x^2}, dV = x, V = \frac{x^2}{2}$ qəbul etsək alarıq:

$$\int xarctgxdx = \frac{x^2}{x}arctgx - \frac{1}{2}\int\frac{x^2}{1+x^2}dx =$$

$$= \frac{x^2}{2}arctgx - \frac{1}{2}\int dx + \frac{1}{2}\int\frac{dx}{1+x^2} =$$

$$= \frac{x^2}{2}arctgx - \frac{x}{2} + \frac{1}{2}arctgx + c = \frac{x^2+1}{2}arctgx - \frac{x}{2} + c$$

25) Çalışma 1-in 15-ci misalının həlli:

$$u = 5-3x, du = -3dx, dV = cos\,5x, V = \frac{1}{5}sin\,5x$$

qəbul etsək alarıq:

$$\int(5-3x)cos\,5xdx = \frac{5-3x}{5}sin\,5x + \frac{3}{5}\int sin\,5xdx =$$

$$= \frac{5-3x}{5}sin\,5x - \frac{3}{25}cos\,5x + c$$

26) Çalışma 2-nin 8-ci misalının həlli:

$u = 5 - 7x^2, du = -14x, dV = \cos x dx, V = \sin x$ qəbul etsək alarıq:

$$\int_0^{2\pi} (5-7x^2)\cos x dx = (5-7x^2)\sin x \Big|_0^{2\pi} + 14\int_0^{2\pi} x \sin x dx =$$

$$=-14\int_0^{2\pi} x d\cos x = -14x\cos x \Big|_0^{2\pi} + 14\int_0^{2\pi} \cos x dx = -28\pi +$$

$$+14\sin x \Big|_0^{2\pi} = -28\pi.$$

27) Çalışma 2-nin 15-ci misalının həlli:

$$\int_1^{e^2} \frac{\ln^2 x}{x} dx = \int_1^{e^2} \ln^2 x d\ln x = \frac{1}{3}\ln^3 x \Big|_1^{e^2} = \frac{8}{3}$$

28) Çalışma 3-ün 5-ci misalının həlli:

$$\int \frac{x}{1+x^4} dx = \frac{1}{2}\int \frac{dx^2}{1+(x^2)^2} = \frac{1}{2} arctgx^2 + c$$

29) Çalışma 3-ün 14-cü misalının həlli:

$$\int \frac{2\cos x + 3\sin x}{(2\sin x - 3\cos x)^3} = \int \frac{d(2\sin x - 3\cos x)}{(2\sin x - 3\cos x)^3} =$$

$$= -\frac{1}{2(2\sin x - 3\cos x)^2} + c$$

30) Çalışma 4-ün 11-ci misalının həlli:

$$\int\frac{dx}{x^2-4x+3}=\int\frac{dx}{(x-3)(x-1)}=\frac{1}{2}\int\left(\frac{1}{x-3}-\frac{1}{x-1}\right)dx=$$

$$=\frac{1}{2}\int\frac{dx}{x-3}-\frac{1}{2}\int\frac{dx}{x-1}=\frac{1}{2}ln\left|\frac{x-3}{x-1}\right|+c$$

31) Çalışma 4-ün 13-cü misalının həlli:

$$x^2=t, 2xdx=dt, xdx=\frac{1}{2}dt$$

əvəz etsək alarıq:

$$\int\frac{(2x^2+3)xdx}{x^4+x^2+1}=\frac{1}{2}\int\frac{(2t+3)dt}{t^2+t+1}=\frac{1}{2}\int\frac{(2t+1)+2}{t^2+t+1}=$$

$$=\frac{1}{2}\int\frac{2t+1}{t^2+t+1}dt+\int\frac{dt}{t^2+t+1}=\frac{1}{2}ln(t^2+t+1)+$$

$$+\int\frac{d(t+\frac{1}{2})}{(t+\frac{1}{2})^2+\left(\frac{\sqrt{3}}{2}\right)^2}=\frac{1}{2}ln(t^2+t+1)+$$

$$+\frac{2}{\sqrt{3}}arctg\frac{t+\frac{1}{2}}{\frac{\sqrt{3}}{2}}+c=\frac{1}{2}ln(x^4+x^2+1)+\frac{2}{\sqrt{3}}arctg\frac{2x^2+1}{\sqrt{3}}+c$$

32) Çalışma 5-in 1-ci misalının həlli:

$$\int\frac{dx}{x-\sqrt{x^2-1}}=\int(x+\sqrt{x^2-1})dx=\frac{x^2}{2}+\int\sqrt{x^2-1}dx=$$

$=\frac{x^2}{2}+y$, burada $y=\int\sqrt{x^2-1}dx$. y-ni hissə-hissə inteqrallasaq alarıq:

$$y=\int\sqrt{x^2-1}dx=x\sqrt{x^2-1}-\int\frac{x^2}{\sqrt{x^2-1}}dx=x\sqrt{x^2-1}-$$

$$-\int\sqrt{x^2-1}+\int\frac{dx}{\sqrt{x^2-1}}=x\sqrt{x^2-1}-y+ln\left|x+\sqrt{x^2-1}\right|.$$

Buradan $2y=x\sqrt{x^2-1}+ln\left|x+\sqrt{x^2-1}\right|$.

Beləliklə,

$$\int\frac{dx}{x-\sqrt{x^2-1}}=\frac{x^2}{2}+\frac{x}{2}\sqrt{x^2-1}-\frac{1}{2}ln\left|x+\sqrt{x^2-1}\right|+c$$

33) Çalışma 5-in 15-ci misalının həlli:

$\sqrt{x^2+1}=t$ əvəz etsək alarıq $x^2=t^2-1, xdx=tdt$

$$\int\frac{x^3dx}{\sqrt{x^2+1}}=\int\frac{(t^2-1)tdt}{t}=\int(t^2-1)dt=t\left(\frac{t^2}{3}-1\right)+c=$$

$$=\frac{x^2-2}{3}\sqrt{x^2+1}+c.$$

34) Çalışma 6-nın 4-cü misalının həlli:

x=sin$t$ əvəz edək. Onda dx=2cos$t$dt, x=0 olduqda, t=0, x=2 olduqda t=$\frac{\pi}{2}$. Beləliklə,

$$\int_0^2\sqrt{4-x^2}dx=\int_0^{\frac{\pi}{2}}\sqrt{4-4sin^2t}\,2cos\,tdt=4\int_0^{\frac{\pi}{2}}cos^2tdt=$$

12) Anbardakı məhsulların 20%-i birinci fabrikdə, 46%-i ikinci fabrikdə, 34%-i isə üçüncü fabrikdə hazırlanmışdır. Bu fabriklərin buraxdığı məhsulların uyğun olaraq 3%,2% və 1%-i zay olur. Təsadüfi götürülmüş hər hansı bir məhsulun zay olması ehtimalını tapın.
13) 12-cu məsələnin şərtlərinə əsasən, zay məhsulun birinci fabrikdə hazırlanması ehtimalını tapın.
14) 52 oyun kartını ixtiyarı olaraq iki hissəyə böldükdə, hər bir hissədə 13 qara və 13 qırmızı kartın olması ehtimalı tapın.
15) Üç oyun zərini atdıqda yuxarı düşən üzdə xallar cəminin 11 olması ehtimalını tapın.
16) Tələbə proqramın 25 sualından 20-ni bilir. Tələbənin iki suala cavab verməsi ehtimalını tapın.
17) Qrupda 18 oğlan və 22 qız var. Oğlanların 25% qızların isə 5% idmançıdır. Təsadüfi seçilmiş uşağın idmançı oğlan olması ehtimalını tapın.

Çalışma 2. Asılı olmayan sınaqlarda hadisələrin ehtimalını tapın.

1) 500 səhifədən ibarət kitabda 50 səhv buraxılmışdır. Təsadüfi açılan səhifədə heç olmasa 3 səhv olması ehtimalını tapın.
2) Fabrikdə hazırlanmış məhsulun zay olması ehtimalı 0,6-dır. 2400 məhsuldan 1400-nün zay olması ehtimalını tapın.
3) Asılı olmayan sınaqların hər birində hadisənin baş vermə ehtimalı 0,9-dur. 100 sınaqda hadisənin ən azı 75 və ən çoxu 90 dəfə başverməsi ehtimalını tapın.

4) Asılı olmayan sınaqların hər birində hadisənin başvermə ehtimalı 0,51-dır. 100 sınaqda hadisənin 50 dəfə başvermə ehtimalını tapın.
5) Asılı olmayan sınaqların hər birində hadisənin başverməsi ehtimalı 0,8-dir. 144 sınaqda hadisənin 120 dəfə başvermə ehtimalını tapmalı.
6) Asılı olmayan sınaqların hər birində hadisənin başvermə ehtimalı 0,8-dir. Neçə sınaq aparmaq lazımdır ki, hadisənin başverməsinin nisbi tezliyini onun 0,6826 ehtimalından meylinin 0,02-dən çox olmadığını gözləmək mümkün olsun.
7) Asılı olmayan sınaqların hər birində hadisənin başvermə ehtimalı 0,2-dir. 800 sınaq aparılmışdır. Hadisənin başverməsinin nisbi tezliyinin onun ehtimalından ən çoxu 0,04 qədər fərqlənmə ehtimalını tapın.
8) Atıcının hədəfi vurma ehtimalı 0,3-dür. 30 atəşdən 8-nin hədəfə dəymə ehtimalını tapın.
9) Dəzgahda hazırlanan detalların 40%-i əla növdür. İxtiyari götürülmüş 26 detaldan yarısının əla növ olma ehtimalını tapın.
10) Müəyyən sınaqlar aparılmış və hər sınaqda hadisənin başvermə ehtimalı 0,85-dir. Hadisənin başvermə tezliyi ilə onun ehtimalı fərqinin 0,01 ədədindən kiçik olma ehtimalının 0,99 olması üçün nə qədər sınaq aparmaq lazımdır.
11) Fabrikin istehsal etdiyi məhsulun 70%-i əla növdür. 1000 dəst məhsul içərisindəki əla növ məhsulların 652 ilə, 760 arasına düşmə ehtimalını tapın.
12) Sexdə hazırlanmış detalın zay olma ehtimalı 0,005-dir. 10000 detaldan ibarət partiyada 40 detalın zay olması ehtimalını tapın.
13) Göldən tutulan 1000 balığı nişanlayıb, yenidən gölə buraxdılar. Bu göldə nə qədər balıq olmalıdır ki, tutulan 150 balıqdan 10 dənəsinin nişanı olma ehtimalı ən böyük olsun.

14) 500 nəfərdən 5 nəfərin eyni gündə anadan olma ehtimalını tapın.

15) 300 sınaqdan ibarət olan seriyada A hadisəsinin başvermə tezliyinin, onun $p=\frac{1}{6}$ ehtimalından meylinin 0,01-dən kiçik olması hadisəsinin ehtimalını tapın.

16) Oyun zəri 10 dəfə atılmışdır. Yuxarı düşən üzündə rəqəmin 3 dəfə 6 düşməsi ehtimalını tapın.

17) Qutuda 6 ağ və 9 qara kürəcik var. Qutudan çıxarılan bir kürəcik nişanlanıb yenidən qutuya qaytarılır. Bu proses üç dəfə təkrar olunur. Çıxarılan üç kürəcikdən ikisinin ağ olması ehtimalını tapın.

Çalışma 3. Təsadüfi kəmiyyətlərin ədədi xarakteristikalarını hesablayın.

1) Asılı olmayan X və Y diskret təsadüfi kəmiyyətləri verilmişdir. X dəmir pulu 2 dəfə atdıqda gerb üzünün düş-məsinin sayıdır, Y oyun zərini bir dəfə atdıqda yuxarı düşən xalların sayıdır.
   1. X-Y təsadüfi kəmiyyətinin paylanmasını tapın.
   2. X+Ytəsadüfi kəmiyyətinin paylanmasını tapın.
   3. XY təsadüfi kəmiyyətinin paylanmasını tapın.
   4. X və Y təsadüfi kəmiyyətlərinin riyazi gözləməsi və dispersiyasını tapın.
   5. X+Y təsadüfi kəmiyyətinin riyazi gözləməsini və dispersiyasını tapın.
   6. XY təsadüfi kəmiyyətinin riyazi gözləməsi və dispersiyasını tapın.

2) Eyni vaxtda iki oyun zəri atılır. Zərlərin yuxarı düşən üzündə ki, xallar cəminin paylanmasını tapın.

3) X təsadüfi kəmiyyəti m=0,1,…,N mümkün qiymətlərini $P(x=m)=\dfrac{1}{N+1}$ ehtimalı ilə aldıqda ona $[0,N]$ parçasında müntəzəm paylanmış təsadüfi kəmiyyət deyilir. X kəmiyyətinin: 1. Riyazi gözləməsini tapın. 2. Dispersiyasını tapın.

4) X təsadüfi kəmiyyətinin sıxlıq funksiyası

$$P(x)=\begin{cases}\dfrac{1}{b-a}, x\in[a,b]\\ 0, x\in[a,b]\end{cases}$$

olduqda ona müntəzəm paylanmış kəsilməz təsadüfi kəmiyyət deyilir $[a,b]$ parçasında müntəzəm paylanmış X təsadüfi kəmiyyətinin: 1. Riyazi gözləməsini tapın. 2. Dispersiyasını tapın.

5) X təsadüfi kəmiyyəti m=0,1,2,... mümkün qiymətlərini $P(x=m)=(1-p)p^{m}, 0<p<1$ ehtimalı ilə aldıqda ona həndəsi qanunla paylanmış təsadüfi kəmiyyət deyilir. X kəmiyyətinin: 1. Riyazi gözləməsini tapın. 2. Dispersiyasını tapın.

6) X təsadüfi kəmiyyətinin sıxlıq funksiyası

$$P(x)=\begin{cases}\lambda e^{-\lambda x}, x>0\\ 0<x\le 0\end{cases}$$

olduqda ona üstlü qanunla paylanmış təsadüfi kəmiyyət deyilir. X kəmiyyətinin: 1. Riyazi gözləməsini tapın. 2. Dispersiyasını tapın.

7) X təsadüfi kəmiyyəti $m=0,1,..n$ mümkün qiymətlərini

$$P(X=m)=\frac{\mu^{m}}{m!}e^{-\mu}, \mu>0$$

ehtimalı ilə aldıqda ona Puasson qanunu ilə paylanmış diskret təsadüfi kəmiyyət deyilir.

X kəmiyyətinin: 1. Riyazi gözəlməsini tapın.2. Dispersiyasını tapın.

8) X təsadüfi kəmiyyətinin sıxlıq funksiyası

$$P(x)=\frac{1}{\sigma\sqrt{2\pi}}e^{-\frac{(x-a)^2}{2\sigma^2}}, \ -\infty<x<\infty, \sigma>0$$

şəklində olduqda, ona normal qanun ilə paylanmış təsadüfi kəmiyyət deyilir. X kəmiyyətinin: 1. Riyazi gözləməsini tapın. 2. Dispersiyasını tapın.

9) X təsadüfi kəmiyyəti a və σ parametrli normal paylanma qanununa malik olduqda $Y=e^X$ funksiyasının riyazi gözləməsini tapın.

10) X təsadüfi kəmiyyətinin sıxlıq funksiyası

$$F(x)=\begin{cases} 0, & x \le 0,\ \ x>\pi \ \text{олдугда}, \\ -\dfrac{1}{2}\sin x, & 0<x\le \pi \ \text{олдугда}, \end{cases}$$

şəklində verilmişdir. 1. X kəmiyyətinin riyazi gözləməsini tapın. 2. X kəmiyyətinin dispersiyasını tapın.

11) Dəmir pulu n dəfə atdıqda gerb üzünün yuxarı düşməsi sayını göstərən X təsadüfi kəmiyyətinin paylanma sırasını yazın: 1. Riyazi gözləməsini tapın. 2. Dispersiyasını tapın.

12) Qutuda 100 kürə var, onlardan 25-i ağdır. Qutudan ardıcıl olaraq iki kürə çıxarılır, X_1-birinci, X_2-ikinci sınaqda çıxarılan ağ kürələrin sayıdır. X_1,X_2 və $X_1 \cdot X_2$ təsadüfi kəmiyyətlərin riyazi gözləməsini tapın.

13) Atıcı 30 güllə ilə hər birində üç güllədən çox sərf etmədən 10 hədəfə atəş açır. Hər atəşdə hədəfin vurulması ehtimalının 0,5-ə bərabər olduğunu fərz edərək güllələrin sayının riyazi gözləməsini (10 hədəfə sərf olunan güllələrin orta sayını) tapın.

14) Qutuda 30 kürə var, onlardan 6-sı ağdır. Qutudan təsadüfi olaraq 8 kürə çıxarılır. Çıxarılan ağ kürələrin X sayının riyazi gözləməsini tapın.

15) Oyun zərini üç və dörd dəfə atdıqda yuxarı düşən üzündəki xallar sayının cəminin paylanma mərkəzinin və orta kvadratik meylini tapın.

16) X təsadüfi kəmiyyətinin sıxlıq funksiyası $P(x)=|x|e^{-x^2}$ şəklində verildikdə, onun aldığı qiymətin (0,1) intervalına düşmə ehtimalını tapın.

17) Oyun zərini bir dəfə atdıqda yuxarı düşən üzündə xalların X sayının paylanma mərkəzini və orta kvadratik meylini tapın.

Nümunəvi həllər

1) Dəmir pulu iki dəfə atdıqda, heç olmasa birində gerb üzünün düşmə ehtimalını tapın.

Həlli: Aşağıdakı hallar ola bilər 1. Gerb və gerb; 2. Gerb və şəbəkə; 3. Şəbəkə və gerb; 4.şəbəkə və şəbəkə; onda $m=3$ və $n=4$ olduğundan alarıq:

$$P=\frac{m}{n}=\frac{3}{4}.$$

2) Eyni formalı üç qutunun birincisində 3 ağ və 7 qara, ikincisində 4 ağ və 16 qara, üçüncüsündə 15 ağ və 15 qara kürə vardır. Bu qutuların biri təsadüfi götürülür və ondan bir kürə çıxarılır. Çıxarılan kürənin ağ olması ehtimalını tapın.

Həlli: Birinci qutunun götürülməsi hadisəsi A_1, ikinci qutunun götürülməsi hadisəsi A_2, üçüncü qutunun götürülməsi hadisəsi A_3 və çıxarılan kürənin ağ olması hadisəsi B olsun. Qutuların götürülməsi eyni ehtimallı hadisələr olduğundan

$$P(A_1)=P(A_2)=P(A_3)=\frac{1}{3}.$$

olar. A_1, A_2, A_3 hadisələrinin başverməsi şərtində B hadisəsinin şərti ehtimalı uyğun olaraq

$$P_{A_1}(B)=\frac{3}{10}=0{,}3, \quad P_{A_2}(B)=\frac{4}{20}=0{,}2, \quad P_{A_3}(B)=\frac{15}{30}=0{,}5,$$

olar. Onda tam ehtimal düsturuna əsasən, taparıq:

$$P(B)=\frac{1}{3}\cdot 0{,}3+\frac{1}{3}\cdot 0{,}2+\frac{1}{3}\cdot 0{,}5=\frac{1}{3}(0{,}3+0{,}2+0{,}5)=\frac{1}{3}\approx 0{,}33.$$

3) Eyni formalı iki qutunun birincisində 4 ağ və 6 qara, ikincisində 6 ağ və 14 qara kürə vardır. Bu qutuların biri təsadüfən götürülür və

...dan bir ağ kürə çıxarılır. Kürənin birinci qutudan çıxarılması hadisəsinin ehtimalını tapın.

Həlli: Birinci qutunun götürülməsi hadisəsi A_1, ikinci qutunun götürülməsi hadisəsi A_2, və çıxarılan kürənin ağ olması hadisəsi B olsun. Qutuların götürülməsi eyni ehtimalli hadisələr olduğundan

$$P(A_1) = P(A_2) = \frac{1}{2}$$

olar. A_1, A_2 hadisələrinin başverməsi şərtində B hadisəsinin şərti ehtimalı uyğun olaraq

$$P_{A_1}(B) = \frac{4}{10} = 0{,}4, \qquad P_{A_2}(B) = \frac{6}{20} = 0{,}3$$

olar. Onda tam ehtimal düsturuna görə:

$$P(B) = \frac{1}{2}\cdot 0{,}4 + \frac{1}{2}\cdot 0{,}3 = \frac{1}{2}\cdot 0{,}7 = 0{,}35$$

Beləliklə, Bayes düsturuna əsasən taparıq:

$$P_B(A) = \frac{P(A_1)\cdot P_{A_1}(B)}{P(B)} = \frac{\frac{1}{2}\cdot 0{,}4}{0{,}35} = \frac{0{,}2}{0{,}35} = \frac{4}{7}.$$

4) Qutuda 9 ağ və bir qara kürə vardır. Bu qutudan təsadüfən 3 kürə çıxarılır. Çıxarılan kürələrin hamısının ağ olması ehtimalını tapın.

Həlli: A hadisəsi üçün mümkün halların sayı $n = C_{10}^3$ və əlverişli halların sayı $m = C_9^3$ olar. Onda

$$P(A) = \frac{C_9^3}{C_{10}^3} = \frac{9!}{3!\cdot 6!}\cdot\frac{3!\cdot 7!}{10!} = \frac{7}{10} = 0{,}7.$$

5) Dəmir pulu 10 dəfə atdıqda gerb üzünün 5 dəfə düşməsi ehtimalını tapın.

Həlli:

$$p = \frac{5}{10} = \frac{1}{2}, \quad q = 1 - p = 1 - \frac{1}{2} = \frac{1}{2}$$

$$P_{10}(5)=C_{10}^{5}\left(\frac{1}{2}\right)^{5}\left(\frac{1}{2}\right)^{10-5}=\frac{10!}{5!\cdot 5!}\left(\frac{1}{2}\right)^{10}=\frac{252}{1024}\approx 0,25$$

6) $n=100,\ m=500$ və $p=\dfrac{1}{2}$ olduqda $P_2(500)$ ehtimalını hesablayın.

Həlli:

$$x=\frac{m-np}{\sqrt{npq}}=\frac{500-\frac{1}{2}\cdot 1000}{\sqrt{1000\cdot\frac{1}{4}}}=0$$

olduğundan Laplasın limit teoreminə əsasən, alarıq:

$$P_2(500)\approx\frac{1}{\sqrt{2\pi\cdot 1000\cdot\frac{1}{4}}}e^{0}\approx 0,2523$$

7) $n=100,\ 20\le m\le 1000$ və $p=0,2$ olduqda $P(20\le m\le 100)$ ehtimalını hesablayın.

Həlli:

$$\sqrt{npq}=\sqrt{100\cdot 0,2\cdot 0,8}=4$$

$$x_{20}=\frac{20-100\cdot 0,2}{4}=0 \text{ və } x_{100}=\frac{100-100\cdot 0,2}{4}=20$$

olduğundan Laplasın inteqral teoreminə əsasən alarıq:

$$P(20\le m\le 100)\approx\Phi(20)-\Phi(0)=0,500-0=0,5$$

8) Müəyyən sınaqlar aparılmış və hər sınaqda A hadisəsinin başvermə ehtimalı 0,36 bərabərdir. A hadisəsinin başvermə tezliyi ilə onun ehtimalı fərqinin 0,01 ədədindən kiçik olması ehtimalının 0,99 olması üçün nə qədər sınaq aparmaq lazımdır?

Həlli: $p=0,36,\ \varepsilon=0,01,\ P_x=0,99,\ q=1-0,36=0,64$

Olduğundan nisbi tezliyin ehtimaldan meylinin qiymətləndirilməsi düsturuna əsasən

$$2\Phi\left(0,01\sqrt{\frac{n}{0,36\cdot 0,64}}\right)=0,99$$

olar. Buradan $\Phi(x)$ funksiyasının qiymətləri cədvəlinə əsasən alarıq:

$$0{,}01\sqrt{\frac{n}{0{,}36\cdot 0{,}64}}=2{,}58$$

və ya

$$n=\frac{(2{,}58)^2}{(0{,}01)^2}\cdot 0{,}36\cdot 0{,}64=15335$$

9) $n=200,\ p=0{,}005$ olduqda $P_{200}(2)$ hesablayın.

Həlli: $\mu=np=200\cdot 0{,}005=1$ olduğundan Puasson düsturuna əsasən alarıq:

$$P_{200}(2)\approx\frac{1!}{2!}e^{-1}=\frac{1}{2}e^{-1}=0{,}184$$

10) Binomial qanunla paylanmış diskret təsadüfi X kəmiyyətinin riyazi gözləməsi və dispersiyasını tapın.

Həlli: Tə'rifə görə alarıq:

$$MX=\sum_{k=0}^{n}x_k p_k=\sum_{k=0}^{n}kp(X=k)=\sum_{k=1}^{n}kC_n^k p^k(1-p)^{n-k}=$$

$$=np\sum_{k=1}^{n}C_{n-1}^{k-1}p^{k-1}(1-p)^{n-k}=np(p+(1-p))^{n-1}$$

$$MX=np$$

$$DX=\sum_{k=1}^{n}DX_k=\sum_{k=1}^{n}(MX_k^2-(MX_k)^2)=\sum_{k=1}^{n}(p-p^2)=\sum_{k=1}^{n}pq$$

$$DX=npq.$$

11) Çalışma 1-in 2-ci məsələnin həlli:
Mümkün olan halların sayı

$$n=C_{26}^2=\frac{26\cdot 25}{1\cdot 2}=13\cdot 25$$

və əlverişli halların sayı

$$m = C_{20}^{2} = \frac{20 \cdot 19}{1 \cdot 2} = 10 \cdot 19$$ olduğuna görə alarıq:

$$P = \frac{m}{n} = \frac{10 \cdot 19}{13 \cdot 25} = 0{,}58\,.$$

12) Çalışma 1-in 17-ci məsələnin həlli:
Uşaqların oğlan, qız və idmançı oğlan olması hadisələrini uyğun olaraq A, B və C ilə işarə edək. Onda

$$P(A) = \frac{18}{40}, P(B) = \frac{22}{40}, P_A(C) = 0{,}25, P_B(C) = 0{,}05$$

Buradan tam ehtimal və Bajes düsturlarına görə alarıq:

$$P(C) = P(A)P_A(C) + P(B)P_B(C) = \frac{18}{40}0{,}25 + \frac{22}{40}0{,}5 = 0{,}14\,.$$

$$P_C(A) = \frac{P(A)P_A(C)}{P(C)} = \frac{18}{40}0{,}25\frac{1}{0{,}14} = \frac{45}{56}.$$

13) Çalışma 2-nin 1-ci məsələsinin həlli:

n=500, P=$\frac{1}{500}$, $\mu = np = 0{,}1$ olduğundan təsadüfi açılan səhifədə buraxılan xətaların sayını m ilə işarə etsək Puasson düsturuna görə alarıq:

$$P_{500}(m) = \frac{(0{,}1)^m}{m!}e^{-0{,}1},$$

$$P_{500}(m \geq 3) = 1 - P_{500}(m < 3) = 1 - \sum_{m=0}^{2}\frac{(0{,}1)^m}{m!}e^{-0{,}1} =$$

$$= 1 - (P_{500}(0) = e^{-0{,}1} + P_{500}(1) = 0{,}1e^{-0{,}1} + P_{500}(2) = 0{,}005e^{-0{,}1}) =$$

$$= 1 - (1 + 0{,}1 + 0{,}005)e^{-0{,}1} = 1 - 1{,}105 \cdot 0{,}904837 = 1 - 0{,}999845 =$$

$$= 0{,}000165$$

14) Çalışma 2-nin 9-cu məsələsinin həlli:
P=0,4 n=26, m=13, q=1-0,4=0,6

Olduğundan Laplasın limit teoreminə və φ(x) funksiyasının qiymətləri cədvəlinə əsasən alarıq:

$$x=\frac{m-np}{\sqrt{npq}}=\frac{13-26\cdot 0{,}4}{\sqrt{26\cdot 0{,}4\cdot 0{,}6}}=\frac{2{,}6}{2{,}5}=1{,}04,\qquad \varphi(1{,}04)=0{,}2323$$

$$P_{26}(13)\approx\frac{\varphi(x)}{\sqrt{npq}}=\frac{0{,}2323}{2{,}5}=0{,}093$$

15) Çalışma 2-nin 10-cu məsələsinin həlli:

p=0,85; q=1-0,85=0,15; ε=0,01; P=0,99 olduğundan Laplasın inteqral teoreminə və Φ(x) funksiyasının qiymətləri cədvəlinə əsasən alarıq:

$$\Phi\left(0{,}01\sqrt{\frac{n}{pq}}\right)\approx 0{,}99,\qquad 0.01\sqrt{\frac{n}{pq}}=3;(0{,}01)^2\,\frac{n}{0{,}85\cdot 0{,}15}=9,$$

$$n\approx\frac{0{,}85\cdot 0{,}15\cdot 9}{(0{,}01)^2}=\frac{1{,}1475}{0{,}00001}=11475$$

16) Çalışma 2-nin 15-ci məsələsinin həlli:

$$p=\frac{1}{2};\varepsilon=0{,}01;\qquad \left|\frac{m}{300}-\frac{1}{6}\right|\le 0{,}01$$

və ya 47≤m≤53 olduğundan Laplasın inteqral teoreminə və Φ(x) funksiyasının qiymətləri cədvəlinə əsasən alarıq:

$$P(47\le m\le 53)\approx\Phi\left(\frac{53-300\frac{1}{6}}{\sqrt{300\cdot\frac{1}{6}\cdot\frac{5}{6}}}\right)-\Phi\left(\frac{47-300\frac{1}{6}}{\sqrt{300\frac{1}{6}\cdot\frac{5}{6}}}\right)=$$

$$=\Phi\left(\frac{18}{10\sqrt{15}}\right)-\Phi\left(-\frac{18}{10\sqrt{15}}\right)\approx\Phi(0{,}46)+\Phi(0{,}46)\approx 0{,}35$$

17) Çalışma 3-ün 4-cu məsələsinin həlli: tərifə görə alarıq

$$MX = \int_{-\infty}^{\infty} xP(x)dx = \int_a^b x\frac{dx}{b-a} = \frac{1}{b-a}\cdot\frac{1}{2}x^2 \Big|_a^b =$$

$$= \frac{1}{b-a}\cdot\frac{b^2-a^2}{2} = \frac{a+b}{2}$$

$$MX^2 = \int_a^b x^2\frac{dx}{b-a} = \frac{1}{3(b-a)}x^3 \Big|_a^b = \frac{b^3-a^3}{3(b-a)} = \frac{b^2+ab+a^2}{3}.$$

Onda

$$DX = \int_{-\infty}^{\infty}\left(x-\frac{a+b}{2}\right)^2 P(x)dx = \frac{1}{b-a}\int_a^b\left(x-\frac{a+b}{2}\right)^2 dx =$$

$$= \frac{b^2+ab+a^2}{3} - \frac{(a+b)^2}{4} = \frac{(b-a)^2}{12}$$

18) Çalışma 3-ün 6-cı məsələsinin həlli:
Tərifə görə alarıq:

$$MX = \int_{-\infty}^{\infty} xP(x)dx = \int_0^{\infty}\lambda xe^{-\lambda x}dx = -\int_0^{\infty} xde^{-\lambda x} =$$

$$= \int_0^{\infty} e^{-\lambda x}dx = \frac{1}{\lambda}.$$

$$DX = \lambda\int_0^{\infty} x^2e^{-\lambda x}dx - \frac{1}{\lambda^2} = \frac{2}{\lambda^2} - \frac{1}{\lambda^2} = \frac{1}{\lambda^2}.$$

19) Çalışma 3-ün 7-ci məsələsinin həlli:

$$MX=\sum_{m=0}^{\infty} mp(X=m)=\sum_{m=0}^{\infty}\frac{\mu^m}{m!}e^{-\mu}=\mu e^{-\mu}\sum_{m=1}^{\infty}\frac{\mu^{m-1}}{(m-1)!}=$$

$$=\mu e^{-\mu}\sum_{m=0}^{\infty}\frac{\mu^m}{m!}=\mu e^{-\mu}\cdot e^{\mu}=\mu.$$

Hesablamada $\sum_{m=0}^{\infty}\frac{\mu^m}{m!}=e^{\mu}$ bərabərliyindən istifadə olunmuşdur.

$$MX^2=M[X(x-1)+X]=MX(x-1)+MX=$$

$$=\sum_{m=0}^{\infty} m(m-1)\frac{\mu^m}{m!}e^{-\mu}+\mu=\mu^2 e^{-\mu}\sum_{m=2}^{\infty}\frac{\mu^{m-2}}{(m-2)!}+\mu=$$

$$=\mu^2 e^{-\mu}e^{\mu}+\mu=\mu^2+\mu.$$

$$DX=MX^2-(MX)^2=\mu^2+\mu-\mu^2=\mu.$$

20) Çalışma 3-ün 8-ci məsələsinin həlli:
Tərifə görə

$$MX=\int_{-\infty}^{\infty} xP(x)dx=\frac{1}{\sigma\sqrt{2\pi}}\int_{-\infty}^{\infty} xe^{-\frac{(x-a)^2}{2\sigma^2}}dx$$

olar. Burada $\frac{x-a}{\sigma}=t, x=a+\sigma t, dx=\sigma dt$ əvəzləməsini aparsaq alarıq:

$$MX=\frac{1}{\sigma\sqrt{2\pi}}\int_{-\infty}^{\infty}(a+\sigma t)e^{-\frac{t^2}{2}}\sigma dt=\frac{a}{\sqrt{2\pi}}\int_{-\infty}^{\infty} e^{-\frac{t^2}{2}}dt+$$

$$+\frac{\sigma}{\sqrt{2\pi}}\int_{-\infty}^{\infty} te^{-\frac{t^2}{2}}dt=\frac{a}{\sqrt{2\pi}}\sqrt{2\pi}=a.$$

Hesablamada $\int_{-\infty}^{\infty} e^{-\frac{t^2}{2}} = \sqrt{2\pi}$ bərabərliyindən (Puasson inteqralı) istifadə olunmuşdur.

$$DX = \int_{-\infty}^{\infty} (x-a)^2 \frac{1}{\sigma\sqrt{2\pi}} e^{-\frac{(x-a)^2}{2\sigma^2}} dx = \frac{\sigma^2}{\sqrt{2\pi}} \int_{-\infty}^{\infty} t^2 e^{-\frac{t^2}{2}} dt =$$

$$= \frac{\sigma^2}{\sqrt{2\pi}} \int_{-\infty}^{\infty} (-t) de^{-\frac{t^2}{2}} = \frac{\sigma^2}{\sqrt{2\pi}} (-t) e^{-\frac{t^2}{2}} \Big|_{-\infty}^{\infty} +$$

$$+ \frac{\sigma^2}{\sqrt{2\pi}} \int_{-\infty}^{\infty} e^{-\frac{t^2}{2}} dt = \frac{\sigma^2}{\sqrt{2\pi}} \sqrt{2\pi} = \sigma^2.$$

ƏLAVƏLƏR

Əsas düsturlar və münasibətlər

Xətti cəbr

1) Üçtərtibli determinant:

$$\Delta = \begin{vmatrix} a_{11} & a_{12} & a_{13} \\ a_{21} & a_{22} & a_{23} \\ a_{31} & a_{32} & a_{33} \end{vmatrix} = a_{11}a_{22}a_{33} + a_{12}a_{23}a_{31} + a_{21}a_{32}a_{13} -$$

$$- a_{13}a_{22}a_{31} - a_{12}a_{21}a_{33} - a_{23}a_{32}a_{11}.$$

2) Tərs matris: Üçtərtibli matrisin tərs matrisi

$$A^{-1} = \frac{1}{\Delta(A)} \begin{pmatrix} A_{11} & A_{21} & A_{31} \\ A_{12} & A_{22} & A_{32} \\ A_{13} & A_{23} & A_{33} \end{pmatrix}, \quad \Delta(A) \neq 0$$

düsturu ilə tapılır, burada A_{ij}, $a_{ij}(i=1,2,3;\ j=1,2,3)$ elementlərinin cəbri tamamlayıcısıdır.

3) Üçməchullu üç xətti tənliklər sistemi:

Belə tənliklər

$$\begin{cases} a_{11}x + a_{12}y + a_{13}z = b_1 \\ a_{21}x + a_{22}y + a_{23}z = b_2 \\ a_{31}x + a_{32}y + a_{33}z = b_3 \end{cases} \quad (1)$$

şəklindədir. Bu sistemin həlli $\Delta \neq 0$ olduqda Kramer düsturları

$$x = \frac{\Delta x}{\Delta}, y = \frac{\Delta y}{\Delta}, z = \frac{\Delta z}{z},$$

ilə tapılır, burada

$$\Delta = \begin{vmatrix} a_{11} & a_{12} & a_{13} \\ a_{21} & a_{22} & a_{23} \\ a_{31} & a_{32} & a_{33} \end{vmatrix} \neq 0, \Delta_x = \begin{vmatrix} b_1 & a_{12} & a_{13} \\ b_2 & a_{22} & q_{23} \\ b_3 & a_{32} & a_{33} \end{vmatrix},$$

$$\Delta_y = \begin{vmatrix} a_{11} & b_1 & a_{13} \\ a_{21} & b_2 & a_{23} \\ a_{31} & b_3 & a_{33} \end{vmatrix}, \Delta_z = \begin{vmatrix} b_1 & a_{12} & b_1 \\ b_2 & a_{22} & b_2 \\ b_3 & a_{32} & b_3 \end{vmatrix}.$$

Verilən sistemi $Ax=B$ matris şəklində yazmaq olar, burada

$$A = \begin{pmatrix} a_{11} & a_{12} & a_{13} \\ a_{21} & a_{22} & a_{23} \\ a_{31} & a_{32} & a_{33} \end{pmatrix}, \quad X = \begin{pmatrix} x \\ y \\ z \end{pmatrix}, \quad B = \begin{pmatrix} b_1 \\ b_2 \\ b_3 \end{pmatrix}.$$

$\Delta(A) \neq 0$ olduqda (1) sisteminin həlli $X=A^{-1}B$ olar ki, burada yenə də Kramer düsturlarını alarıq.

Analitik həndəsə

Vektorlar cəbri

1) $\bar{a}$ və $\bar{b}$ vektorlarının cəmi $\bar{a}+\bar{b}$ elə vektora deyilir ki, bu vektor $\bar{a}$ vektorunun başlanğıcından çıxıb $\bar{b}$ vektorunun sonunda qurtarsın: bu şərtlə ki, $\bar{b}$ vektoru $\bar{a}$ vektorunun sonuna tətbiq olunsun (paraleloqram qaydası).

2) $\bar{b}$ və $-\bar{a}$ vektorlarının cəminə $\bar{b}$ və $\bar{a}$ vektorlarının fərqi deyilir və $\bar{b}-\bar{a}$ ilə işarə olunur, burada $-\bar{a}$ vektoru $\bar{a}$ vektorunun əks vektorudur.

3) $\bar{a}$ vektorunun λ ədədinə $\lambda\bar{a}$ hasili elə vektora deyilir ki, onun uzunluğu $|\lambda||\bar{a}|$, istiqaməti isə $\lambda>0$ olduqda $\bar{a}$ ilə eyni, $\lambda<0$ olduqda isə $\bar{a}$ ilə əks olsun.

4) $\bar{a}_0 = \dfrac{\bar{a}}{|\bar{a}|}, (|\bar{a}_0| = 1)$ vektoruna $\bar{a}$ vektorunun ort (vahid) vektoru deyilir.

5) $\bar{a}$ və $\bar{b}$ vektorları kollineardır, əgər $\bar{b}=k\bar{a}$ (k-skalyardır)

6) $\bar{a}$, $\bar{b}$, $\bar{c}$ vektorları komplanardır, əgər $\bar{c} = k\bar{a} + l\bar{b}$ (k,l-skalyardır).

7) Düzbucaqlı (x,y) və polyar (ρ,φ) koordinatlar arasında əlaqə:

$$x = \rho\cos\varphi, y = \rho\sin\varphi, \rho = \sqrt{x^2 + y^2}, tg\varphi = \frac{y}{x}.$$

8) Düzbucaqlı (x,y,z) və silindrik (ρ,φ,z) koordinatlar arasında əlaqə:

$$x = \rho\cos\varphi, y = \rho\sin\varphi, z = z.$$

9) Düzbucaqlı (x,y,z) və sferik (ρ,φ,θ) koordinatlar arasında əlaqə:

$$x = \rho\sin\theta\cos\varphi, y = \rho\sin\theta\sin\varphi, z = \rho\cos\theta.$$

10) $\bar{a}$ vektorunun l oxu üzərində proyeksiyası

$$\Pi p_l\bar{a} = \bar{a}\cos\varphi, \varphi = (\bar{a},\hat{\ }l).$$

11) $\bar{a}$ və $\bar{b}$ vektorlarının skalyar hasili

$$(\bar{a},\bar{b}) = |\bar{a}||\bar{b}|\cos\varphi, \varphi = (\bar{a},\hat{\ }\bar{b}).$$

$\bar{a}$ və $\bar{b}$ vektorları ortonormaldır, əgər $(\bar{a},\bar{b}) = 0$. Əgər $\bar{a}(x_1,y_1,z_1)$ və $\bar{b}(x_2,y_2,z_2)$, onda

$$(\bar{a},\bar{b}) = x_1x_2 + y_1y_2 + z_1z_2.$$

Xüsusi halda $\bar{a} = \bar{b}$ olarsa,

$$|\bar{a}| = \sqrt{x_1^2 + y_1^2 + z_1^2}.$$

12) $\bar{a}$ və $\bar{b}$ vektorlarının vektorial hasili

$$\bar{c} = \bar{a}\times\bar{b}$$

vektorudur, burada $\bar{c}\perp\bar{a}, \bar{c}\perp\bar{b}, |\bar{c}| = |\bar{a}||\bar{b}|\sin\varphi$,

$\varphi = (\bar{a},\hat{\ }\bar{b}), \bar{a},\bar{b},\bar{c}$ üçlüyü sağ oriyentasiyalıdır. Əgər $\bar{a}(x_1,y_1,z_1)$ və $\bar{b}(x_2,y_2,z_2)$, onda

$$\bar{a}\times\bar{b}=\begin{vmatrix}\bar{i} & \bar{j} & \bar{k}\\ x_1 & y_1 & z_1\\ x_2 & y_2 & z_2\end{vmatrix}$$

burada $\bar{i},\bar{j},\bar{k}$ koordinat oxlarının ortlarıdır.

13) $\bar{a}$, $\bar{b}$, $\bar{c}$ vektorlarının qarışıq hasili $(\bar{a}\times\bar{b},\bar{c})$ ifadəsin deyilir. $|(\bar{a}\times\bar{b},\bar{c})|$ həmin vektorlar üzərində qurulmuş paral pipedin həcminə bərabərdir.

$$V=|(\bar{a}\times\bar{b},\bar{c})|.$$

Əgər $\bar{a}\,(x_1,y_1,z_1)$, $\bar{b}\,(x_2,y_2,z_2)$, $\bar{c}\,(x_3,y_3,z_3)$ onda

$$(\bar{a}\times\bar{b},\bar{c})=\begin{vmatrix}x_1 & y_1 & z_1\\ x_2 & y_2 & z_2\\ x_3 & y_3 & z_3\end{vmatrix}.$$

Müstəvi üzərində düz xətt

1) (x_1,y_1) və (x_2,y_2) nöqtələri arasındakı məsafə:

$$d=\sqrt{(x_2-x_1)^2+(y_2-y_1)^2}$$

2) (x_1,y_1) və (x_2,y_2) nöqtələri arasındakı parçanı λ nisbətində bölən nöqtənin koordinatları:

$$x=\frac{x_1+\lambda x_2}{1+\lambda},\ y=\frac{y_1+\lambda y_2}{1+\lambda}.$$

Xüsusi halda λ=1 olarsa, parçanı yarıya bölən (x,y) nöqtəsinin koordinatları:

$$x=\frac{x_1+x_2}{2},\ y=\frac{y_1+y_2}{2}.$$

3) Təpə nöqtələri (x_1,y_1) , (x_2,y_2) və (x_3,y_3) olan üçbucağın sahəsi:

$$S = \pm\frac{1}{2}((x_2 - x_1)(y_3 - y_1) - (x_3 - x_1)(y_2 - y_1)).$$

4) Düz xəttin vektorial tənliyi:

$$\bar{r} - \bar{r}_0 = t\bar{a}.$$

5) Düz xəttin parametrik tənliyi:

$$x = x_0 + tm, \quad y = y_0 + tn.$$

6) Düz xəttin kanonik tənliyi:

$$\frac{x - x_0}{m} = \frac{y - y_0}{n}.$$

7) Düz xəttin bucaq əmsallı tənliyi:

$$y = kx + b, \quad k = tg\varphi.$$

8) Verilmiş (x_0, y_0) nöqtəsindən keçən və bucaq əmsallı k olan düz xəttin tənliyi:

$$y - y_0 = k(x - x_0).$$

9) (x_1, y_1) və (x_2, y_2) nöqtələrindən keçən düz xəttin tənliyi:

$$\frac{x - x_1}{x_2 - x_1} = \frac{y - y_1}{y_2 - y_1}.$$

10) Düz xəttin parçalarla tənliyi:

$$\frac{x}{a} + \frac{y}{b} = 1.$$

11) Düz xəttin ümumi tənliyi:

$$Ax + By + C = 0, \; A^2 + B^2 \neq 0.$$

12) Düz xətt tənliyinin normallaşdırıcı vuruğu:

$$\mu = \frac{1}{\pm\sqrt{A^2 + B^2}}, (A^2 + B^2 > 0).$$

13) Bucaq əmsalları k_1 və k_2 olan iki düz xətt arasındakı bucaq:

$$tg\varphi = \frac{k_2 - k_1}{1 + k_1 k_2}.$$

Düz xətlərin paralellik şərti $k_1=k_2$: düz xətlərin perpendikulyarlıq şərti $k_2 = -\frac{1}{k_1}$.

14) (x_0,y_0) nöqtəsindən $Ax+By+C=0$ düz xəttinə qədər olan məsafə:

$$d = \frac{|Ax_0 + By_0 + C|}{\sqrt{A^2 + B^2}}.$$

Fəzada düz xətt və müstəvilər

1) (x_0,y_0,z_0) nöqtəsindən keçən və normal vektoru $\bar{n}(A,B,C) \neq 0$ olan müstəvinin tənliyi:

$$(\bar{r} - \bar{r}_0, \bar{n}) = 0$$

burada $\bar{r}(x,y,z)$ və $\bar{r}_0(x_0,y_0,z_0)$.

2) Müstəvinin ümumi tənliyi:

$$Ax+By+Cz+D=0. \quad (1)$$

3) Müstəvi tənliyinin normallaşdırıcı vuruğu:

$$\mu = \frac{1}{\pm\sqrt{A^2 + B^2 + C^2}}, (A^2 + B^2 + C^2 > 0).$$

4) (x_0,y_0,z_0) nöqtəsindən (1) müstəvisinə qədər olan məsafə:

$$d = \frac{|Ax_0 + By_0 + cz_0 + D|}{\sqrt{A^2 + B^2 + C^2}}.$$

5) Verilmiş üç (x_1,y_1,z_1), (x_2,y_2,z_2), (x_3,y_3,z_3) nöqtələrindən keçən müstəvi tənliyi:

$$\begin{vmatrix} x - x_1 & y - y_1 & z - z_1 \\ x_2 - x_1 & y_2 - y_1 & z_2 - z_1 \\ x_3 - x_1 & y_3 - y_1 & z_3 - z_1 \end{vmatrix} = 0.$$

6) Müstəvinin parçalarla tənliyi:

$$\frac{x}{a}+\frac{y}{b}+\frac{z}{c}=1,$$

burada, a,b,c müstəvinin koordinat oxlarından ayırdığı parçalardır.

7) $A_1x+B_1y+C_1+D_1=0$ və $A_2x+B_2y+C_2+D_2=0$ müstəviləri arasındakı bucaq:

$$\cos\varphi=\frac{A_1A_2+B_1B_2+C_1C_2}{\sqrt{A_1^2+B_1^2+C_1^2}\sqrt{A_2^2+B_2^2+C_2^2}}.$$

Müstəvilərin paralellik şərti:

$$\frac{A_1}{A_2}=\frac{B_1}{B_2}=\frac{C_1}{C_2}.$$

Müstəvilərin perpendikulyarlıq şərti:

$$A_1A_2+B_1B_2+C_1C_2=0.$$

8) Düz xəttin vektorial tənliyi:

$$\bar{r}-\bar{r}_0=t\bar{S},$$

burada $\bar{r}\,(x,y,z)$ və $\bar{r}_0(x_0,y_0,z_0)$ və $\bar{S}\,(m,n,p)$ istiqamətləndirici vektordur.

9) Düz xəttin kanonik tənliyi:

$$\frac{x-x_0}{m}=\frac{y-y_0}{n}=\frac{z-z_0}{p}.$$

10) $\frac{x-x_0}{m_1}=\frac{y-y_0}{n_1}=\frac{z-z_0}{p_1}$ və $\frac{x-x_0}{m_2}=\frac{y-y_0}{n_2}=\frac{z-z_0}{p_2}$ düz xətləri arasındakı bucaq:

$$\cos\varphi=\frac{m_1m_2+n_1n_2+p_1p_2}{\sqrt{m_1^2+n_1^2+p_1^2}\sqrt{m_2^2+n_2^2+p_2^2}}.$$

Düz xətlərin paralellik şərti:

$$\frac{m_1}{m_2}=\frac{n_1}{n_2}=\frac{p_1}{p_2}.$$

Düz xətlərin perpendikulyarlıq şərti:

$$m_1m_2+n_1n_2+p_1p_2=0.$$

11) $\dfrac{x-x_0}{m}=\dfrac{y-y_0}{n}=\dfrac{z-z_0}{p}$ düz xətti ilə

$Ax+By+Cz+D=0$ müstəvisi arasındakı bucaq:

$$\sin\varphi=\frac{Am+Bn+Cp}{\sqrt{A^2+B^2+C^2}\sqrt{m^2+n^2+p^2}}.$$

Düz xətlə müstəvinin paralellik şərti:

$$Am+Bn+Cp=0.$$

Düz xəttlə müstəvinin perpendikulyarlıq şərti:

$$\frac{A}{m}=\frac{B}{n}=\frac{C}{p}.$$

İkitərtibli əyrilər və səthlər

1) Mərkəzi (a,b) nöqtəsində və radiusu R olan çevrənin kanonik tənliyi:

$$(x-a)^2+(y-b)^2=R^2.$$

2) Yarımoxları a və b olan ellirsin kanonik tənliyi:

$$\frac{x^2}{a^2}+\frac{y^2}{b^2}=1.$$

Ellipsin fokusları: $F_1(c,0)$ və $F_2(-c,0)$, burada $c^2=a^2-b^2$.
Ellipsin (x,y) nöqtəsinin fokal radiusları:

$$r_1=a-\varepsilon x,\ r_2=a+\varepsilon x,$$

burada $\varepsilon=\dfrac{c}{a}$ ellipsin ekssentrisitetidir.

3) Yarımoxları a və b olan hiperbolanın kanonik tənliyi:

$$\frac{x^2}{a^2}-\frac{y^2}{b^2}=1.$$

Hiperbolanın fokusları:

$F_1(c,0)$ və $F_2(-c,0)$, burada $c^2=a^2+b^2$.

Hiperbolanın (x,y) nöqtəsinin fokal radiusları:

$$r_1=\pm(\varepsilon x-a),\ r_2=\pm(\varepsilon x-a),$$

burada $\varepsilon=\dfrac{c}{a}>1$ hiperbolanın ekssentrisitetidir.

Hiperbolanın asimptotları:

$$y=\pm\frac{b}{a}x.$$

4) Parabolanın kanonik tənliyi:

$$y^2=2px$$

Parabolanın fokusu: $F\left(\dfrac{p}{2},0\right)$, direktisin tənliyi $x=-\dfrac{p}{2}$,

parabolanın (x,y) nöqtəsinin fokal radiusu: $r=x+\dfrac{p}{2}$.

5) Mərkəzi (a,b,c) nöqtəsində olan R radiuslu sferanın tənliyi:

$$(x-a)^2+(y-b)^2+(z-c)^2=R^2.$$

6) Fırlanma ellipsoidləri:

$$\frac{x^2}{a^2}+\frac{y^2+z^2}{b^2}=1,\quad \frac{x^2+z^2}{a^2}+\frac{y^2}{b^2}=1.$$

7) Fırlanma hiperboloidləri:

$$\frac{x^2}{a^2}-\frac{y^2+z^2}{b^2}=1,\quad \frac{x^2+z^2}{a^2}-\frac{y^2}{b^2}=1.$$

8) Fırlanma paraboloid:

$$y^2+z^2=2px.$$

9) Yarımoxları a,b,c olan ellipsoid:

$$\frac{x^2}{a^2}+\frac{y^2}{b^2}+\frac{z^2}{c^2}=1.$$

10) Elliptik paraboloid:

$$\frac{x^2}{p}+\frac{y^2}{q}=2z,\ p>0,\ q>0.$$

11) Biroyuqlu hiperbolrid:

$$\frac{x^2}{a^2}+\frac{y^2}{b^2}-\frac{z^2}{c^2}=1.$$

12) İkioyuqlu hiperboloid:

$$\frac{x^2}{a^2}+\frac{y^2}{b^2}-\frac{z^2}{c^2}=-1.$$

13) Hiperbolik paraboloid:

$$\frac{x^2}{p^2}-\frac{y^2}{q}=2z,\quad p>0,\quad q>0.$$

Limitlər

1) Ardıcıllığın limitinin tərifi:

Tutaq ki, $\{x_n\}$ ardıcıllığı və a ədədi verilmişdir. İstənilən ε>0 ədədi üçün elə N=N(ε) nömrəsi var ki, n-in N-dən kiçik olmayan bütün qiymətlərində $|x_n-a|<\varepsilon, n\geq N$ bərabərsizliyi ödənir. Onda a ədədinə $\{x_n\}$ ardıcıllığının limiti deyilir və $\lim\limits_{n\to\infty} x_n=a$ kimi işarə olunur.

2) Yığılan ardıcıllıqlar üzərində hesab əməlləri:

$\lim\limits_{n\to\infty} kx_n=k\lim\limits_{n\to\infty} x_n$ (k-sabit ədəddir),

$$\lim_{n\to\infty}(x_n\pm y_n)=\lim_{n\to\infty}x_n\pm\lim_{n\to\infty}y_n,\ \lim_{n\to\infty}(x_n,y_n)=\lim_{n\to\infty}x_n\cdot\lim_{n\to\infty}y_n,$$

$$\lim_{n\to\infty}\frac{x_n}{y_n}=\frac{\lim\limits_{n\to\infty}x_n}{\lim\limits_{n\to\infty}y_n},(\lim_{n\to\infty}y_n\neq 0).$$

3) e ədədi:

$$\lim_{n\to\infty}\left(1+\frac{1}{n}\right)^n = e = 2,71828...$$

4) Onluq və natural loqarifmlər arasında əlaqə:
$\lg x = M\ln x$, $x>0$

burada $M=\lg e=0,43429\ldots$

5) Funksiyanın limitinin tərifi:
Tutaq ki, sonlu x_0, A ədədləri və istənilən $\varepsilon>0$ ədədi üçün elə $\delta = \delta(\varepsilon)>0$ ədədi var ki, x-in X çoxluğundan götürülmüş və $0<|x-x_0|<\delta$ bərabərsizliyini ödəyən bütün qiymətlərində

$$|f(x)-A|<\varepsilon$$

bərabərsizliyi ödənilir. Onda A ədədinə x_0 nöqtəsində f(x) funksiyasının limiti deyilir və

$$\lim_{x\to x_0} f(x) = A$$

kimi işarə olunur.

6) Funksiyanın limitinin xassələri:

$$\lim_{x\to x_0} kf(x) = k\lim_{x\to x_0} f(x) \text{ (k-sabit ədəddir)},$$

$$\lim_{x\to x_0}(f(x)\pm g(x)) = \lim_{x\to x_0} f(x) \pm \lim_{x\to x_0} g(x),$$

$$\lim_{x\to x_0}(f(x)g(x)) = \lim_{x\to x_0} f(x)\lim_{x\to x_0} g(x),$$

$$\lim_{x\to x_0}\frac{f(x)}{g(x)} = \frac{\lim\limits_{x\to x_0} f(x)}{\lim\limits_{x\to x_0} g(x)},\quad \lim_{x\to x_0} g(x)\neq 0.$$

7) Məşhur limitlər:

$$\lim_{x\to 0}\frac{\sin x}{x} = 1,\quad \lim_{x\to\infty}\left(1+\frac{1}{x}\right)^x = e.$$

Misal həllində aşağıdakı limitlərdən istifadə etmək məqsədə uyğundur.

$$\lim_{x\to 0}\frac{\ln(1+x)}{x}=1,\quad \lim_{x\to 0}\frac{a^x-1}{x}=\ln a,\quad \lim_{x\to 0}\frac{(1+x)^n-1}{x}=n.$$

8) Funksiyanın nöqtədə kəsilməzliyi:

$$\text{Əgər } \lim_{x\to x_0} f(x)=f(x_0)$$

bərabərliyi ödənilərsə, onda $f(x)$ funksiyasına x_0 nöqtəsində kəsilməz funksiya deyilir.

9) x arqumentinin Δx artımına uyğun y=f(x) funksiyasının artımı:

$$\Delta y=f(x+\Delta x)-f(x).$$

10) y=f(x) funksiyasının nöqtədə kəsilməzlik şərti:

$$\lim_{\Delta x\to 0}\Delta y=0.$$

11) Funksiyanın nöqtədə kəsilməzliyinin əsas xassəsi:

$$\lim_{x\to x_0} f(x)=f(\lim_{x\to x_0} x).$$

Törəmə və diferensial

1) Törəmə:

$$y'=\frac{dy}{dx}=\lim_{\Delta x\to 0}\frac{\Delta y}{\Delta x}=\lim_{\Delta x\to 0}\frac{f(x+\Delta x)-f(x)}{\Delta x}.$$

$y_0'=f'(x_0)$ törəməsi y=f(x) funksiyasının (x_0,f(x_0)) nöqtəsində əyriyə çəkilən toxunanın bucaq əmsalına bərabərdir:

$$k=f'(x_0).$$

2) y=f(x) əyrisinə (x_0,f(x_0)) nöqtəsində çəkilən toxunan və normalın tənlikləri:

$$y-y_0=f'(x_0)(x-x_0),\; y-y_0=-\frac{1}{f'(x_0)}(x-x_0).$$

3) Cəmin, hasilin və nisbətin törəməsi:
Tutaq ki, $y_1=f(x)$ və $y_2=g(x)$ funksiyalarının x nöqtəsində törəmələri var. Onda

$$(y_1 \pm y_2)' = y_1' \pm y_2', (y_1 y_2)' = y_1' y_2 + y_1 y_2', (cy_1)' = cy_1'$$

(c-sabitdir.)

$$\left(\frac{y_1}{y_2}\right)' = \frac{y_1' y_2 - y_1 y_2'}{y_2^2}, \; y_2 \neq 0.$$

4) Mürəkkəb funksiyanın törəməsi:
Əgər $y=f(x)$, $x=\varphi(t)$, yəni $y=f(\varphi(t))$ və $f(x)$ və $\varphi(t)$ funksiyalarının törəmələri varsa, onda:

$$y_t' = y_x' \cdot x_t'.$$

5) Tərs funksiyanın törəməsi:
$Y=f(x)$ funksiyasının x nöqtəsində $f'(x) \neq 0$ törəməsi varsa, onda $x=\varphi(y)$ tərs funksiyasının törəməsi var və

$$\varphi'(y) = \frac{1}{f'(x)}.$$

6) Əsas elementar funksiyaların törəmə düsturları:

1. $c'=0$, c=sabitdir, 2. $(x^{\alpha})' = \alpha x^{\alpha-1}$, $\alpha \in R$,

3. $(\log_a x)' = \frac{1}{x}\log_a e$, 4. $(a^x)' = a^x \ln a$,

5. $(e^x)' = e^x$, 6. $(\sin x)' = \cos x$, 7. $(\cos x)' = -\sin x$,

8. $(tgx)' = \frac{1}{\cos^2 x}$, 9. $(ctgx)' = -\frac{1}{\sin^2 x}$,

10. $(\arcsin x)' = \frac{1}{\sqrt{1-x^2}}$, 11. $(\arccos)' = -\frac{1}{\sqrt{1-x^2}}$,

12. $(arctg)' = \frac{1}{1+x^2}$, 13. $(arcctg)' = -\frac{1}{1+x^2}$,

14. $(shx)' = chx$, 15. $(chx)' = shx$,

16. $(thx)' = \dfrac{1}{ch^2 x}$, 17. $(cthx)' = -\dfrac{1}{sh^2 x}$.

7) Yüksək tərtibli törəmələr:

y=f(x) funksiyasının $f'(x)$ törəməsinin törəməsinə onun ikitərtibli törəməsi deyilir: $f''(x) = (f'(x))'$. Eyni qayda ilə üçtərtibli törəməyə tərif verilir: $f'''(x) = (f''(x))'$. Ümumiyyətlə, $(y^{(n-1)})' = y^{(n)} = f^{(n)}(x)$.

8) Yüksək tərtibli törəmələri hesablamaq qaydası:

Əgər $y_1=f(x)$ və $y_2=g(x)$ funksiyalarının $f^{(n)}(x)$ və $g^{(n)}(x)$ n-tərtibli törəmələri varsa, onda:

$(cy_1)^{(n)}=cy_1^{(n)}$, c-sabitdir,

$$(y_1 \pm y_2)^{(n)}=y_1^{(n)}+y_2^{(n)},$$

$$(y_1 y_2)^{(n)} = y_1^n y_2 + n y_1^{(n-1)} y_2' + \frac{n(n-1)}{2!} y_1^{(n-2)} y_2'' + \ldots + y_1 y_2^{(n)}.$$

Axırıncı düstur Leybnis düsturu adlanır.

9) Sərbəst x dəyişənin diferensialı: $dx=\Delta x$, y=f(x). Funksiyasının diferensialı: $dy=y'dx$. Funksiyanın Δy artımı ilə dy diferensialı arasında əlaqə:

$\Delta y= dy+\alpha\Delta x$, burada $\alpha \to 0$ ($\Delta x \to 0$).

10) Diferensialın əsas xassələri:

1. dc=0, c-sabitdir, 2. dcy=cdy,
3. $d(y_1 \pm y2)=dy_1 \pm dy_2$, 4. $d(y_1y_2)=y_1dy_2+y_2dy_1$,
5. $d\left(\dfrac{y_1}{y_2}\right) = \dfrac{y_2 dy_1 - y_1 dy_2}{y_2^2}, y_2 \neq 0$,
6. $df(y) = f'(y)dy$.

11) Funksiyanın qiymətinin təqribi hesablanması:

Əgər Δx arqument artımı çox kiçik olarsa, onda $\Delta y \approx dy$ və $f(x + \Delta x) \approx f(x) + f'(x)\Delta x$ münasibətindən istifadə edərək funksiyanın qiymətini təqribi hesablamaq olar.

12) Yüksək tərtibli diferensiallar:

$y=f(x)$ funksiyasının $dy=df(x)$ diferensialının diferensialına onun ikitərtibli diferensialı deyilir: $d^2y=d(dy)$.

Eyni qayda ilə üçtərtibli diferensiala tərif verilir. $d(d^2y)=d^3y$.

Ümumiyyətlə, $d(y^{(n-1)})=d^ny$.

Törəmənin tətbiqi

1) Diferensiallanan $y=f(x)$ funksiyası üçün Laqranj düsturu:

$$f(b)-f(a)=(b-a)f'(x_0),\ x_0\in(a,b).$$

2) Diferensiallanan $y_1=f(x)$ və $y_2=g(x)$ funksiyaları üçün Koşi düsturu:

$$\frac{f(b)-f(a)}{g(b)-g(a)}=\frac{f'(x_0)}{g'(x_0)},\quad x_0\in(a,b).$$

3) $\frac{0}{0}$ və ya $\frac{\infty}{\infty}$ şəklində qeyri-müəyyənliklər üçün Lopital qaydası:

$$\lim_{x\to x_0}\frac{f(x)}{g(x)}=\lim_{x\to x_0}\frac{f'(x)}{g'(x)},$$

əgər sağ tərəfdəki limit varsa.

4) Teylor düsturu:

$$f(x)=f(x_0)+\frac{f'(x_0)}{1!}(x-x_0)+\frac{f''(x_0)}{2!}(x-x_0)^2+\ldots+$$

$$+\frac{f^{(n)}(x_0)}{n!}(x-x_0)^n+0((x-x_0)^n).$$

$x_0=0$ olduqda Makloren düsturu alınır.

$$f(x)=f(0)+\frac{f'(0)}{1!}+\frac{f''(0)}{2!}x^2+\ldots+\frac{f^{(n)}(0)}{n!}x^n+0(x^n).$$

5) Elementar funksiyaların Makloren düsturuna görə ayrılışı:

1. $e^x=1+\frac{x}{1!}+\frac{x^2}{2!}+\ldots+\frac{x^n}{n!}+0(x^n).$

2. $\sin x = x - \frac{x^3}{3!} + \frac{x^5}{5!} - ... + (-1)^n \frac{x^{2n+1}}{(2n+1)!} + 0(x^{2n+2})$.

3. $\cos x = 1 - \frac{x^2}{2!} + \frac{x^4}{4!} - ... + (-1)^n \frac{x^{2n}}{(2n)!} + 0(x^{2n+1})$.

4. $(1+x)^\alpha = 1 + \frac{\alpha}{1!} + \frac{\alpha(\alpha-1)}{2!}x^2 + ... +$

$$+\frac{\alpha(\alpha-1)...(\alpha-n+1)}{n!}x^n + 0(x^n).$$

5. $\ln(1+x) = x - \frac{x^2}{2} + \frac{x^3}{3} - ... + (-1)^{n-1}\frac{x^n}{n} + 0(x^n)$.

6) (a,b) intervalında $f'(x) > 0(f'(x) < 0)$ olduqda $y=f(x)$ funksiyası həmin intervalda artandır (azalandır).

7) $f(x)$ funksiyasının x_0 nöqtəsində ekstremumunun varlığı üçün zəruri şərt: $f'(x_0) = 0$ və ya $f'(x_0)$ olmadıqda.

$f(x)$ funksiyasının x_0 nöqtəsində ekstremumunun varlığı üçün kafi şərt: $f'(x_0) = 0$, $f''(x_0) \neq 0$, $f''(x_0) < 0$ olarsa, funksiyanın x_0 nöqtəsində maksimumu, $f''(x_0) > 0$ olduqda isə həmin nöqtədə minimumu var.

8) y=f(x) funksiyasının qrafiki (a,b) intervalında $f''(x_0) > 0$ olduqda gabarıqdır, $f''(x_0) > 0$ olduqda çökükdür.

9) y=f(x) funksiyasının qrafikinin x_0 nöqtəsində əyilmə nöqtəsi olması üçün zəruri şərt: $f''(x_0) = 0$ və ya $f''(x_0)$ olmadıqda.

Əyilmə nöqtəsi üçün kafi şərt, x_0 nöqtəsindən keçəndə $f''(x)$-in işarəsini dəyişməsidir.

10) Əyrinin asimptotları:

1. $\lim\limits_{x \to x_0 - 0} f(x) = \infty$, $\lim\limits_{x \to x_0 + 0} f(x) = \infty$, $\lim\limits_{x \to x_0} f(x) = \infty$

olduqda $x=x_0$ düz xətti $y=f(x)$ əyrisinin şaquli asimptotudur.

3) $\lim\limits_{x\to+\infty} f(x)=b,\quad \lim\limits_{x\to-\infty} f(x)=b$ olduqda $y=b$ düz xətti $y=f(x)$ əyrisinin üfüqi asimptotudur.

4) $\lim\limits_{x\to+\infty}(f(x)-kx-b)=0,\quad \lim\limits_{x\to-\infty}(f(x)-kx-b)=0$ olduqda $y=kx+b$ düz xətti $y=f(x)$ əyrisinin maili asimptotudur.

Həqiqi dəyişənli vektor və kompleks funksiyalar

1) Skalyar arqumentli $\bar{r}(t)=x(t)\bar{i}+y(t)\bar{j}+z(t)\bar{k}$ vektor funksiyanın törəməsi:

$$\lim_{\Delta t\to 0}\frac{\Delta\bar{r}(t)}{\Delta t}=\bar{r}'(t)=\frac{d\bar{r}(t)}{dt}.$$

2) $y=f(x)$ əyri qövsünün diferensialı:

$$dl=\sqrt{1+(y')^2}\,dx.$$

3) $y=f(x)$ əyrisinin ixtiyari $M(x,y)$ nöqtəsində əyriliyi:

$$K_M=\frac{y''}{(1+(y')^2)^{\frac{3}{2}}}.$$

4) $y=f(x)$ əyrisini ixtiyari $M(x,y)$ nöqtəsində əyrilik mərkəzinin $C(\alpha,\beta)$ koordinatları:

$$\alpha=x-\frac{y'+(y')^3}{y''},\ \beta=y+\frac{1+(y')^2}{y''}.$$

5) Kompleks ədəd $z=x+iy$, burada $i^2=-1$. Kompleks ədədin modulu və arqumenti:

$$|z|=\sqrt{x^2+y^2},\ \varphi=arctg\frac{y}{x}.$$

6) $z=x+iy$ klmpleks ədədinin qoşması: $\bar{z}=x-iy$.

7) $z_1=x_1+iy_1$ və $z_2=x_2+iy_2$ komprleks ədədlər üzərində hesab əməlləri:

1. $z_1 \pm z_2=(x_1\pm x_2)+i(y_1\pm y_2)$,

2. $z_1z_2=(x_1x_2-y_1y_2)+i(x_1y_2+x_2y_1)$,

3. $\dfrac{z_1}{z_2}=\dfrac{(x_1x_2+y_1y_2)-i(x_2y_1-x_1y_2)}{x^2+y^2}$, $z_2\neq 0$.

8) Kompleks ədədin triqonometrik şəkli:

$$z=\rho(\cos\varphi+i\sin\varphi),$$

burada $\rho=|z|$ və φ=Argz.

9) Kompleks ədədin üstlü şəkli: $z=\rho e^{i\varphi}$, burada $\rho=|z|$ və

$$\varphi=Argz.$$

10) Kompleks ədədin modulu və arqumentinin xassələri:

1. $|z_1+z_2|\leq|z_1|+|z_2|$,

2. $|z_1z_2|=|z_1||z_2|$, $Argz_1z_2=Argz_1+Argz_2$,

3. $\left|\dfrac{z_1}{z_2}\right|=\dfrac{|z_1|}{|z_2|}$, $Arg\dfrac{z_1}{z_2}=Argz_1-Argz_2, z_2\neq 0$,

4. $|z^n|=|z|^n, Argz^n=nArgz, n-$tam ədəddir.

11) Muavr düsturu:

$$(\rho(\cos\varphi+i\sin\varphi))^n=\rho^n(\cos n\varphi+i\sin n\varphi).$$

12) Kompleks ədədən kökalma:

$$\sqrt[n]{z}=\sqrt[n]{|z|}\left(\cos\frac{\arg z+2k\pi}{n}+i\sin\frac{\arg z+2k\pi}{n}\right),$$

$$k=0,1,2,\ldots,n-1.$$

13) Əgər $f(x)$ funksiyası $[a,b]$ parçasında kəsilməzdirsə və $f(a)f(b)<0$ olarsa, onda $f(x)=0$ tənliyinin x_1 kökünün təqribi qiymətini aşağıdakı düsturlarla tapmaq olar:

1. $x_1=a-\dfrac{f(a)}{f(b)-f(a)}(b-a)$ (vətərlər üsulu).

2. $x_1=a-\dfrac{f(a)}{f(b)}$, burada $f'(a)\neq 0, f(a)f''(a)>0$ (toxunanlar üsulu).

İnteqrallar

1) Əgər $dy=f(x)dx$ olarsa, onda

$y=\int f(x)dx+c$, c-sabitdir,

(qeyri-müəyyən inteqral).

2) Qeyri-müəyyən inteqralın əsas xassələri:

1. $\left(\int f(x)dx\right)'=f(x)$, 2. $d\left(\int f(x)dx\right)=f(x)dx$,

3. $\int df(x)=f(x)+c$, 4. $\int kf(x)dx=k\int f(x)dx$, k -sabitdir.

5. $\int(f(x)\pm g(x))dx=\int f(x)dx\pm\int g(x)dx$.

3) İnteqrallar cədvəli:

1. $\int x^a dx=\dfrac{x^{a+1}}{a+1}+c, (a\neq -1)$, 2. $\int\dfrac{dx}{x}=\ln|x|+c$,

3. $\int a^x dx=\dfrac{a^x}{\ln a}+c$, 4. $\int e^x dx=e^x+c$,

5. $\int\sin xdx=-\cos x+c$, 6. $\int\cos xdx=\sin x+c$,

7. $\int tgxdx=-\ln\cos x+c$, 8. $\int ctgxdx=\ln\sin x+c$,

9. $\int\dfrac{dx}{\cos^2 x}=tgx+c$, 10. $\int\dfrac{dx}{\sin^2 x}=-ctgx+c$,

11. $\int\dfrac{dx}{\sqrt{1-x^2}}=\begin{cases}\arcsin x+c\\ -\arccos x+c\end{cases}$ 12. $\int\dfrac{dx}{1+x^2}=\begin{cases}arctgx+c\\ -arcctgx+c\end{cases}$

13. $\int\dfrac{dx}{1-x^2}=\dfrac{1}{2}\ln\left|\dfrac{1+x}{1-x}\right|+c$, 14. $\int\dfrac{dx}{\sqrt{x^2\pm 1}}=\ln\left|x+\sqrt{x^2\pm 1}\right|+c$,

15. $\int shxdx=chx+c$. 16. $\int chxdx=shx+c$.

4) Dəyişənin əvəz edilməsi: Əgər $x=\varphi(t)$ olarsa, onda:

$$\int f(x)dx=\int f(\varphi(t))\varphi'(t)dt.$$

5) Hissə-hissə inteqrallama düsturu:

$$\int udv = uv - \int vdu .$$

6) Sadə kəsrlərin inteqrallanması:

1. $\int \frac{A}{x-a}dx = A\ln|x-a| + c .$

2. $\int \frac{A}{(x-a)^n}dx = \frac{A}{(1-n)(x-a)^{n-1}} + c, n > 1, n \in N .$

3. $\int \frac{Ax+B}{x^2+px+q}dx = \frac{A}{2}\ln(x^2+px+q) +$

$$+\frac{2B-Ap}{\sqrt{4q-p^2}} arctg \frac{2x+p}{\sqrt{4q-p^2}} + c ,$$

burada a,A,B,p,q həqiqi ədədlərdir və $\frac{p^2}{4} - q < 0$.

7) Rasional kəsrin sadə kəsrlərə aylırması:

1. $f(x) = (x-a)^k f_1(x), f_1(a) \neq 0$ olarsa, onda:

$$\frac{g(x)}{f(x)} = \frac{A}{(x-a)^k} + \frac{g_1(x)}{(x-a)^{k-1} f_1(x)} .$$

2. $f(x) = (x^2+px+q)^m f_1(x), f_1(a) \neq 0, f_1(\overline{a}) \neq 0$, olarsa, onda:

$$\frac{g(x)}{f(x)} = \frac{Bx+C}{(x^2+px+q)^m} + \frac{g_1(x)}{(x^2+px+q)^{m-1} f_1(x)},$$

burada a,A,B,p,q həqiqi ədədlərdir və

$$a = a+ib, \overline{a} = a-ib, p = -2a, q = a^2+b^2 .$$

8) Ostroqradski düsturu:

$$\int \frac{g(x)}{f(x)}dx = \frac{g_1(x)}{f_1(x)} + \int \frac{g_2(x)}{f_2(x)}dx$$

burada $f_1(x)$ çoxhədlisi $f(x)$ və $f'(x)$ çoxhədlisinin ən böyük ortaq bölənidir və $f_2(x)=\dfrac{f(x)}{f_1(x)}$, $g_1(x)$ və $g_2(x)$ qeyri-müəyyən əmsallı çoxhədlilərdir.

9) $\int R\left(x,\sqrt{\dfrac{ax+b}{cx+d}}\right)dx$ şəklində inteqrallar:

burada a,b,c,d sabit ədədlərdir, m-natural ədəddir, $ad-bc\neq 0$ və R öz arqumentlərinin rasional funksiyasıdır.

$$t=\sqrt{\frac{ax+b}{cx+d}}$$

əvəzləməsi ilə inteqralı rasionallaşdırmaq olar.

10) $\int R\left(x,\sqrt{ax^2+bx+c}\right)dx$ şəklində inteqrallar:

Eylər əvəzləmələri ilə inteqralı rasionallaşdırmaq olar.

1. $a>0$ olduqda, $\sqrt{ax^2+bx+c}=\sqrt{a}x+t$.
2. $c>0$ olduqda, $\sqrt{ax^2+bx+c}=xt+\sqrt{c}$
3. $ax^2+bx+c=a(x-\alpha)(x-\beta)$ olduqda $\sqrt{ax^2+bx+c}=(x-\alpha)t$.

11) $\int x^m(a+bx^n)^p\,dx$ şəklində inteqrallar, burada a,b ixtiyari sabitlərdir, m,n,p-rasional ədədlərdir.

1. p-tam ədəddir, onda $x=t^s$ əvəzləməsi ilə inteqralı rasionallaşdırmaq olar, burada s ədədi m və n kəsrlərinin məxrəclərinin ən kiçik ortaq bölünənidir.
2. $\dfrac{m+1}{n}$ tam ədəddir, bu halda $a+bx^n=t^s$ əvəzləməsi ilə inteqralı rasionallaşdırmaq olar.

3. $\frac{m+1}{n}+p$ tam ədəddir, bu halda $ax^{-n}+b=t^s$ əvəzləməsi ilə inteqralı rasionallaşdırmaq olar, burada s,p-kəsrinin məxrəcidir.

12) Triqonometrik funksiyaların inteqrallanması:

1. $\int R(\sin x, \cos x)dx$ şəklində inteqralları $t=tg\frac{x}{2}$ əvəzləməsi ilə rasionallaşdırmaq olar.

2. $\int \sin^m x \cos^n x dx$ şəklində inteqralları $t=sinx$ və ya $t=cosx$ əvəzləməsi ilə binomial diferensialın inteqralına gətirmək olar.

13) Müəyyən inteqral, inteqral cəminin limiti kimi:

$$\int_a^b F(x)dx = \lim_{\lambda \to 0} \sum_{k=1}^{n} f(\xi_k)\Delta x_k ,$$

burada $\xi_k \in [x_{k-1}, x_k], \Delta x_k = x_k - x_{k-1}, \lambda = \max \Delta x_k$

14) Müəyyən inteqralın əsas xassələri:

1. $\int_a^b f(x)dx = -\int_b^a f(x)dx$, 2. $\int_a^a f(x)dx = 0$,

3. $\int_a^b f(x)dx = \int_a^b f(t)dt = \int_a^b f(z)dz$,

4. $\int_a^b kf(x)dx = \int_a^b f(x)dx, k$ – sabitdir.

5. $\int_a^b f(x)dx = \int_a^c f(x)dx + \int_c^b f(x)dx$,

6. $\int_a^b (f(x) \pm g(x))dx = \int_a^b f(x)dx \pm \int_a^b g(x)dx$,

7. $\frac{d}{dx}\int_a^x f(t)dt = f(x)$, 8. $\frac{d}{dx}\int_x^b f(t)dt = -f(x)$,

15) Orta qiymət teoremi: Əgər $f(x)$ funksiyası $[a,b]$ parçasında kəsilməz olarsa, onda:

$$\int_a^b f(x)dx = (b-a)f(x_0), a < x_0 < b.$$

16) Nyuton-Leybnis düsturu: Əgər $f(x)$ funksiyası $[a,b]$ parçasında kəsilməzdirsə və $F'(x) = f(x)$, onda:

$$\int_a^b f(x)dx = F(b) - F(a).$$

17) Müəyyən inteqralda dəyişənin əvəz edilməsi:

$$\int_a^b f(x)dx = \int_\alpha^\beta f(\varphi(t))\varphi'(t)dt,$$

burada $a=\varphi(\alpha)$ və $b=\varphi(\beta)$.

18) Müəyyən inteqralın hissə-hissə inteqrallama düsturu:

$$\int_a^b udv = uv\Big|_a^b - \int_a^b vdu.$$

19) Əgər $f(x)$, $[-a,a]$ parçasında cüt funksiya, yəni $f(-x)=f(x)$ olarsa, onda:

$$\int_{-a}^a f(x)dx = 2\int_0^a f(x)dx.$$

Əgər $f(x)$, $[-a,a]$ parçasında tək funksiya, yəni $f(-x)=-f(x)$ olarsa, onda:

$$\int_{-a}^a f(x)dx = 0.$$

20) Müəyyən inteqralın təqribi hesablanması:

1. Düzbucaqlılar düsturu:

$$\int_a^b f(x)dx \approx \frac{b-a}{n}(y_0 + y_1 + \ldots + y_{n-1}),$$ burada $x_0=a$ və

$$x_n = b, y = f(x), x_k = a + k\frac{b-a}{n}, k = 0,1,2,\ldots,n$$

2. Trapeslər düsturu:

$$\int_a^b f(x)dx \approx \frac{b-a}{n}\left(\frac{y_0 + y_n}{2} + y_1 + y_2 + \ldots + y_{n-1}\right),$$ burada,

$$x_0=a \text{ və } x_n=b, y=f(x), x_k=a + k\frac{b-a}{n}, k = 0,1,2,\ldots,n$$

3. Simpson düsturu:

$$\int_a^b f(x)dx \approx \frac{b-a}{6n}(y_0 + y_{2n} + 4(y_1 + \ldots + y_{2n-1}) + 2(y_2 + \ldots + y_{2n-2}))$$

21) Ox oxunun $[a,b]$ parçası, $x=a$ və $x=b$ düz xətləri, kəsilməz $y=f(x)$ əyrisi ilə məhdud olan əyrixətli tparesin sahəsi düsturu:

$$S = \int_a^b f(x)dx .$$

22) $x=a$ və $x=\beta$ $(a<\beta)$ şüaları, kəsilməz $\rho=f(\varphi)$ (ρ, φ -polyar koordinatlardır) əyrisi ilə məhdud olan əyrixətli sektorun sahəsi düsturu:

$$S = \frac{1}{2}\int_a^\beta f^2(\varphi)d\varphi .$$

23) $x=\varphi(t)$, $y=\Psi(t)$, $a\leq t\leq\beta$ parametrik şəkildə verilmiş hamar əyrinin uzunluğu düsturu:

$$l = \int_{a}^{\beta} \sqrt{(\varphi'(t))^2 + (\Psi'(t))^2}\, dt .$$

Əgər əyri $y=f(x)$, $a \le t \le b$ tənliyi ilə verilərsə, onda:

$$l = \int_{a}^{b} \sqrt{1 + (y')^2}\, dx .$$

24) Kəsilməz $y=f(x)$, $a \le t \le b$ əyrisinin Ox oxu ətrafında fırlanmasından alınan cismin səthinin sahəsi düsturu:

$$S = 2\pi \int_{a}^{b} f(x)\sqrt{1 + (f'(x))^2}\, dx .$$

25) Kəsilməz $y=f(x)$, $a \le t \le b$ əyrisinin Ox oxu ətrafında fırlanmasından alınan cismin səthinin sahəsi düsturu:

$$V = \pi \int_{a}^{b} f^2(x) dx .$$

26) Kəsilməz $y=f(x)$, $a \le t \le b$ əyrisinin ağırlıq mərkəzinin koordinatları:

$$x_c = \frac{1}{l}\int_{a}^{b} x dl, \quad y_c = \frac{1}{l}\int_{a}^{b} y dl ,$$

burada, $dl = \sqrt{1 + (y')^2}\, dx, l$ -əyrinin uzunluğudur.

27) Əyrixətli tparesin ağırlıq mərkəzinin koordinatları:

